# Xalq qəzeti

Xalqın qəzeti!

№ 81 (30485) 23 aprel 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


**Azərbaycan–Rusiya münasibətlərinin inkişafında yeni mərhələ**



Səhifə ⇨ 4

# Azərbaycan–Rusiya: ortaq keçmişdən ümumi hədəflərə

## Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri

### Moskvanın Vnukovo-2 beynəlxalq hava limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə aprelin 22-də Moskvaya işgüzar səfərə gəlib.**

Moskvanın Vnukovo-2 beynəlxalq hava limanında dövlətimizin başçısını Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin və digər rəsmi şəxslər qarşıladılar.

### Liderlərin təkbətək görüşü



**Aprelin 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.**

Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan Rusiya Prezidenti **Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu. Gəldiyiniz üçün sağ olun.

Bu günlərdə BAM-ın (Baykal–Amur Magistralının) 50 illiyini qeyd edirik. Hamı yaxşı bilir ki, hökumət komissiyasına rəhbərlik edən atanız dəfələrlə tikintiyə baş çəkərək bu məsələdə çox əhəmiyyətli rol oynayıb. Əslində o, bütün Sovet İttifaqı üçün mühüm olan bu nəhəng layihənin təşkilatçılarından biri olub.

(ardı 3-cü səhifədə)

# “4”ün “44” olma ehtimalı və “dəmir yumruq” məntiqi

*Azərbaycana qaytarılan kəndlərlə bağlı Ermənistan hakimiyyəti nə deyir, revanşistlər nə?*



**Qazaxın dörd kəndinin Azərbaycana qaytarılması ilə bağlı məsələ Ermənistanda geniş müzakirə predmetinə çevrilməkdədir. Elə təəssürat yaranır ki, baş nazir Nikol Paşinyan xalqa qarşı çıxıb. Şovinist və revanşist kəsimin aktivliyi fonunda hakimiyyət tərəfdarlarının susqunluğu, yaxud onların səslərinin ucadan çıxmaması səbəbindən belə söyləməyə əsas var.**

Yayılmış video görüntülərdə Azərbaycana təhvil veriləcəyi rəsmiləşmiş kəndlərin erməni əhalisinin ərazini tərk etməmək üçün min cür hoqqadan çıxdığına dair səhnələr yer alır. Əlbəttə, bu səhnələrin hamısı qurmadır. O anlamda ki, kənd camaatını hakimiyyətin qərarına qarşı qaldırmaq istəyənlər fəaliyyətdədir. Onlar yol kəsir, polisə qarşı müqavimət təşkil edirlər və s.

Ermənistandakı revanşist-şovinist kəsimin nümayındələrinin kəndlərin qaytarılması xüsusunda paytaxt İrəvandakı fəallıqlarında başlıca motiv isə budur: hakimiyyətin çıxardığı qərar ölkə konstitusiyasına ziddir. Necə ziddir, bu barədə söz açacağıq. Ancaq əvvəlcə digər məqamları vurğulayaq.

***

Məsələ ondadır ki, Paşinyan administrasiyası Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətindəki fəaliyyətin ilk mərhələsi olan Qazaxın dörd kəndinin ölkəmizə təhvil verilməsində 1991-ci ilin Alma-Ata Bəyannaməsinə əsaslanır. Əlbəttə, bizim üçün vacib olan yaşayış məntəqələrimizə sahiblənməkdir. Rəsmi İrəvan durumu hansı tərzdə izah edir, məsələ Azərbaycan üçün bir o qədər əhəmiyyətli deyil. Ancaq hələlik. Nəyə görə hələlik?

Məlum olduğu kimi, Ermənistan Alma-Ata Bəyannaməsinə ümumən Azərbaycanla sülh prosesinin mühüm istinadgahı kimi yanaşır, onu ehkamlaşdırmaq yolunu tutur. Bu, o sənəddir ki, ona əsasən müttəfiq respublikalar keçmiş SSRİ-nin süqutundan sonra bir-birinin ərazi bütövlüklərini və suverenliklərini həmin vaxtadək malik olduqları sərhədlər daxilində tanıyırdılar. Lakin bir məqam var: rəsmi İrəvan otuz ilə yaxın müddətdə həmin bəyannaməni heçə sayaraq, Azərbaycanın ərazilərini işğalda saxladı.

Digər tərəfdən, Alma-Ata Bəyannaməsinə birbaşa istinad həm də ona görə yolverilməzdir ki, bu razılaşma SSRİ-nin dağılmasından sonra imperiya subyektlərinin dövlətdən ayrıldıqları zaman malik olduqları ərazi prinsipini əsas götürürdü. Daha doğrusu, ərazilərin qarşılıqlı əsasda tanınmasını. Bəs SSRİ-yə daxil olarkən mövcud ərazilər? Nəyə görə onlar nəzərə alınmır. Nə üçün nəzərə alınmır ki, Azərbaycan Sovetlər Birliyinə qoşularkən daha geniş torpaqlara sahib idi və imperiya rəhbərliyinin ermənipərəst mövqeyi səbəbindən ərazilərini itirdi. Hansı səbəbdən torpaqlarımız Ermənistan SSR-ə hədiyyə edilməli idi? Belə hədiyyələr reallaşdırılarkən, Azərbaycan xalqının iradəsi saya salınmışdımı? Azərbaycan SSR bir yana, ümumən SSRİ konstitusiyasının müddəaları necə, gözlənilmişdimi? Əlbəttə ki, yox!

Yəni, sözümüz ondadır ki, hazırda Ermənistan iqtidarının dörd kəndin qaytarılması məsələsində hansı səbəbi gətirməsinin önəmi yoxdur. Prinsipial məqam budur: Azərbaycan haqqı olana sahiblənir və bundan sonra da sahiblənəcək. Deməli, bəzi erməni siyasi dairələrinin uydurduqları haqq heç bir önəm daşımır. Ancaq, necə deyərlər, milçək bir şey deyil, amma könül bulandırır. Nəzərə alaq ki, “milçəklərin” könül bulandırmağının arxasında fərqli motivlər dayanır. Çox vaxt erməni iqtidarı da onların qaldırdıqları sərsəm ritorikanın əsirinə çevrilir. Daha dəqiq desək, həmin sərsəm ritorikanı xaricdəki havadarlarına ölkənin ictimai rəyinin reallıqla barışmaması şəklində qoyaraq dəstək istəyir. Çünki mahiyyətcə avantürist xislət baxımından Ermənistandakı revanşist kəsimlə mövcud hakimiyyət arasında heç bir fərq yoxdur. Ötən müddətdə yaşananlar da fikrimizin təsdiqidir. Rəsmi İrəvanın Alma-Ata Bəyannaməsini ehkamlaşdırması da məhz avantürizmdən qaynaqlanır.

(ardı 4-cü səhifədə)

# Rusiya–Ukrayna müharibəsi: Kəsmir heç kim tökülən qan izini



Səhifə ⇨ 11

# “Erməni soyqırımı” və Paşinyanın “Overton pəncərəsi”



Səhifə ⇨ 5

# Azərbaycan Orta Dəhlizin ortasında birləşdirici ölkədir




Səhifə ⇨ 7

# Lənkəranda çay sahələri 600 hektara çatacaq



Səhifə ⇨ 7

# Baykal–Amur Magistralının 50 illik yubileyi münasibətilə görüş

**Aprelin 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Baykal–Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşü keçirilib.**



Görüşdə çıxış edən Rusiya Prezidenti **Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

Yarım əsr əvvəl – elə bu günlərdə Baykal–Amur Magistral xəttinin tikintisinə başlanıldı. Bu, dünyanın ən böyük dəmir yolu arteriyalarından biridir, gələcəyin əsl yoludur. Təbii ki, bunu icra edənlərin, bu layihəni həyata keçirənlərin çoxu üçün, – o vaxt deyirdilər və indi də bunu təsdiq etmək olar, – BAM bütöv bir nəslin arzularının və romantik istəklərinin simvoludur.

BAM, həmçinin Sovet İttifaqının hər yerindən olan iki milyon gəncin nəhəng əməyinin və cəsarətinin təcəssümüdür. Onlar dünya tarixində tayı-bərabəri olmayan, hər mənada bənzərsiz bir layihə həyata keçirdilər.

Bu gün biz görürük ki, BAM əsasən XXI əsr üçün qlobal logistikanı müəyyən edir. Ölkəmiz Sibirin və Uzaq Şərqin mənimsənilməsi və inkişafı, Sakit Okeana doğru yük daşımalarının genişləndirilməsi üçün çox böyük imkanlar əldə etmişdir. Birbaşa deyə bilərik ki, indiki mərhələdə Şərqə dönüş məhz Baykal–Amur Magistralı sayəsində mümkün olmuşdur.

Görüşümüzün iştirakçılarını BAM-ın tikintisinə başlanması münasibətilə təbrik etmək istərdim. Burada, ilk növbədə, dəmir yolu sənayesinin, tikinti sənayesinin, dəmir yolu qoşunlarının veteranları haqqında danışmaq istərdim. Mən bu münasibətlə sizinlə həm çətinliyi, həm də qələbələri bölüşən, sizinlə hər şeyə sahib olan qohumlarınızı, yaxınlarınızı, dostlarınızı, həmkarlarınızı və xidmət yoldaşlarınızı təbrik etmək istəyirəm. İndi veteranlara müraciət edirəm, orada hər şey vardı, tonqallar ətrafında mahnılar oxunurdu, amma ən əsası, çətin və ağır zəhmət idi.

Göstərdiyiniz əmək şücaətinə, çətin vaxtlarda, keçən əsrin 90-cı illərində həyatınızın amalına sadiq qaldığınıza, əmək kollektivlərini qoruyub saxladığınıza, BAM-ın etibarlı işini təmin etdiyinizə görə hamınızın, sizinlə bərabər çalışan hər kəsin qarşısında baş əyirəm.

Bu gün BAM-da yaşayan və işləyən, qabaqcılların şanlı ənənələrini davam etdirən, bu ən mühüm dəmir yolu xəttinin yenidən qurulmasında, inkişafında və ona xidmət göstərilməsində iştirak edən hər kəsə ən səmimi sözlərimi ifadə etmək istəyirəm.

Bildiyiniz kimi, şücaətli əməyə görə təşəkkür və minnətdarlıq əlaməti olaraq, tikinti və dəmir yolu sənayesi veteranlarının və işçilərinin yüksək dövlət mükafatları ilə təltif edilməsi haqqında fərman imzalanıb.

BAM-ın tikintisinə başlanmasının yarıməsrlik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevi şəxsən təbrik etməkdən çox məmnunam. Onun atası, – bunu bütün BAM inşaatçıları yaxşı bilir, – Heydər Əlirza oğlu BAM-ın tarixində müstəsna, böyük rol oynayıb. Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində Baykal–Amur Magistralının tikintisinə rəhbərlik edir və bu çətin layihənin həyata keçirilməsi üçün əlindən gələni əsirgəmirdi.

Bu işdə ona böyük bilik və təcrübə, idarəçilik istedadı, ən mürəkkəb problemləri həll etmək bacarığı və əlbəttə ki, xüsusi şəxsi keyfiyyətlər, ilk növbədə, çalışdığı insanlara qayğıkeş, hörmətli münasibət kömək etdi və o, bu nəhəng problemləri həll edə bildi. O, özü BAM-ın obyektlərində oldu, inşaatçılar, yeni qəsəbə və şəhərlərin sakinləri ilə söhbət etdi. Necə deyərlər, rahatlıqla ona yaxınlaşa, problemlərini danışa, cari məsələləri müzakirə edə bilərdin.

Bilirəm ki, bizim görüşümüzdə Heydər Əlirza oğlu ilə birlikdə çalışanlar da iştirak edirlər. Sizdən xahiş edərdim ki, mütləq xatirələrinizi bölüşəsiniz, Heydər Əlirza oğlunun həyatınızda oynadığı roldan danışasınız.

Onu da əlavə edim ki, Heydər Əlirza oğlunun dəstəyi ilə azərbaycanlı layihəçilər və inşaatçılar BAM-ın tikintisi zamanı stansiya kompleksləri olan iki qəsəbə – Ulkan və Anqoyanı salıblar və hazırda Xabarovsk diyarında və Yakutiyada Baykal-Amur Magistral xəttinin hissələrinin yenidən qurulması və müasirləşdirilməsində iştirak edirlər.

Rusiya–Azərbaycan əməkdaşlığının digər sahəsi bu gün BAM-ın miqyasına və tarixi əhəmiyyətinə uyğundur. Söhbət "Şimal–Cənub" nəqliyyat dəhlizinin inkişafından gedir. Əslində, o, Şimal dənizi marşrutunu Fars körfəzi ilə birləşdirir və ya demək olar ki, birləşdirə bilər və birləşdirməlidir.

Həqiqətən ümumittifaq tikinti layihəsinə çevrilən və bütün İttifaq respublikalarının mənafeyinə xidmət edən BAM kimi, "Şimal–Cənub" nəqliyyat dəhlizi də ən geniş beynəlxalq əməkdaşlığın nümunəsinə çevrilməlidir. Söhbət Avrasiya və qlobal Cənub ölkələrinin sürətli iqtisadi və sosial inkişafı məqsədilə yeni logistik marşrutların formalaşdırılmasından gedir.

Bir daha vurğulamaq istərdim, biz bütün maraqlı dövlətləri bu layihədə iştiraka dəvət edirik, gözləyirik ki, bu layihədə BAM inşaatçılarının – ümumi məqsədlərin birləşdirdiyi müxtəlif millətlərdən olan insanların ən yaxşı, zamanın sınanmış dostluq və qarşılıqlı yardım ənənələrindən mütləq istifadə ediləcək.

Biz öz tərəfimizdən tərəfdaşlarımıza Asiya-Sakit okean regionunun sürətlə inkişaf edən bazarlarına çıxış təklif etməyə hazırıq. Bu məqsədlə qabaqcıl texnologiyalar əsasında BAM və Trans-Sibir dəmir yollarının sürətlə modernləşdirilməsi, bütün Şərq poliqonu dəmir yolu xəttinin inkişafı planlarını həyata keçirmək niyyətindəyik.

Bu planların həyata keçirilməsi ölkəmizin birliyinin möhkəmləndirilməsi, siyasi və iqtisadi suverenliyimiz üçün böyük əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Rusiyanın Şərq sərhədlərinə kommunikasiya yollarının yaradılması ideyaları XIX-XX əsrlərin əvvəllərində görkəmli siyasətçilər və ictimai xadimlər tərəfindən irəli sürülüb.

Belə ki, 1908-ci ildə Pyotr Stolıpin o dövrdə həqiqətən parlamentin yuxarı palatası rolunu oynayan Dövlət Şurasının iclasında Amur dəmir yolunun tikintisi layihəsini müdafiə etdi, bunun sayəsində Trans-Sibir dəmir yolu tamamilə ölkəmizin ərazisindən keçdi.

Mən tam əminəm ki, Şərq poliqonunun inkişafı üçün yeni böyük vəzifələrə əsl döyüşçülər, məsələn, BAM komandası nail ola bilər. Bu, məqsədlərinə necə çatmağı bilən güclü xarakterə malik insanların xüsusi birliyidir.

BAM icmasının yaranmasına ürəkdən şadam. O, necə deyərlər, BAM-da iştirak edən hər kəsi - veteranları, Rusiyadan, keçmiş sovet respublikalarından və digər dövlətlərdən olan mütəxəssisləri birləşdirir. BAM inşaatçılarının dostluğunu canlandırmağınız və möhkəmləndirməyiniz, gənclərə insanların taleyindən, bu nəhəng layihənin şərəfli tarixindən danışmağınız və təbii ki, veteranlara yardım göstərməyiniz vacibdir.

BAM inşaatçılarını dəstəkləmək üçün təkcə ictimai səylər deyil, təbii ki, dövlətin konkret addımları da lazımdır. BAM inşaatçıları çox vaxt ağır şəraitdə - müvəqqəti daxmalarda və kazarmalarda yaşayırdılar. İndi, hazırkı mərhələdə bu, şübhəsiz ki, belə olmamalıdır.

Bununla əlaqədar qeyd etmək istərdim ki, Rusiya Federasiyası Hökuməti artıq Baykal-Amur Magistralının Tında, Severobaykalsk, Neryunqri, Komsomolsk-na-Amur kimi əsas şəhərlərinin hərtərəfli sosial-iqtisadi inkişafı planlarını təsdiq edib.

Söhbət onların nəqliyyat infrastrukturunun, mənzil-kommunal təsərrüfatının genişmiqyaslı yenidən qurulmasından və inkişafından, məktəblərin, xəstəxanaların, uşaq bağçalarının, idman obyektlərinin əsaslı təmirindən və tikintisindən gedir. Təbii ki, biz mütləq müasir evlər, yeni yaşayış binaları tikəcək, ümumilikdə bu gün BAM-da yaşayan və işləyənlər üçün layiqli şərait yaradacağıq.

Diqqətinizə görə çox sağ olun.

Sözü məmnuniyyətlə qonağımıza və dostumuza vermək istəyirəm. Buyurun, Azərbaycan Prezidenti İlham Əliyev, söz Sizindir.

***

Prezident **İlham Əliyev** çıxış edərək dedi:

– Möhtərəm Vladimir Vladimiroviç!

Əziz dostlar!

İlk növbədə, Vladimir Vladimiroviç, bugünkü tədbirdə iştirak üçün dəvətinizə görə Sizə təşəkkürümü bildirmək istərdim. Bu gün BAM-ı inşa edənlərin, həyatlarını, gəncliklərini Ümumittifaq tikintisinə həsr edənlərin əhatəsində olmaq mənim üçün böyük şərəfdir.

Habelə Baykal-Amur Magistralının inşasına başlanmasının 50 illiyi münasibətilə bütün inşaatçıları, mütəxəssisləri, bütün BAM-çıları təbrik etmək istərdim.

Vladimir Vladimiroviç qeyd etdi ki, bu tikinti Sovet İttifaqının bütün respublikalarını birləşdirib, bu, həqiqətən də belədir, onun Ümumittifaq tikintisi adlandırılması təsadüfi deyil. Biz, əlbəttə, fəxr edirik ki, Azərbaycan inşaatçıları və mütəxəssisləri də bu tikintidə fəal iştirak ediblər, Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, iki dəmir yolu stansiyasını inşa ediblər.

Əlbəttə, Heydər Əlirza oğlu Əliyevin xatirəsinə dərin ehtirama görə Vladimir Vladimiroviçə xüsusi təşəkkürümü bildirmək istərdim. Biz yaxşı bilirik ki, 2000-ci illərin əvvəllərində ölkələrimiz arasındakı dostluq və mehriban qonşuluq münasibətlərinin əsasını məhz Vladimir Vladimiroviç Putin və Heydər Əlirza oğlu Əliyev qoyublar. Vladimir Vladimiroviç 2001-ci ildə Azərbaycana səfər edib və bu, bizim bu gün birlikdə keçdiyimiz böyük yolun başlanğıcı olub.

Bu gün biz iki ildən artıqdır ki, müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində həyata keçirilən əməkdaşlığımızın bir çox planlarının icra edilməsi məsələlərini müzakirə etdik. Əlbəttə, Heydər Əliyev amili dövlətlərarası münasibətlərimizdə həmişə mühüm rol oynayıb və oynayacaqdır. Çünki o, Moskvada bu binada, Kremldə işlədiyi illərdə sovet dövlətinin və ona tapşırılan sahənin inkişafına rəvac vermək üçün böyük səylər göstərib. Onlardan biri də nəqliyyat sahəsi idi.

Biz, həmçinin BAM-çılara və inşaatçılara, Rusiyanın bütün nəqliyyatçılarına Heydər Əlirza oğlunun xatirəsini əbədiləşdirdiklərinə görə minnətdarıq - Anqoya qəsəbəsindəki vağzal onun adını daşıyır. BAM-çıların da yaxşı bildiyi kimi, o, Bratskdan Vladivostoka və Naxodkaya qədər çətin şəraitdə, demək olar ki, piyada, qatarla, vertolyotla uzun bir yol qət edərək, on gün ərzində BAM-çılarla sevincini və kədərini bölüşüb.

Onu da xatırlayıram ki, o, qayıdanda yalnız sovet dövlətinin həyata keçirə biləcəyi tikintinin miqyasından deyil, ilk növbədə, ən çətin şəraitdə, bəzən daim donuşluq içində olan keçilməz meşələrdə, yolsuzluq şəraitində həyatlarını riskə atan BAM-çıların fədakarlığından təsirlənmişdi. Çünki bu insanlar demək olar ki, hər gün şücaət göstərərək, möcüzələr yaradaraq, sovet dövlətinin və bu gün isə həm Rusiyanın, həm də qonşu ölkələrin gələcək inkişafının müqəddəratını əvvəlcədən təyin edərək, uzun illər – 50 il və ya daha çox müddət ərzində həm regional, həm də beynəlxalq əməkdaşlığın inkişafı işinə xidmət edəcək unikal infrastruktur nümunəsi yaratmağa müvəffəq olublar.

Heydər Əlirza oğlunun anadan olmasının 100 illiyinin qeyd edilməsinə görə Vladimir Vladimiroviçə və rusiyalı dostlarımıza minnətdarlığımı bildirmək istərdim. Ötən il Azərbaycanda və Rusiyada onun yubileyi xüsusi ehtiramla qeyd edildi. Bu, bizim ümumi tariximizdir, biz bunu çox yüksək qiymətləndiririk.

Bu gün sevindirici haldır ki, müasir Rusiya-Azərbaycan münasibətləri dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və məqsədyönlülük kimi möhkəm təmələ əsaslanır. Bu gün biz, Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, təkcə böyük nəqliyyat layihələri həyata keçirmirik, həm də "Şimal–Cənub" beynəlxalq nəqliyyat dəhlizinin yaradılmasında fəal iştirak edirik, həm iqtisadi, həm siyasi, enerji, humanitar və bir çox digər sahələrdə fəal əməkdaşlıq aparırıq.

"Şimal–Cənub" nəqliyyat dəhlizinə gəldikdə, bu gün Vladimir Vladimiroviçlə bu məsələni bir daha ətraflı müzakirə etdik. Hökumət üzvlərinə müvafiq təlimatlar verilib. Əminəm ki, yaxın vaxtlarda bütün məsələlər razılaşdırılacaq və biz daha bir möhtəşəm layihənin icrasına başlayacağıq.

Bildirməliyəm ki, Azərbaycan ərazisində Azərbaycan–Rusiya sərhədini Azərbaycan–İran sərhədi ilə birləşdirən dəmir yolu mövcuddur. Lakin yükgöndərənlərin tələbatları bizə bu yolun yeni hissələrinin inşa edilməsinin zəruriliyini diktə edir ki, biz bu yolda yük daşımalarını artıra bilək və bununla Şimaldan Hind okeanına unikal nəqliyyat yolunu təmin edək.

Bu tədbirdə iştirak etdiyim üçün bir daha minnətdarlığımı bildirmək, bütün BAM-çıları yubiley münasibətilə təbrik etmək, Azərbaycan, Rusiya və bütün MDB ölkələrinin inşaatçılarına yeni uğurlar və nailiyyətlər arzulamaq istəyirəm.

Təşəkkür edirəm.

***

**Prezident Vladimir Putin**: Yefim Vladimiroviç Basin SSRİ nəqliyyat tikintisi nazirinin müavini işləyib, o, Heydər Əlirza oğlu ilə də ünsiyyətdə olub, onunla görüşüb, faktiki olaraq birgə işləyiblər. Hazırda o, "BAM birliyi" ictimai təşkilatının prezidentidir.

**Yefim Basin** dedi:

– Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç! Hörmətli İlham Heydər oğlu!

Əvvəlcə "BAM birliyi" adından Prezidentimizə BAM-ın bərpasına görə minnətdarlığımı bildirmək istəyirəm. Bu tikinti həyatımızın ən vacib işidir. Siz təxminən belə də dediniz. BAM-dan həqiqətən də iki milyona yaxın insan keçib. Əsasən onlar bu böyük işdə iştirak etməyə cəhd göstərən gənclərdir. İnanılmaz səylərə və çətinliklərə, ekstremal şəraitə baxmayaraq yol tikildi. 1990-cı illərdə BAM-a "heç yerə getməyən yol" damğası vurulanda, biz bunu dəhşətli ədalətsizlik kimi qəbul etdik. Bu, olub. Buna görə də insanları dəstəkləmək üçün 25 il bundan əvvəl biz "BAM birliyi" ictimai təşkilatını yaratdıq, hansı ki, indi ölkənin 54 regionundan 50 mindən çox veteranı birləşdirir. BAM-ın inşasına başlanmasının 50 illiyinin qeyd olunması haqqında fərmanınız isə insanlarda əvvəlki həvəsi oyatdı, yeri gəlmişkən, Siz də onun haqqında danışmısınız. Bu günlərdə hər yerdə veteranların gənclərlə, məktəblilərlə, tələbələrlə görüşləri keçirilir. Veteranlar BAM-ı necə tikdikləri və çətinliklərə necə sinə gərdikləri barədə danışırlar.

"Bamstroyput", "Bamtransvzrıvprom", "Bamstroymexanizasiya", körpü dəstələri, mexanikləşdirilmiş kalonlar kimi məşhur trestlərimiz fəal işləyir, bu gün qonşum Ruslan Baysarovun rəhbərliyi ilə "Bamtonnelstroy-Most" artıq praktik olaraq Severomuysk tunelində, onun ikinci xəttində işlərə başlayır. Bu, çox vacibdir. İnsanlar inşaatçıların əmək şücaətinin unudulmadığına sevinirlər. BAM bizi nəhəng tikintilərin genişləndirilməsi təcrübəsi ilə zənginləşdirib. Biz körpülərin yüksək sürətlə tikintisi, daimi donuşluq şəraitində alt qatların doldurulması, - hətta o vaxtlar öyrənmək üçün bizə çinlilər gəlirdilər, - tektonik qırılmalar və güclü su axınları şəraitində tunellərin keçməsi təcrübəsini inkişaf etdirmişik. BAM-ın inkişafı üçün genişmiqyaslı layihə ilə bağlı qərarınızı hamımız böyük həvəslə qəbul etdik.

Bu gün magistral yolda iş aşıb-daşır. Magistral ikiyollu olacaq. Alternativ tunellər tikiləcək. Təəssüf ki, çox vaxt itirildi. Ancaq ümid edirəm ki, Şərq poliqonunun inkişafı məsələsi yalnız yollar şəbəkəsi ilə bitməyəcək. Axı, BAM zonasının inkişafı üçün çox böyük iş görməliyik, bu isə Rusiyanın təbii ehtiyatlarının üçdəbiridir, tam Mendeleyev cədvəlidir. Eyni zamanda, şübhəsiz, Şimal ekstremal şəraitindəki tikinti təcrübəmizə də tələbat olacaq. BAM-ın ümumxalq tikintisi adlandırılması təsadüfi deyil. Onun tikintisində həqiqətən də bütün ölkə iştirak edib. BAM-da tikilmiş 60 stansiyaətrafı qəsəbənin yarısından çoxu Rusiyanın və Azərbaycan da daxil olmaqla, demək olar ki, bütün sovet respublikalarının müxtəlif böyük şəhərlərinin nümayəndələri tərəfindən inşa olunub.

Hökumət tərəfindən, artıq dediyiniz kimi, tikintiyə Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əlirza oğlu Əliyev nəzarət edirdi. O, möhkəm iradəli, böyük erudisiyaya malik və səriştəli bir insan idi. O, mənim taleyimdə də əhəmiyyətli rol oynayıb. Mənim taleyimdə o, BAM-ın tikinti rəisi – SSRİ nəqliyyat tikintisi nazirinin müavini vəzifəsinə təyin edilməyimdə də mühüm rol oynayıb. Heydər Əliyevin BAM-a gəlişini dəqiq xatırlayıram. 1984-cü ilin iyun ayı idi. Bu, bütün BAM boyu "qızıl birləşmənin" ərəfəsi ili idi. Gərginlik pik nöqtəsinə çatmışdı. İvan Varşavski və Aleksandr Bondarın rəhbərlik etdikləri bütün briqadalar bir-biri ilə qarşılaşmağa tələsirdilər. Lakin onların yolunda, xüsusən, böyük körpülər və tunellər kimi bir çox maneələr var idi. Məhz bu problemlərin həlli üçün Heydər Əlirza oğlu Əliyev BAM-a gəldi. Təxminən on gün bizimlə bir yerdə qaldı. Bu səfər zamanı o, məni tikintisi o vaxt cədvəldən geri qalan Kodar tunelinin vəziyyətini öyrənmək üçün iki baş idarənin rəisi ilə birlikdə vertolyotla həmin əraziyə göndərdi. Obyektin işə salınmasına cəmi altı ay qalmışdı. Biz tunelin sonuna çatmağa müvəffəq olduq, geri qayıdanda isə onun tavanı çökdü. Məsələ orasındadır ki, tunel daimi donuşluq şəraitində inşa edilmişdi. Təəssüf ki, tuneli inşa edənlər qazma işlərində irəliləsələr də, tunelin çuqun tubinqlər qoyulması işində yubanmışdılar.

Təbii ki, biz vəziyyət barədə Heydər Əlirza oğluna məlumat verməli olduq. Gözləntilərimizin əksinə olaraq, o, yaranmış vəziyyəti sakit şəkildə qəbul etdi. Təkcə bunu dedi: "Yaxşı, burada Kodar tunelinə gedən kəsə yol inşa etmək lazımdır". Yadımdadır, Heydər Əlirza oğlu 15 kilometrlik tunelin girişinin necə çəkildiyini qiymətləndirmək üçün Severomuysk tunelinə enmişdi. Bundan sonra, o, mürəkkəbliyinə görə unikal olan bu obyektin inşası ilə bağlı ən aktual məsələlərin həll olunduğu böyük bir iclas keçirmişdi. Aydın idi ki, 1989-cu ilədək, yəni, Baykal-Amur Magistralının istismara verildiyi ilə qədər tuneli tikmək mümkün olmayacaq. Buna görə 18 minlik yamacı olan ikinci kəsə tunelin inşa edilməsinə qərar verildi. Mən bu keçidi kiçik BAM adlandırıram. Çünki dağ şəraitində təkcə 64 kilometrlik yol çəkmək yox, həm də yeni iki tunel və 12 körpü, o cümlədən sonradan sürücülərin "Şeytan körpüsü" adlandırdıqları 30 metr hündürlüyündə körpü inşa etmək lazım idi. Lakin bu qərar bizə 1989-cu ilin oktyabrına qədər bütün BAM-ı vaxtında daimi istismara verməyə imkan yaratdı. Daha doğrusu, bu, dahiyanə qərar idi.

Azərbaycanlı mütəxəssislər, İlham Heydər oğlunun dediyi kimi, BAM üzərində iki gözəl qəsəbə tikdilər. Amma əsas odur ki, onların memarlığı Azərbaycan milli üslubunda hazırlanıb. Bu qəsəbələr Ulkan və Anqoyadır. 2008-ci ildə Anqoya stansiyasındakı vağzala Heydər Əlirza oğlu Əliyevin adı verilib. Bu gün də həmin lövhə stansiyanı bəzəyir.

Bu heyrətamiz insanın portretinə daha bir cizgi əlavə etmək istəyirəm. Azərbaycan BAM-dakı mütəxəssislərinə verdiyi vədi yerinə yetirən yeganə respublikadır - tikinti başa çatdıqdan sonra ölkə onları mənzillə təmin edib. Bu, bizim üçün çox vacibdir. Bu gün Prezidentin özünün də dediyi kimi, veteran BAM-çıların yaşayış şəraitinin yaxşılaşdırılması üçün dövlət tərəfindən bundan sonra da tədbirlərin görülməsi xəbəri, həqiqətən də insanlarımız tərəfindən daha böyük coşqu ilə qarşılanacaq.

Heydər Əliyev bunu da, bu insanları da unutmurdu. Onun adı xalqlarımızın dostluğunun rəmzinə çevrilib. Bu gün də BAM-ın bütün inşaatçıları adından mən onun oğlu, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlunu və əlbəttə ki, Vladimir Vladimiroviç, Sizi iyulun 8-də BAM-ın paytaxtı Tındada onun 50 illik yubileyinin qeyd olunması mərasimində iştirak etməyə dəvət etmək istərdim. Düşünürəm ki, həmin vaxta qədər Siz Severomuysk tunelinin tikintisi işlərinə başlaya bilərsiniz. Bu, möhtəşəm hadisə olacaq. Orada - Tındada, BAM inşaatçılarına gözəl, müsabiqədə birinci yerə layiq görülmüş çox yaxşı bir abidə qoyulacaq. Yeri gəlmişkən, Moskvada merin qərarı ilə üç vağzalın ərazisindəki meydan BAM inşaatçıları meydanı adlandırılıb. Çünki ilk komsomolçular birbaşa komsomolun 17-ci qurultayından sonra bu meydandan, bu vağzallardan BAM-a yola düşürdülər. Onların bir çoxu burada, bu masanın ətrafında əyləşiblər.

Çox sağ olun.

***

**Prezident Vladimir Putin:** Təşəkkür edirəm, Yefim Vladimiroviç.

İki dəfə Rusiya Federasiyasının nəqliyyat yolları naziri olmuş Gennadi Matveyeviç Fadeyev də BAM ilə birbaşa əlaqəsi olan şəxsdir. Buyurun, Gennadi Matveyeviç.

**Gennadi Fadeyev** dedi:

– Yubilyara - Baykal-Amur Magistralına həsr olunmuş belə qeyri-adi görüşdə iştirak etmək imkanı yaradıldığına görə Sizə təşəkkür edirəm. Əvvəlcə nə demək istərdim? İnsanlar mənə "BAM nədir" sualını verəndə, mən belə cavab verirəm: "BAM insanlar deməkdir. BAM tikinti sərəncamlarını imzalayan insanlardır. Onlar böyük insanlardır. BAM, tikinti üçün birbaşa şərait yaradan insanlardır. BAM, təbii ki, tikinti işlərini görən insanlar deməkdir. Yəni, BAM, ilk növbədə, məhz bu deməkdir". Onu vurğulamaq istəyirəm ki, biz Heydər Əlirza oğlu haqqında danışanda insanlarda belə bir təəssüratın yarandığını görürük: o, insanları çox sevən insan idi.

**(ardı 3-cü səhifədə)**

# Baykal–Amur Magistralının 50 illik yubileyi münasibətilə görüş



(əvvəli 2-ci səhifədə)

O, kilometrlərlə deyil, tonlarla deyil, talelərlə, BAM-çıların bu və ya digər müddət ərzində işlədiyi şəraitlə maraqlanırdı. O, heyrətamiz rəhbər idi. Yalnız hansısa yekun məqamda o, təkrarən zəruri mövzuya yenidən qayıdar, işin daha səmərəli olması üçün sabah nə ediləcəyini və digər məsələləri düşünərdi.

dəmir yolu körpüsünün eynisidir. Məktubdan bir gün sonra Oleq Valentinoviç Belozerov məni telefonla baş podratçı ilə işə başlamaq barədə müqavilə imzalamağa dəvət edəndə inanmadım. Bu təcrübəmlə, yaşımla belə bir təəssürat yaşadım ki, mən xoşbəxt insanam, bunu da görmək mənə nəsib oldu. Müqaviləni imzalamaq üçün gələndə və Ruslan Baysarovla yaxından tanış olanda ona dedim: sinəmdə

sına - Baykal-Amur dəmir yolu magistralının Şərq hissəsinin tikintisinə ilk başlayanlardan oldular. Şəxsi heyətin gündəlik əməyi cəsarət, əzmkarlıq və qəhrəmanlıq nümunəsi idi. Vəzifələrini şərəflə yerinə yetirdikləri sərt iqlim, yolsuzluq, çətin şərait onları ciddi imtahana çəkdi, peşəkar bacarıqlarının və ən yaxşı insani keyfiyyətlərinin ciddi sınağı oldu. Bütün çətinliklərə baxmayaraq, briqada BAM stansiyasından Tında stansiyasına qədər Baykal-Amur dəmir yolu magistralı sahəsinin inşası, Şimanov zavoduna giriş yollarının tikintisi və Uzaq Şərqin dəmir yolu kommunikasiyalarının inkişafı ilə bağlı üzərinə düşən vəzifələri şərəflə yerinə yetirdi. 1984-cü ildə Heydər Əlirza oğlu Əliyev dəmir yolu hərbçilərinə tapşırılmış Şərq hissəsindən keçərək inşaat işlərinin təhvil alınmasında iştirak edib. Sərt iqlim şəraitində tikintinin təşkilində qazanılmış təcrübədən bu günlərdə də Baykal-Amur dəmir yolu magistralının Ulak-Fevralsk sahəsində yenidənqurma işləri zamanı briqadanın şəxsi heyəti tərəfindən geniş istifadə edilir. Bu, bizim üçün böyük şərəf və ciddi məsuliyyətdir. Biz öz əməyimizlə yaşlı nəsillərin işini davam etdiririk. İcazə verin, Sizi əmin edək



Onunla şəxsən tanış olmaq şərəfinə nail olmuşam. Məsələ Nəqliyyat Yolları Nazirliyindəki kadrlarla bağlı idi. O, nəqliyyat sahəsinə də rəhbərlik etdiyi üçün məni onun yanına göndərdilər. Biz burada, Kremldə əyləşmişdik. İnsana dövlət məmuru kimi yox, məhz əsl insan kimi yanaşırdı, nə üçün gəldiyini, narahatlığının nədən ibarət olduğunu soruşurdu, insanla həqiqətən maraqlanırdı. O, vəziyyəti xəbər almağa başladı, - mən o vaxt nazir müavini vəzifəsində idim, - şəbəkədə vəziyyət necədir? Sonra isə dedi: “Partiyanın Mərkəzi Komitəsi Nəqliyyat Yolları Nazirliyi rəhbərliyinin gücləndirilməsi barədə qərar qəbul edib və sizə nəqliyyat yolları nazirinin birinci müavini vəzifəsi təklif olunur”. Təbii ki, mən ona təşəkkür etdim. O, sözünə davam edərək dedi: “Siz yarım ildir ki, nazir müavini işləyirsiniz, bu məsələləri həll edə bilmisiniz və ümid edirik ki, siz bundan əlavə, daha çox iş görəcəksiniz”. Ona söz verdim ki, çalışacağam. Həmin il şəbəkəyə 4 milyard 100 milyon ton yük daxil oldu. Belə bir hal heç vaxt olmamışdı. İndi Sovet İttifaqı yoxdur, amma necə işləmək lazım olduğuna dair təlimatlar artıq o dövrdə müəyyən edilmişdi.

Baykal-Amur Magistralının tikintisinə kimin daha çox töhfə verdiyi barədə danışanda, əlbəttə ki, orada bir çox mütəxəssisin, alimin və digərlərinin çalışdığından bəhs edirik. Ancaq təcrübəm, həyat yolum onu deməyə imkan verir ki, Heydər Əlirza oğlu BAM-a nəzarət edən rəhbərlərin ən yaxşısı idi. O, mahiyyət etibarilə, BAM-ın həyata keçirilməsinə nail oldu. O illərin necə çətin olduğunu xatırlayarsınız, həmin çətin illərdə belə bir tikinti sahəsinə rəhbərlik etmək böyük hünər idi. Onu da vurğulamaq istəyirəm ki, inşaatçılar özləri də başa düşürdülər, maaş almadıqlarına görə işdən çıxsalar, Severomuysk tunelində qarşısıalınmaz proseslər baş verə bilər. O vaxt ən çətin dövr idi. Yekdil olmaq, bir-birini anlamaq lazım idi. Tikintidə iş davam edirdi. Demək istəyirəm ki, ölkəmizin Prezidenti Vladimir Vladimiroviç Federal Məclisə göndərdiyi məktubda Baykal-Amur Magistralının üçüncü mərhələsinin obyektlərini bir-bir sadalayıb. Bu, bir möcüzədir, mahiyyət etibarilə, Severomuysk, Kuznetsk, Kodar tunellərinin, Komsomolsk yaxınlığında Amur üzərindəki ikinci

“Fəxri dəmiryolçu” nişanı gəzdirirəm, işin qrafikə uyğun təhvil verilməsi üçün zaman məhdudiyyətinə, keyfiyyətə və digər amillərə görə böyük məsuliyyət daşıyacağını bildiyin halda bu obyektlərə getməklə bağlı cəsarətli qərar verdiyin üçün indi onu sənə verəcəyəm.

Zənnimcə, bu, çox böyük hadisədir. Severomuysk tuneli 26 ilə inşa edildiyi halda, o, bu işi 6-10 il ərzində görməyə hazır olduğunu deyirsə, onun və inşaatçıların qarşısında baş əymək lazımdır. Mən başa düşürəm ki, Prezidentimiz bütün iştirakçıların işin icrasına nə qədər hazır olduqlarını və bunun üçün onlara nə lazım olduğunu yoxlamaq üçün xüsusilə belə edib. Zənnimcə, Prezidentimizin həmkarının - Prezident Əliyevin iştirakı ilə keçirilən bu görüş çox gözəldir, məsuliyyətlidir, burada məhz işinin ustası olan məharətli insanlar toplaşıblar.

İki ölkənin prezidentləri ilə görüş gününün əlamətdar olduğunu vurğulayan Gennadi Fadeyev dost Azərbaycan Respublikasının Baykal-Amur Magistralının yaradılmasına və inkişafına böyük töhfə verdiyini vurğulayaraq dedi: Azərbaycan da, insanları da gözəldir. Hamı oraya artıq böyük maraqla getməyə başlayıb. Bu, əladır. “Şimal-Cənub” layihəsinə gəldikdə isə mən əminəm ki, iki ölkə prezidentlərinin böyük səyləri və imkanların birləşdirilməsi sayəsində bu layihə icra olunacaq.

Mən ayrıca olaraq, Sizə müraciət etmək istərdim, İlham Heydər oğlu, Vətənə qayıdanda atanızın ruhu qarşısında baş əyin və ona çatdırın ki, biz onu sevirik, onu hörmətlə yad edirik. Bugünkü görüş və gələcək işlər üçün Sizin qarşınızda ehtiramla baş əyirəm.

***

**Prezident Vladimir Putin**: Mən giriş nitqimdə hərbi inşaatçılar haqqında da bəhs etdim. Sergey Aleksandroviç, Şərq hərbi dairəsinin 50-ci ayrıca dəmir yolu briqadasının komandiri.

**Sergey Vasilyanov** dedi:

– Yoldaş Rusiya Federasiyası Silahlı Qüvvələrinin Ali Baş Komandanı.

Hörmətli İlham Heydər oğlu.

Uzaq 1984-cü ildə briqadamızın hərbi dəmiryolçuları Vətənin fəxri tapşırığının icra-

ki, bundan sonra da mənə tapşırılmış birlik qarşıya qoyulmuş vəzifələri şərəflə yerinə yetirəcək və gərgin əməyi ilə nəhəng Rusiyanın qüdrətinə töhfəsini verəcək.

***

Prezident **Vladimir Putin**: BAM gənclərin çalışdığı yer idi. Ancaq əslində, indi də bu miqyasda olan layihələr mahiyyətcə eynidir. Gənclər əsasən işləyirlər və belə böyük perspektivlər, platformalar və layihələr yaradırlar. Uşakova Viktoriya Aleksandrovna, İrkutsk Dövlət Nəqliyyat Yolları Universitetinin tələbəsi, buyurun.

**Viktoriya Uşakova** dedi:

– Hörmətli Vladimir Vladimiroviç, İlham Heydər oğlu, Siz dediyiniz kimi, mən İrkutsk Dövlət Nəqliyyat Yolları Universitetinin tələbəsiyəm və bu gün mən təkcə Rusiya tələbələrini deyil, həm də Rusiyanın tələbə dəstələrini təmsil edirəm. Əvvəlcə, Sibir, İrkutsk bölgəsi və Rusiya tələbələri adından inkişaf etmək və hər zaman daha çox səy göstərmək imkanlarının yaradılmasına görə təşəkkür edirəm. Etimadınıza görə Rusiya tələbə dəstələri adından minnətdarlığımızı bildirirəm. Çünki ölkəmizin ən vacib strateji obyektini gənclərə həvalə etmək asan iş deyil. Artıq üçüncü ildir ki, “BAM 2.0” Ümumrusiya Tələbə Əmək Layihəsi çərçivəsində Baykal-Amur Magistralının tikinti obyektlərində işgüzar bacarıqlarımızı sübuta yetiririk. Axı, biz iş adamlarıyıq. Biz gəncik və gələcək bizimlədir. Vladimir Vladimiroviç, icazə verin, bütün tələbələri, o cümlədən tələbə dəstələrinin cəsur üzvlərini maraqlandıran bir sual verim. Bilirəm ki, siz də vaxtilə tələbəlik illərində “Femida” tələbə dəstəsinin üzvü olmusunuz. Mənim üçün çox maraqlıdır, indi tələbə olsaydınız, bizimlə BAM-a gedərdinizmi?

**Vladimir Putin**: Tələbə olmağı çox istərdim. Əgər tələbə ola bilsəydim, BAM haqqında eşitdiklərimdən sonra böyük məmnuniyyətlə oraya gedərdim.

**Viktoriya Uşakova**: Sağ olun.

***

Sonda xatirə şəkilləri çəkdirildi.

# Liderlərin təkbətək görüşü



(əvvəli 1-ci səhifədə)

Biz təkcə bu barədə bilməklə kifayətlənmirik, həm də bunu xatırlayırıq və ona çox minnətdarıq, onun xatirəsini yad edirik.

Bu gün bizim həm də BAM-ın veteranları ilə görüşümüz olacaq, danışılacaq bir çox mövzu var. İndi biz, yəqin ki, Siz bu barədə bilirsiniz, Şərq poliqonu adlı marşrutu inkişaf etdiririk, həm BAM, həm də Transsib onunla bağlıdır. Beləliklə, bütün bunlar bu gün də bizim üçün əhəmiyyətlidir, həm də çox böyük əhəmiyyətə malikdir.

Düşünürəm, hətta əminəm ki, atanızın bu nəhəng layihənin həyata keçirilməsinə sərf etdiyi bütün səylər, zəhmət çəkdiyi illər bu gün də təkcə Rusiya üçün deyil, həm də bütün Müstəqil Dövlətlər Birliyi üçün mühüm rola malikdir. Onu nəzərdə tuturam ki, bir çox tərəfdaşlarımız bu və ya digər dərəcədə bu nəqliyyat arteriyasından istifadə edirlər.

Əlbəttə, bizim yüksək səviyyədə olan və inkişaf edən ikitərəfli münasibətlərimizdən danışmaq imkanımız olacaq. Əmtəə dövriyyəmiz artır: o, artıq 4 milyard dollardan da çoxdur. Dollar ekvivalentində desək, Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya investisiyası 6 milyarddır. Hökumətlərarası komissiya fəal işləyir. İqtisadiyyatın real sektorunda, kooperasiyada, infrastrukturda əməkdaşlığın bir çox maraqlı istiqamətləri var, zənnimcə, onların bir neçəsi ölkələrimizin ictimaiyyətinə məlumdur.

Sözsüz ki, regionda təhlükəsizliyin təmin edilməsi ilə bağlı vəziyyətdən də danışacağıq. Bir çox məsələlər var ki, onlar olduqca həssasdır. Biz Sizinlə onların hər birini müzakirə edəcəyik.

Sizi görməyimizə çox şadıq. Xoş gəlmisiniz.

***

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

– Hörmətli Vladimir Vladimiroviç.

Dəvətə görə sağ olun. Yenidən görüşməyimizə şadam.

BAM-ın tikintisinin başlanmasının 50 illiyinə həsr olunmuş bugünkü tədbirdə iştirakla bağlı dəvətinizə görə ayrıca təşəkkürümü bildirirəm. Rusiya rəhbərliyinin, həmçinin ictimaiyyətinin Heydər Əliyevin xatirəsinə göstərdikləri ehtiramı Azərbaycanda yüksək qiymətləndiririk. Qeyd etdiyiniz kimi Heydər Əlirza oğlu Əliyev vaxtilə Ümumittifaq tikintisi adlandırılan bu nəhəng layihənin həyata keçirilməsində fəal iştirak edib və onun reallaşdırılmasına öz töhfəsini verib. Ona görə bizim üçün əlbəttə ki, bu tədbirdə iştirak etmək çox xoşdur və böyük şərəfdir. Bu gün bu qlobal layihənin həyata keçirilməsinə öz töhfəsini verən insanlarla da görüşəcəyik.

Tarixin yaddaqalan bu məqamları ölkələrimizi, xalqlarımızı daha da yaxınlaşdırır, münasibətlərimizin gələcəkdə də ardıcıl inkişafına töhfə verir. Biz əlaqələrimizin inkişafından çox razıyıq. Artıq iki ildən çoxdur ki, 2022-ci ilin fevralında burada, Kremldə imzaladığımız və əsas siyasi sənəd olan, gələcəkdə münasibətlərimizin ardıcıl inkişafını müəyyən edən müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə çərçivəsində işləyirik.

Sizin də qeyd etdiyiniz kimi gündəlik kifayət qədər genişdir. Orada nəqliyyat komponenti də var, bu gün onu da müzakirə edəcəyik. Ölkələrimizi və tərəfdaşlarımızı birləşdirən “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi yük daşımalarının təhlükəsizliyi baxımından və bir çox ölkələr arasında ticari münasibətləri stimullaşdırmaq üçün qlobal əhəmiyyətə malikdir.

Regional təhlükəsizlik məsələləri həmişə bizim görüşümüzün gündəliyindədir. Biz, həmçinin şadıq ki, onlar öz həllini tapır. Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir. Ölkələrimiz arasında əməkdaşlıqdan, qarşılıqlı fəaliyyətdən çox şey asılıdır. Biz qarşılıqlı fəaliyyət və qarşılıqlı maraqlar ruhunda etimad tədbirlərinin, əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə və bütün məsələlərin nizamlanmasına çalışırıq.

Bugünkü görüşə görə bir daha minnətdarlığımı bildirirəm və əminəm ki, bu, münasibətlərimizin inkişafına yeni təkan verəcək.

Sağ olun.

Prezident **Vladimir Putin:** Sağ olun.

# Azərbaycan və Rusiya prezidentləri birgə nahar ediblər

**Aprelin 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin birgə nahar ediblər.**

# Səfər başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri aprelin 22-də başa çatıb.**

**AZƏRTAC**

# Prezident İlham Əliyevin Moskva səfəri Rusiya mediasında

**Rusiya mediası Prezident İlham Əliyevin bu ölkəyə işgüzar səfərinə və Rusiya Prezidenti Vladimir Putin ilə görüşünə geniş diqqət ayırıb. Xəbərlərdə ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından bu görüşün mühüm əhəmiyyət daşıdığı vurğulanıb.**




**TASS Agentliyində** yer alan xəbərdə Azərbaycan Prezidenti İlham Əliyevin Kremldə rusiyalı həmkarı Vladimir Putinlə görüşünün iki dövlət arasında münasibətlərin inkişafına yeni təkan verəcəyinə əminlik ifadə olunur.

**“RİA Novosti”**, “Moskovski Komsomolets” nəşrləri Vladimir Putinin İlham Əliyev ilə görüşdə ümummilli lider Heydər Əliyevin Baykal-Amur Magistralının tikintisinə mühüm töhfə verməsi barədə fikirlərini diqqətə çatdırıb.

**“İnterfaks”** nəşrinin xəbərində Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdə təhlükəsizlik məsələləri, ikitərəfli münasibətlər və bir sıra digər mövzularda müzakirələr aparılacağını bildirdiyi qeyd olunub.

**“News.ru”** hər iki ölkə prezidentinin bu il yenidən ali dövləti vəzifəyə seçildikdən sonra ilk dəfə görüşdüklərini xüsusi vurğulayıb. “Onların daha əvvəl başladıqları işləri davam etdirəcəkləri gözlənilir. Politoloqlar hesab edirlər ki, Ermənistan–Azərbaycan sərhədinin delimitasiyası məsələsində ümidverici irəliləyişdən sonra Moskva və Bakı Cənubi Qafqazda yeni geosiyasi reallıqda münasibətlərin inkişaf perspektivlərini müzakirə etmək niyyətindədirlər”, - nəşrdə yayımlanan xəbərdə qeyd olunub.

**“Arqumentı i faktı”** nəşri yazır ki, Rusiya Prezidenti Vladimir Putin ümummilli Lider Heydər Əliyevin Baykal-Amur Magistralının tikintisinə verdiyi töhfəni xatırladıb. Nəşr qeyd edib ki, Vladimir Putin Heydər Əliyevin SSRİ dövründə BAM-ın tikintisi ilə bağlı məsələlərə birbaşa nəzarət etdiyini və Rusiyanın buna görə ona minnətdar olduğunu vurğulayıb.

**“Qazeta.ru”** portalı Azərbaycan Prezidentinin “Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir” fikrini xüsusi vurğulayıb. “Bu gün iki dövlət başçısı Rusiya və Azərbaycanı birləşdirəcək Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsini müzakirə etməyi planlaşdırır.

**“Ren.tv”**də yer alan xəbərdə Prezident Vladimir Putinin Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsinin artmasını xüsusi vurğuladığına diqqət çəkilib. “Onun sözlərinə görə, bu rəqəm 4 milyard dollardan çoxdur. Bundan başqa, Rusiyanın yatırdığı 6 milyard dollarlıq sərmayə Azərbaycan iqtisadiyyatının bir hissəsini təşkil edir”, – deyə telekanalın xəbərində qeyd edilib.

# Gürcüstanlı deputatlar Milli Məclisdə

**Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstan Parlamentinin Sahə iqtisadiyyatı və iqtisadi siyasət komitəsinin sədri Davit Sonqulaşvili ilə görüşüb.**



Spiker ortaq mədəni dəyərləri bölüşən xalqlarımızın əsrlər boyu bir yerdə, dostluq, mehriban qonşuluq şəraitində yaşadıqlarını qeyd edərək, ölkələrimiz arasındakı əlaqələrin də bu möhkəm təmələ əsaslandığını bildirib.

Parlamentlərarası əlaqələrin Azərbaycan və Gürcüstan arasında ikitərəfli və çoxtərəfli münasibətlərin mühüm tərkib hissələrindən biri olduğunu qeyd edən S. Qafarova deyib ki, bu gün qanunvericilik orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub. Parlament sədrlərinin, nümayəndə heyətlərinin, dostluq qruplarının qarşılıqlı səfərləri bu əməkdaşlığın inkişafına təkan verib. Həmçinin, parlamentlərin komitələri arasında da yaxşı əməkdaşlıq təcrübəsinin formalaşdığı qeyd olunub.

Davit Sonqulaşvili Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili iki ölkə arasında əlaqələrin inkişafında qanunverici orqanların mühüm rolunu qeyd edib.

Görüşdə Qərbin bir sıra təşkilatlarının ikili standartlar siyasəti tənqid edilib, beynəlxalq qurumlarda birgə fəaliyyətin zəruriliyi vurğulanıb.

***

**Həmin gün Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri David Sonqulaşvilinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Azərbaycan-Gürcüstan dostluğunun qədim tarixə malik olduğunu deyən işçi qrupunun rəhbəri Arzu Nağıyev bildirib ki, xalqlarımız arasındakı sıx əlaqələr parlamentlər səviyyəsində də inkişaf edir.

Azərbaycan-Gürcüstan münasibətlərinin hazırkı səviyyəsindən danışan David Sonqulaşvili ölkəmizin qazandığı son uğurlardan məmnunluğunu bildirib.

**Ə. BƏDƏLOV**
**XQ**

# Azərbaycan–Rusiya münasibətlərinin inkişafında yeni mərhələ

**Azərbaycan və Rusiya prezidentlərinin bu görüşü iki dövlət arasında qədim qonşuluq və dostluq münasibətlərinin sağlam və səmimi olduğunu göstərir. Dövlətimizin başçısı İlham Əliyevin qonşu ölkəyə səfəri bütün aspektlərdən mühüm əhəmiyyətə malikdir. Bu, eyni zamanda, Azərbaycan ilə Rusiya arasında iqtisadi-siyasi əməkdaşlığın bundan sonrakı inkişafına verəcəyi töhfəni şərtləndirir.**



Hazırda iki ölkə arasında iqtisadi-siyasi və mədəni sahələrdə əməkdaşlıq yüksək səviyyədədir. Bu səfər həm də göstərdi ki, Azərbaycan və Rusiya dövlətləri arasındakı mehriban qonşuluq və dostluq siyasətinin mövcud vəziyyəti hər iki ölkənin maraqlarına cavab verir və tərəflər münasibətlərin daha da inkişafında maraqlıdırlar.

Cari il yanvarın 22-də imzalanan "2024-2026-cı illər üçün əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Yol Xəritəsi" Azərbaycan-Rusiya arasında qarşılıqlı faydalı əməkdaşlığa mühüm töhfə verir, ticari-iqtisadi və investisiya qoyuluşunu sürətləndirir, nəqliyyat, sənaye, aqrar və qida təhlükəsizliyi, həmçinin innovasiya və informasiya texnologiyaları sahələrində birgə layihələrin gerçəkləşdirilməsinə əlverişli zəmin yaradır.

Hazırda iki dövlətin əməkdaşlıq münasibətlərinin uğurlu inkişafı Qafqaz-Xəzər regionunda sabitlik və təhlükəsizliyin mühüm amilidir. Azərbaycan MDB ölkələri arasında Rusiyanın əsas ticarət partnyorlarından biridir. Azərbaycan-Rusiya hökumətləri arasında sərbəst ticarət, hava nəqliyyatı, elektroenergetika sahələrində əməkdaşlıq, qarşılıqlı ticarətdə vasitəli vergilərin tutulması prinsipləri, beynəlxalq avtomobil əlaqələri, dəmir yolu nəqliyyatı ilə sərnişin və yük daşınmasının təşkili üzrə sazişlər mövcuddur.

Ticarətin asanlaşdırılması və ticarət axınının şaxələndirilməsi, gömrük və sərhəd-keçid infrastrukturunun təkmilləşdirilməsi, dövlət sərhədindən yük daşımalarının həcminin, habelə buraxılış məntəqələrinin keçirmə qabiliyyətinin artırılması və digər istiqamətlərdə görülən tədbirlər nəticəsində Azərbaycan-Rusiya ticari-iqtisadi əlaqələrinin dayanıqlı inkişaf dinamikası təmin edilib. Bununla əlaqədar statistikaya əsaslanıb qeyd edə bilərik ki, 2017-ci illə müqayisədə ticarət dövriyyəsi iki dəfədən çox artaraq, ötən il 4,5 milyard ABŞ dollarına çatıb. Həmçinin 2023-cü ildə iki ölkə arasında ümumi yük daşımalarının həcmi 2017-ci illə müqayisədə 87 faiz, o cümlədən tranzit yüklərin həcmi 4 dəfəyə yaxın artıb. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımaları 2017-ci illə müqayisədə 44 faizdən çox olub.

İki ölkə arasında investisiya sahəsində əməkdaşlıq da yüksələn xətlə inkişaf edir. Respublikamızda Rusiyanın iştirakı ilə böyük investisiya layihələrinin reallaşdırılması məhz bunun bariz ifadəsidir. Rusiyanın Azərbaycandakı şirkətləri yeni istehsal sahələri, xidmət mərkəzləri yaradaraq, sənaye sahəsində daha geniş əməkdaşlığa töhfə verirlər.

Hazırda Azərbaycanda Rusiya kapitallı 1400-dən çox müəssisə fəaliyyət göstərir. Onların 300-ə yaxını 100 faiz Rusiya sərmayəsinə malikdir. Ötən il Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarının məbləği 300 milyon dollara yaxın olub.

Bu ilin yanvar-fevral aylarında iki ölkə arasında yükdaşımaların ümumi həcmində 10 faizdən çox artım qeydə alınıb. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ölkələrimizin əraziləri vasitəsilə Cənubi Asiyadan Avropaya yüklərin daşınması üçün optimal imkanların yaradılmasına yönəldilib və 2023-cü ildə bu dəhlizlə yükdaşımaların həcmi təxminən 17 faiz yüksəlib.

Rusiya-Azərbaycan arasında turizm imkanları da davamlı olaraq genişlənib. Rəsmi məlumatlara əsasən, ötən il Rusiyadan respublikamıza 625 mindən çox turist səfər edib. Qısa müddət ərzində Dağıstan, Tatarıstan, Başqırdıstan, Udmurt, Həştərxan, Ryazan vilayətləri, Perm diyarı və Rusiya Federasiyasının digər subyektləri ilə qarşılıqlı səfərlər həyata keçirilib.

Qeyd edək ki, iki ölkə arasında müşahidə olunan bütün bu uğurların təməlində, qarşılıqlı əlaqələrin möhkəmlənməsində Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti dayanır. Yeri gəlmişkən, dahi şəxsiyyət istər 1969-1982-ci illərdə Azərbaycana uğurla rəhbərlik etdiyi illərdə, istərsə də 1982-ci il noyabrın 22-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçiləndən və noyabrın 24-də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin ediləndən sonra ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsini daim diqqətdə saxlayıb, dostluq körpülərinin sarsılmaz sütunlarının formalaşmasında yorulmaz səy göstərib. Dövrün ən böyük infrastruktur layihələrindən olan Baykal-Amur Magistralı tikintisinin sürətləndirilməsində yeni ideyaları ilə adını Azərbaycan-Rusiya dostluq tarixinə qızıl hərflərlə yazdırıb.

Xatırladaq ki, bu magistralla ildə, təxminən, 180 milyon ton yük daşınıb. Rusiyanın vaxtilə insan ayağı dəyməyən, ucu-bucağı görünməyən əyalətlərində BAM hesabına müasir şəhərlər yaradılıb. Bu yol Rusiyanın tranzit sahəsində də inkişafına böyük təkan verib. Çin, Koreya Respublikası, Vyetnam, Hindistan və digər cənub Şərqi Asiya və Orta Asiya dövlətlərinin Avropa ilə ticarət əlaqələri məhz BAM vasitəsi ilə qurulub. Rusiya ekspertlərinin bildirdiklərinə görə, 2030-cu ilədək BAM-in daha 3,5 min kilometr uzadılacağı, yeni stansiyaların tikiləcəyi nəzərdə tutulub.

Bu gün Azərbaycan Ulu öndərin ideyalarını uğurla davam və inkişaf etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir, regionda əməkdaşlığın və davamlı inkişafın təmin olunması üçün ardıcıl səyləri uğurla həyata keçirir. Bu prosesdə Rusiya ilə əlaqələrin inkişaf etdirilməsi xüsusi yer tutur. Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri məhz bu baxımdan mühüm önəm daşıyır.

**XQ**

# Muxtar Babayev BMT-nin Baş katibi ilə görüşdü

**Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti BMT-nin Baş katibi Antonio Quterreşlə görüşüb.**

Bu barədə COP29-un sosial şəbəkə hesabında paylaşım olunub.



"Prezident Muxtar Babayev və COP29 komandası BMT-də Yer Günündə Baş katib Antonio Quterreşlə görüşüb. Biz tərəfləri bir araya gətirmək, keçmiş vədlərin hamısının yerinə yetirilməsini təmin etmək və 1,5 ºC-lik istiləşməni saxlamaq məqsədilə hərəkətə keçmək üçün birlikdə işləmək əzmindəyik", – paylaşımda qeyd edilib.

**XQ**

# "4"ün "44" olma ehtimalı və "dəmir yumruq" məntiqi



**(əvvəli 1-ci səhifədə)**

Bəli, Ermənistandakı revanşistlər kəndlərin qaytarılması və Alma-Ata Bəyannaməsi məsələsində hakimiyyətin ölkə konstitusiyasına zidd davrandığını iddia edirlər. Onlar bildirirlər ki, ölkənin ana qanununda hansısa ərazidən imtinanın yalnız bir yolu var: referendum. Yəni, şovinistlərin fikrincə, Ermənistan iqtidarının əraziləri Azərbaycana verməsi konstitusiyaya zidd təmayüldür. Məsələni qaldıranlar Alma-Ata Bəyannaməsini də heçə sayırlar. Bu qütbün təmsilçilərinin sərsəm baxışlarına görə, konstitusiya qəbul edilərkən, ölkənin de-fakto malik olduğu bütün ərazilər Ermənistan torpağı kimi rəsmiləşib. Bu, nə deməkdir?

Suala cavab kimi izahat verək. Ermənistan konstitusiyası 5 iyul 1995-ci ildə keçirilmiş ümummilli referendum nəticəsində qəbul edilib. Sənəddə bildirilir ki, konstitusiyanın statusunun və ya sərhədlərin dəyişdirilməsi ilə bağlı qərarlar referendum yolu ilə səsvermə əsasında həyata keçirilirir və belə bir haqq vətəndaşlara məxsusdur. Ermənistanın 1995-ci ilədək Azərbaycan torpaqlarını işğal etdiyi reallığını düşünsək, hazırda revanşist-şovinistlərin həmin torpaqları ölkənin əraziləri kimi tanımalarında "məntiq" var. Yəqin bu məntiqə görə idi ki, baş nazir Nikol Paşinyan 2019-cu ildə "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını vermişdi. Digər tərəfdən, Ermənistan konstitusiyasının 116-cı maddəsinə əsasən, siyasi və hərbi xarakterli beynəlxalq sənədə hansısa məmurun imzası sənəd parlamentdə ratifikasiya olunana qədər hüquqi qüvvəyə malik deyil.

Ermənistandakı revanşist-şovinistlər bir məqamı da vurğulayırlar ki, ölkə konstutusiyasında Alma-Ata Bəyannaməsi ilə bağlı heç nə yoxdur. O zaman biz məsələni həm də belə qoyaq: 1991-ci ilin Alma-Ata Bəyannaməsində ərazi konkretliyi ilə əlaqədar müddəa da nəzərdə tutulmayıb. Sənəddə Ermənistanın haradan başlayıb harada bitdiyi dəqiq göstərilmir. Revanşistlərin de-fakto malik olan ərazilərə köklənmələri isə hüquqa deyil, sırf güc amilinə hesablanmış durumdur. O zaman bizdən güc tətbiqinə görə, yumşaq desək, inciməməlidirlər. Prezident İlham Əliyevin də vaxtilə bildirdiyi kimi, sərhəd harada istəyiriksə, orada olacaq. Ermənistan konstruktiv davranmayınca, dövlətimizin belə yanaşması aktuallığını saxlayacaq.

***

Fikrimizi ümumiləşdirərək deyə bilərik ki, hazırda Qazaxın dörd kəndinin geri qaytarılması rəsmi İrəvanın mövqeyindəki oturuşmuş müsbət dinamika göstəricisi deyil. Çünki prinsip etibarilə delimitasiya və demarkasiya prosesində çox da ziddiyyətli olmayan yalnız bir məsələ həllini tapmaq üzrədir. Digər problemlərin bu qaydada aradan qaldırılacağını düşünmək çətindir. Əvvəla, Paşinyan iqtidarı, vurğuladığımız kimi, Alma-Ata Bəyannaməsini ehkamlaşdırır. İkincisi isə Ermənistandakı revanşist-şovinist kəsim yuxarıda haqqında söz açdığımız məqamı qabardır və kəndlərin Azərbaycana təhvil verilməsini konstitusiyaya zidd təmayül qismində dəyərləndirir. Yeri gəlmişkən, onlar bir şeyi də vurğulayırlar: müstəqil Ermənistanın konstitusiyasında "sərhəd" anlayışı Ermənistan SSR-in inzibati sərhədi deyil.

Deməli, revanşist-şovinistlər Paşinyanın və komandasının Alma-Ata Bəyannaməsinə istinadını yolverilməz sayırlar və bir yandan baxsaq, haqlıdırlar. Çünki Ermənistan konstitusiyasının söykəndiyi istiqlaliyyət bəyannaməsi adlı sənəd mövcuddur. Həmin bəyannamədə nəinki Azərbaycana, eləcə də Türkiyəyə qarşı ərazi iddiaları əksini tapıb. O zaman belə nəticəyə gəlirik ki, Qazaxın dörd kəndinin geri qaytarılması ilə başlanmış sərhədlərin delimitasiyası və demarkasiya prosesinin müsbət sonluğa çatması üçün kompleks tədbirlər görülməlidir. Elə tədbirlər ki, Azərbaycan–Ermənistan münasibətlərini tam şəkildə qaydaya salsın. Ən başlıcası isə referendum yolu ilə Ermənistan konstitusiyası dəyişdirilməlidir. Çünki Paşinyan bu gün var, sabah yoxdur. Sabah ölkədə hakimiyyətə gələcək hansısa qüvvə Nikolun və komandasının qərarını qeyri-legitim saya bilər.

***

Rəsmi İrəvanın Alma-Ata Bəyannaməsini ehkamlaşdırması, revanşist-şovinistlərin hazırda çıxardığı oyunlar məsələsində gəldiyimiz daha bir qənaət budur ki, Azərbaycan və Ermənistan sərhədlərinin delimitasiyası və demarkasiyası ilə bağlı prosesin davamı heç də rəvan müstəvidə getməyə bilər. Hər bir halda, ilk addımın atılması önəmlidir və istər-istəməz müsbət presedent yaradır. Hazırda pozitivlik ab-havasını real və faktiki addımlarla gücləndirmək şərtdir. Əlbəttə ki, rəsmi İrəvan və onun xaricdəki havadarları sözügedən presedenti Ermənistan üçün beynəlxalq imic məsələsi kimi təbliğ edib sülh prosesində manipulyasiyalara yol verməsələr. Əks halda, obrazlı ifadə etsək, 4 yenidən, 44 ola bilər. "Dəmir yumruq" yerindədir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistanda "erməni soyqırımı" uydurmasına yeni baxış?!

**24 apreldə İrəvandan Sərdarabaddakı 1965-ci ildə qoyulmuş "soyqırımı" abidəsinə ənənəvi yürüş olacaq. Qondarma "erməni soyqırımı"nı 109-cu anma gününün bu il də keçiriləcəyi planlaşdırılır. 24 aprel ərəfəsində Ermənistanda ortaya atılan "erməni soyqırımı" saxta təbliğatının hansı şəkildə davam etdirilməsi müzakirə mövzusudur. Baş nazir Paşinyanın son zamanlar "erməni soyqırımı" ifadəsi yerinə "böyük fəlakət" və ya "qətliam" kəlmələrini dilə gətirməsi bu ifadədən imtina etməsi anlamına gəldiyini iddia edənlər var. Onlar Paşinyanı bu "milli davaya" xəyanətdə suçlamaqdadırlar.**



Deyirlər ki, Paşinyan Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaq, Azərbaycanla sülhə, Türkiyə ilə sərhədlərin açılmasına nail olmaq üçün ermənilərin 100 ildən çox apardıqları davadan imtina etmək istəyir. Siyasi şərhçi David Qriqoryan bildirir ki, Paşinyan Ermənistan Konstitusiyasında yer alan Türkiyəyə "erməni soyqırımı"nı qəbul etdirmək kimi ideyanı heçə sayır və Ermənistanın illərlə bütün dünyada apardığı mübarizənin üzərindən xətt çəkir. Çünki Azərbaycan və Türkiyə onun qarşısına belə tələb qoyublar ki, Ermənistan Konstitusiyası dəyişdirilsin. İndi onun "erməni soyqırımı" ifadəsini işlətməməsi bu məqsədi daşıyır.

İddia edənlər var ki, Paşinyan bu məsələ ilə bağlı Ermənistanın siyasətinə müəyyən dizayn vermək istəyir. Ənənəvi üsullardan geri duraraq soyqırımı ilə bağlı real əsaslar hazırlamağı, 1915-ci ildə "öldürülənlərlə" bağlı siyahının olmasını istəyir. Parlamentin sədr müavini, Müdafiə Komitəsinin sədri Andranik Koçaryan deyir ki, burada nə var ki, Paşinyanın işlətdiyi kəlmələrin hamısı eyni mənanı ifadə edir və o doğru olaraq öldürülən soydaşlarımızın bütün siyahısını hazırlayaraq gerçəyin nə olduğunu anlatmağa çalışır. Məgər bu normaldırmı ki, bizim əlimizdə hələ də 1915- ci ildə fiziki cəhətdən ortadan qaldırılan insanların siyahısı yoxdur. Nə üçün Holokost faciəsində soyqırımına məruz qalanların tək-tək adlarını yəhudilər tərtib edə biliblər, biz yox? "Azadutyun" ("Azadlıq") radiosuna müsahibəsində o vurğulayıb ki, ən vacibi onların ad və və soyadlarının olmasıdır, bir milyon yarım insan - harada, necə, hansı şəraitdə qətlə yetirilib, indi hədəf bu olmalıdır.

A.Koçaryanın sözündən belə çıxır ki, ermənilərin iddia etdikləri 1,5 milyon erməninin soyqırıma məruz qalması faktı şübhəlidir, bu sadə səbəbdən ki, öldürülənlərin siyahısı əldə yoxdur. Sərdarabaddakı muzeydə fotoların və saxta sənədlərin inandırıcılığı yoxdur. Haqlı olaraq bu rəqəm şübhə altına alınır. Ermənilərin özləri də artıq etiraf edirlər ki, indiyədək Ermənistan dövlətinin və diasporunun yürütdüyü "erməni soyqırımı" ideologiyası iflasa uğramışdır. Ermənistanda və xarici ölkələrdə də yaxşı bilirlər ki, 24 aprel 1915-ci ildə Osmanlı dövlətində hansı hadisə baş verib.

Ümumən, 1915-ci il olaylarını "soyqırımı" adlandırmaq absurddur. Amma ermənilər bu günü simvollaşdırıb və bütün dünyada antitürk təbliğatının ana mövzusuna çevirmişlər. Ayrı-ayrı ölkələrə müraciət edərək müxtəlif vasitələrlə bu saxta "erməni soyqırımı" ilə bağlı qərarlar çıxarmağa çalışırlar. Bəzən də buna nail olurlar. Neçə illər ona çalışdılar ki, ABŞ prezidenti "erməni soyqırımı" kəlməsini işlətsin. Bayden bu kəlməni işlətdi, amma məsələyə baxış dəyişmədi. Çünki tarixdə belə bir olayın yaşanmadığı nüfuzlu elm adamları, tarixçilər və ermənişünaslar tərəfindən ortaya qoyulmuşdur. 1915-ci il olaylarını araşdırmaq üçün Türkiyənin arxivlərin açılması təklifinə Ermənistan reaksiya vermir. Çünki Ermənistanda yaxşı bilirlər ki, arxivlər açılarsa və bu məsələni araşdıran beynəlxalq komissiya yaradılarsa, türklərin deyil, ermənilərin soyqırımçı olduğu ortaya çıxar.

24 aprel 1915-ci ildə nə baş vermişdi? Həmin gün İstanbulda üsyançı erməni komitəçilərin həbs edilib sürgünə göndərilməsi olayından başqa bir şey olmamışdır. 1915-ci ildə Osmanlı dövləti artıq Birinci Dünya müharibəsinin içindəydi. Antanta dövlətləri ölkənin paytaxtında qarışıqlıq törətmək üçün hər zaman vasitə olan erməniləri seçmişdi və Osmanlı kəşfiyyatı buna görə erməni siyasi təşkilatları olan Daşnaksutyun, Ramkavar və Hnçak partiyalarının fəaliyyətini qadağan etmişdi. Amma erməni komitəçilər Qərbdən aldıqları tapşırığı yerinə yetirmək üçün gizli fəaliyyətlər yürüdür, terror aktları düzənləmək planları qururdular . Belə planlardan biri aprelin 27-də terrorla Sultanın öldürülməsi idi. Aprelin 24-dən 25-nə keçən gecə, yəni ermənilər tərəfindən planlaşdırılmış terror aktlarından üç gün əvvəl İstanbul polisi qadağan olunmuş erməni partiyalarının uzun müddətdən bəri nəzarət altında olan yüzlərlə üzvünün mənzillərinə gözlənilmədən reydlər edib. Bu genişmiqyaslı əməliyyat zamanı mənzillərində silah, döyüş sursatı və başqa dəlillər aşkar edilmiş, çoxsaylı üsyançılardan yalnız 235 şübhəli şəxs saxlanılıb. Axtarış zamanı evindən heç nə çıxmamış partiya üzvləri isə sərbəst buraxılıblar. Daha sonra Birinci Dünya müharibəsi gedən yerlərdə ermənilərin rəqib ölkəyə yardım etmə səbəbindən eyni il mayın 27-də Osmanlı dövləti Şərqi Anadolu və başqa yerlərdən erməni əhalinin ölkənin başqa bir ərazisinə köç etdirməyə məcbur olarkən də ermənilərin fiziki cəhətdən ortadan qaldırılması planı olmamışdır.

1915-ci ildə baş verən olayları bir "soyqırımı" olaraq qələmə verərək, Türkiyəyə qarşı ideoloji savaş aparan erməni düşüncə sisteminin uğur qazanmaq şansı yoxdur. Çünki bu olaylar 1948-ci ildə qəbul etdiyi Konvensiya ilə nəzərdə tutulan soyqırımı anlayışından tamamilə uzaq hadisələrdir. Ermənilərin bu olaya ideoloji don geyindirərək bir dövlətə və millətə böhtan atması uzun sürə bilməzdi. Artıq Ermənistanın siyasi çevrələrində belə bir mübahisələrin olması saxta, çürük və heç bir əsası olmayan iddiaların iflası deməkdir. Ermənistan rəhbərliyi dünyada aparılan bu ideoloji xəttin dövlətə zərərli olduğunu anlamışdırmı? Ermənistanın siyasi elitasında, ictimaiyyətində elə adamlar var ki, bu ideoloji xəttin iflas etdiyini anlayırlar.

Ermənistanda bir çox məsələlərə baxışın dəyişməsi prosesi başlanmışdır. İrqçi düşüncə ilə uzağa getmənin mümkün olmadığı anlayan Ermənistanın gerçəkləri qəbul etməkdən başqa şansı yoxdur.

***Qafar ÇAXMAQLI,***
***"XQ"-nin Türkiyə müxbiri***

# Yeni tarixi mərhələdə milli ideya

**XI MƏQALƏ**

**Çox sevindiricidir ki, Avrasiyanın böyük bir hissəsini birləşdirən bizim ölkələr artıq müstəqil dövlətlər kimi regional əməkdaşlığa başlamışlar.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**




## Türk xalqları: tarixi yaddaş və müasirlik

Türk xalqlarının altı dövləti mövcuddur – Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkiyə və Türkmənistan. Əgər ayrı-ayrı dövlətlər varsa, bu, BMT-nin təsnifatına görə, millətin varlığına dəlalət edir. Burada türk millətinin tərkibinin ierarxik (pilləli) olduğu nəticəsi alına bilər. Bu, maraqlı fenomendir: bir tərəfdən ortaq tarix, mədəniyyət, dil və din mənsubluğu vardır, digər tərəfdən isə ayrı-ayrı dövlətləri vardır. Bir millətin bir neçə müstəqil dövləti hansı şərtlər daxilində mümkündür? Onu da nəzərə almaq lazımdır ki, türklər bir neçə dövlətin tərkibində avtonom hüquqa malikdirlər və hətta bəzi respublikaları müstəqilliyə yaxın səlahiyyətlərə sahibdir.

Dövlətçilik və qloballaşma prosesində milli dövlətçiliyin inkişafı baxımından artıq bu reallığın üstündən sükutla keçmək mümkün deyil. Çünki söhbət ümumiyyətlə, dünyanın qloballaşmasından gedirsə, türk xalqlarının həm bir-biri ilə münasibətləri, həm də digər dövləti olan xalqlarla münasibəti çox aktuallaşır. Hələlik sayı 6 olan dövlətlərin bir milləti təmsilən dünya geosiyasi nizamında necə yer ala bilər ki, ədalətə və beynəlxalq hüquqa uyğun olsun? Bu suala cavab axtarışları işığında Türk Dövlətləri Təşkilatı (TDT) bir həll modeli, optimal inteqrasiya forması təsiri bağışlayır. İki səbəbdən.

Birincisi, türk dövlətlərini kimsə bir kənara qoyub, onun taleyini istədiyi kimi həll edə bilməz. Çünki onların hər biri müstəqil dövlətdir. İkincisi, türk xalqlarının ortaq geosiyasi, siyasi, iqtisadi, enerji və s. maraqlarının olduğunu inkar etmək mümkün deyildir. Bunu həm tarixi təcrübə göstərir, həm də indiki reallıq təsdiq edir. Burada əhəmiyyətli olan faktorlardan biri də türk dövlətlərinin coğrafi olaraq qonşu olmalarıdır. Məsələ ondan ibarətdir ki, dünyanın böyük gücləri özləri üçün xüsusi “qonşuluq siyasəti” kursu hazırlamışlar. Məsələn, Avropa İttifaqı üçün bu, “qonşuluq siyasəti” proqramında ifadə edilmişdir. Bizə məlum olan “Şərq Tərəfdaşlığı” proqramı da bura daxildir. Rusiya qonşuluq siyasətini “yaxın xaric” və “uzaq xaric” kimi daxil etdiyi iki yeni siyasi termin əsasında fomalaşdırır.

Aydındır ki, müstəqil və güclü dövlətlər qonşuları ilə münasibətlərə strateji xarakterli məsələ kimi baxırlar. Bu, həm də indi qlobal geosiyasət üçün aktual məsələyə çevrilmiş “yeni regionçuluq” təlimi və müxtəlif formada regionlaşma prosesinin vüsət alması fonunda böyük aktuallıq kəsb edir.

Avtomatik olaraq təbii bir sual meydana çıxır: türk dövlətləri həm qonşu, həm də eyni kök və mədəniyyət sahibləri kimi bir-biri ilə münasibətləri necə qurmalıdırlar ki, yeni dünya nizamında ədaləti və hüququ saxlamaq mümkün olsun? Sual ritorik deyildir və ciddi fəlsəfi-siyasi qavrama tələb edir. Bunun da öz səbəbləri vardır.

Əvvəla, türk xalqları uzun müddət fərqli sosial, siyasi və dövləti mühitdə mövcud olmuşlar. Türkiyə Qərbə daha yaxın olmuş və Osmanlı kimi möhtəşəm imperiya yaddaşına malikdir. Azərbaycan həmişə siyasi cəhətdən “qaynayan məkan” olmuşdur. Burada çox sayda güclü dövlətlər yaranmış və süqut etmişlər. Azərbaycanda XIX əsrdən başlayaraq dövlətçilik kontekstində düşündürücü və fəlakətli proseslər özünü göstərmişdir. Azərbaycanı Səfəvilər təmsil edirdi və o da Rusiya və Osmanlı kimi iki güclü imperiya ilə savaşa girişmişdi. Nəticədə çox geniş ərazisi olan Səfəvi dövləti parçalandı və kiçik ərazi (Şimali Azərbaycanda) türklərə qaldı. “İran” adlanan ölkədə isə aparıcılıq farslara keçdi ki, bununla dövlət quruculuğu aspektində türk faktoru arxa plana atıldı.

Mərkəzi Asiyadakı türk xalqlarının aqibəti Azərbaycandan daha pis idi. Rusiya onları tamamilə əsarətə almışdı və təhsil bütövlükdə “rus ssenarisi” üzrə formalaşmağa başlamışdı. Rusiyada, Çində, Hindistanda, Moldovada və digər ölkələrdə yaşayan və dövləti olmayan türkləri hələ demirik.

Bütövlükdə, türklər “dövləti və siyasi kimliyi” XX əsrə çox qarışıq, fraqmentar və dünya siyasətində sözü olmayan toplum kimi daxil oldu. Osmanlı dağıldıqdan sonra bu tendensiya daha da gücləndi. Nəticədə real mənzərə necə olur? Türk mədəniyyəti var, türk xalqları var, türk siyasi toplumu da var, lakin qlobal miqyasda sözü keçən, qəbul edilən güclü türk dövləti yoxdur! Yalnız XX əsrin son onilliyində SSRİ-nin dağılması ilə türk kimliyi dövləti kontekstdə dirçəlmək şansı əldə etdi. Bu prosesin də qarşısını böyük dövlətlər minbir hiylə ilə almağa çalışdılar. Bacarmadılar. Azərbaycanın fəallğı sayəsində türklər qazandı. Nəyi nəzərdə tuturuq?

## Ulu öndərin dahiyanə formulu: “Bir millət, iki dövlət”

Türk xalqlarının inteqrasiyası ideyası həmişə olduğu kimi Azərbaycanda formalaşdı. Ulu öndər Heydər Əliyev tarixi və geosiyasi vəziyyəti doğru dəyərləndirərək, bütövlükdə, Azərbaycanda müstəqil dövlət quruculuğu strategiyasını yeniləşdirdi. Ümummilli lider “Bir millət, iki dövlət” düsturu ilə türk xalqlarının dövlət kimi müstəqil olmaları, lakin millət, mədəniyyət, sosial-psixoloji özəllik, geosiyasi güc kimi vahid olmalarının mükəmməl formulunu yaratdı. Bu əsasda da konkret fəaliyyət göstərdi. Qısa zamanda Ankara Heydər Əliyevin yanaşmasını qəbul etdi. Sonrakı mərhələ daha çətin idi – Mərkəzi Asiya siyasi, ideoloji və dövləti baxımdan kökündən çox uzaqlaşmışdı. Bunun da öhdəsindən gəlindi! İndi TDT var! Bütün türk dövlətlərini təmsil edən və güclü inkişaf potensialına malik Türk Dövlətləri Təşkilatı! Bu, Heydər Əliyevin türk dövlətçiliyinə əvəzedilməz tarixi, siyasi və geosiyasi “hədiyyəsidir”!

Bu mənada deyə bilərik ki, türk birliyi Azərbaycan Respublikasının müasir mərhələdə milli ideyasının nüvəsində dayanan ideyalardan biridir! Türk dövlətləri ilə münasibətlər Azərbaycan milli ideyası üçün aparıcı faktorlardandır! Çünki bu ideya Azərbaycanda “doğulmuşdur”! Burada konkret siyasi məzmun almış və fəaliyyət proqramına çevrilmişdir. TDT-yə türk inteqrasiya formulu kimi sahib çıxmaq azərbaycanlıların tarixi və təbii haqqıdır! İndi TDT-ni “bir millət, altı dövlət” formulu ilə xarakterizə etmək arzusu vardır! Tarix göstərəcək!

Bizi isə bu məqalədə türk dövlətlərinin real inteqrasiya formulunun yeni tarixi mərhələdə milli ideya kontekstində hansı səbəblərdən uğurlu ola biləcəyi sualına cavab maraqlandırır. Hansı faktorlar bu prosesin həyata keçməsi mexanizmi rolunu oynaya bildi? Öncə, məsələyə bir qlobal müqayisə fonunda baxaq.

## İnteqrasiya modeli və perspektivli millətlər

Zənnimizcə, ilk sırada amerikanlar və türklər yer alırlar. Amma paradoksdur – amerikanlar tarixi yaddaşlarının olmaması səbəbindən perspektivlidirlər, türklər isə bənzəri olmayan tarixi yaddaş formuluna malik olduqlarına görə perspektivlidirlər. Amerikanları və türkləri tarixi yaddaş kontekstində bir-biri və başqaları ilə müqayisə etmək olar.

Müasir fransız tarixçi Pyer Nora yazır ki, dövlətçilik baxımından “Fransa yaddaşdır, Amerika yaddaş deyil”. Ancaq Fransa tarixi yaddaş məkanı kimi perspektivli ola bilmədi. Bir dövlət olaraq Fransa fransız olmayanlara yaddaşında ədalətli və hüquqi yer tapa bilmədi. Bu dövlət uzun illərdir ki, müstəmləkə və abstrakt “Frankofoniya” siyasətindən aydın görünür.

“Frankofoniya”nın bir təşkilat olaraq tarixinə və məqsədlərinə qısa nəzər salaq. Bu təşkilatın təşəbbüskarları 1970-ci ildə L.S.Senqor, H.Burbika, A.Diori və N.Sianuk olmuşlar. Onlar Nigerin Yantala (maraqlıdır: “yan”+”tala”) əyalətindəki Niamey şəhərində təşkilatın əsasını qoymuşlar. Məqsəd fransız dilinin populyarlaşdırılması ilə məşğul olmaqdan ibarətdir. Sonra başqa vəzifələr qarşıya qoydular, məsələn, texnoloji əməkdaşlıq və s.

Bu təşkilata 88 (!) ölkə daxildir. Onlardan Fransadan başqa kökü fransız olanları yoxdur, hər birinin dövlətçilik və mədəniyyət baxımından fərqli tarixi yaddaşı vardır. Məsələn, bir nigerli və ya kaledoniyalı ilə əsl fransızın hansı tarixi yaddaşı ortaqdır? Ən əsası isə əksəriyyəti hüquqi aspektdə Fransanın müstəmləkəsi olmaq kimi alçaldıcı yol keçmişdir. Ermənistan isə gülməli şəkildə onlara qoşulmuşdur. Qafqazda fransızların tarixən izi-tozu olmamışdır.

Deməli, “frankofoniya” həm ideya, həm də təşkilat kimi perspektivsiz yanaşamdır. Heç bir tarixi əsası olmayan, bir-brindən coğrafi olaraq çox uzaqda olan xalqların birliyi mümkün deyildir. Bu, milli ideya kimi yararsızdır.

Amerikaya gəlincə isə bu ölkəni müxtəlif regionlardan tarixi baxımdan yaxın keçmişdə miqrasiya etmiş və özləri ilə tarixi yaddaşlarını gətirmiş müxtəlif xalqlar yaratmışlar. Onların başqa xalqların yaratdıqları dövlətlərdən fərqi ondan ibarətdir ki, hazır mövcud olan müxtəlif yaddaşların “ortaq sahəsində” yeni toplum qurmağı bacarmışlar. Bu, təməldən Amerika cəmiyyətini inteqrasiya baxımından açıq və perspektivli edir. Məhz tarixi yaddaşın olmaması dövlət quruculuğunda və mədəniyyət formalaşdırmaqda geniş spektrli manevrlərə imkan verir. ABŞ dünyada yeganə dövlətdir ki, çox sayda ştatların (müəyyən mənada dövlətlərin) birliyi kimi yüz illərdir mövcuddur və hazırda dünyanın ən güclüsüdür.

Lakin Amerika inteqrasiyasının həssas və zəif yerləri mövcuddur. Birincisi, amerikanlarda bir “amerikan müstəsnalığı” formasında özündənrazılıq sindromu inkişaf edir.

İkincisi, Amerikada irqi ayrı-seçkilik qalmaqdadır. Nə qədər gizlədilsə də, zəncilərə qarşı hüquqsuzluq çoxalır.

Üçüncüsü, Amerikanın daxili inteqrasiyada sərbəstliyi ilə onun dünyaya ağalıq etmək istəyi arasında ciddi ziddiyyət meydana gəlmişdir. Bu, tarixi ziddiyyətdir və necə həll ediləcəyindən çox şey asılıdır.

Dördüncüsü, müəyyən mənada Amerikanın yaddaşsızlığı artıq özünəxas “yaddaş formasına” transformasiya edir ki, bunun da nəticəsi proqnozlaşdırılan deyildir.

Nəhayət, beşincisi, inteqrasiya aspektində ABŞ-ın qonşuluq siyasəti yoxdur və olsa da, absurd məzmun alardı. Çünki Amerika su ilə dünyadan təcrid olunmuşdur və onun birbaşa geosiyasi qonşusu mövcud deyildir (yeri gəlmişkən, bir sıra geosiyasətçi bunu təhlükəsizlik baxımından ABŞ-ın üstünlüyü sayır). Kanada isə həm onsuz da Amerikadır, həm də oturuşmuş güclü dövlətlərdəndir – onun mövcudluğuna təhlükə yoxdur.

Beləliklə, Amerika güclü inteqrasiya modeli olsa da, milli ideya kimi qüsurlu və bir qədər qeyri-müəyyəndir. ABŞ müxtəlif ştatları uğurla birləşdirə bilmişdir, lakin onun xalqları birləşdirmək potensialı aydın deyildir. ABŞ-ın sərhədləri daxilində irqi ayrı-seçkilik, sərhəddən kənarda isə dünya ağası olmaq iddiası amerikanların şanslarını xeyli azaldır. Uinston Çörçill demişkən, amerikalılar bütün səhv qərarları qəbul edəndən sonra düzgün qərar qəbul edirlər! Görünür, Amerika cəmiyyəti düzgün qərarı hələ çox gözləməli olacaq.

Türk tarixi yaddaşı isə milli ideya kontekstində tamamilə fərqli mənzərəni ortaya qoyur.

**(ardı var)**

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

# “Erməni soyqırımı” və Paşinyanın “Overton pəncərəsi”

## Baş nazir revanşist və şovinistləri necə dayandıra bilər?

**Sabah qondarma “erməni soyqırımı”nın növbəti ildönümü qeyd ediləcək. Buna hazırlığın getdiyi görünür. Amma hazırlıq necə gedir? Ermənistan hakimiyyəti “soyqırımı məsələsi”ndə fəallıq nümayiş etdirmir. Yüksək rütbəli hökumət rəsmilərinin bəyanatlarından belə təəssürat yaranır ki, Qarabağ kitabının bağlanmasından sonra baş nazir Nikol Paşinyanın irəli sürdüyü “Real Ermənistan” maraqları naminə “tarixi Ermənistandan” imtina konsepsiyası aktualdır.**



Üstəlik, Paşinyanın “soyqırımı” qurbanlarının adları və soyadları xüsusunda ortaya atdığı məsələ var. Rəsmi İrəvan həmin ad və soyadların müəyyənləşdirilmədiyi təqdirdə iddianın keçərsizliyi məntiqinə söykənir. Ermənistandakı revanşist-şovinist kəsimin fikrincə isə belə yanaşma ümumerməni maraqlarından imtinadır və xəyanət mahiyyəti daşıyır. Qeydlərimiz bu barədədir. Əlbəttə, digər əlaqəli məsələlərin də üzərində dayanacağıq.

Başlayaq “Hraparak” qəzetinin yazdıqlarından. Nəşr bildirir ki, N.Paşinyan bu il aprelin 13-də hakim “Vərəndaş sazişi” partiyasının Demokratiya məktəbində “Ermənistan Respublikasının sosial psixologiyası” mövzusunda mühazirə oxuyub. Paşinyan mühazirəsində “erməni soyqırımı” ilə bağlı bəyanatların 1946-cı ildən başlayaraq dövriyyəyə girdiyini deyib. O, həmin vaxt SSRİ və Türkiyə arasında münasibətlərin pisləşdiyinə diqqət çəkib və vurğulayıb ki, bir neçə il sonra NATO-nun yaradılması durumu daha da dramatikləşdirdi. Nikol, həmçinin həmin vaxt SSRİ-nin “soyqırımından” qaçan mühacirlərin geri qaytarılmasını təşkil etdiyini dilə gətirmiş və bunun durumu daha da ağırlaşdırdığını demişdi.

Nəzərə alaq ki, əslində, Paşinyan mühazirəsi boyu “soyqırımı” sözünü işlətməmiş, onun əvəzinə “Mets ekhern” (“Böyük qırğın”) ifadəsinə üstünlük vermişdi. Yeri gəlmişkən, ABŞ prezidentləri də vaxtilə aprelin 24-də etdikləri ənənəvi çıxışlarında “soyqırımı” ifadəsini Nikolun mühazirəsində işlətdiyi tərzdə dilə gətirirdilər və bu, hər dəfə Birləşmiş Ştatların erməni lobbi və diaspor təşkilatlarında ciddi məyusluq doğururdu.

Haqqında bir qədər əvvəl söz açdığımız “erməni soyqırımı” qurbanlarının ad və soyadları məntiqinə gəlincə, yada salaq ki, “Vətəndaş sazişi” partiyasının tanınmış üzvü, Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik komissiyasının sədri Andranik Koçaryan bir müddət əvvəl bildirmişdi ki, ailəsində həm ana, həm də ata tərəfdən “soyqırımı” qurbanları var. “Onların adlarının yazılmasını istəyirəm. Üstəlik, ola bilsin ki, 1,5 milyon qurban yox, 2 milyon və ya daha az olub. Bütün bunları qeyd etmək lazımdır”, – deyən A.Koçaryanın təklifini Ermənistanın diasporla iş üzrə komissarı Zareh Sinanyan da dəstəkləmişdi: “Andranik Koçaryanın dediklərini çox bəyənirəm. Bu, soyqırımın tanınmasına elmi yanaşmanın başlanğıcıdır”.

Lakin N.Paşinyanın komandasının üzvlərinin qaldırdıqları təşəbbüslər və “erməni soyqırımı” mövzusuna yeni yanaşmalar xəstə erməni cəmiyyətində kəskin hiddətə səbəb olur və erməni iqtidarı həmişəki kimi, öz baxışlarını ört-basdır etmək məcburiyyətində qalır. Məsələn, həmin Koçaryan deyir ki, onun 1,5 milyon qurbanın siyahısının tərtibi ilə bağlı bəyanatı baş nazirin qərarı deyil və ümumən mövcud istiqamətdə heç bir siyasi qərar yoxdur: “Bu, sadəcə mənim şəxsi fikrimdir”, – deyən erməni parlamentari onu da vurğulayır ki, səsləndirdiyi fikir havadan götürülməyib. Təsəvvür edin, 44 günlük müharibədə həlak olanların siyahısını belə dərc etməyən Ermənistan hakimiyyəti bir əsr əvvəlki “soyqırımı qurbanlarının” siyahısı ilə məşğul olmağa çalışır. Qəribə deyilmi? Həm də maraqlıdır...

Ermənistandakı revanşist və şovinist kəsim iddia edir ki, Paşinyan iqtidarı türkpərəst mövqe tutur. Onlar rəsmi Ankaranın “soyqırımını” dandığına dair fikri önə çəkirlər. Gerçəklik isə budur: Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və ölkənin rəsmiləri bildirirlər ki, Ankara İrəvanla birgə arxivləri açmağa və əsl həqiqətləri üzə çıxarmağa hazırdır. Əlbəttə, belə konstruktiv yanaşma nə erməni hakim siyasi dairələri, nə də onların xaricdəki havadarları üçün sərfəlidir. Buna görə təkliflə razılaşmırlar və qondarma “erməni soyqırımı” məsələsindən Türkiyəyə qarşı siyasi vasitə kimi yararlanmağa çalışırlar.

Erməni şovinist və revanşist kəsim onu da bildirir ki, N.Paşinyan və komandası hazırda Türkiyə və Azərbaycanla “nəyin bahasına olursa-olsun” sülh sazişi bağlamağa çalışır, 1915-ci ildə yaşananlar onun üçün əhəmiyyətli deyil. Bu isə sən demə, Ermənistanın tarixi yaddaşının silinməsi, əcdadların xatirələrinin rədd edilməsi demək imiş.

Qeyd edək ki, erməni ekspertlər və müxalif siyasətçilər Ermənistan hakimiyyətinin “soyqırımı” məsələsində tutduğu hazırkı kursun təhlükəli olduğunu da vurğulayırlar. Məsələn, soyqırımı üzrə ekspert olduğu bildirilən Suren Manukyan deyir ki, soyqırımı konkret sayından asılı olmayaraq, müəyyən bir qrupun irqi, dini və ya digər mənsubiyyətinə görə məhv edilməsidir və bu, Türkiyənin onu inkar tezislərindən biridir. Manukyanın sözlərinə görə, dünyanın ekspert icması 1,5 milyon erməni ilə bağlı, guya, yekdil fikirdədir. Çünki beynəlxalq miqyasda soyqırımı cinayətləri xüsusunda statistika aparılmır. Ona görə ki, cinayəti törədənlər onun izlərini silirlər. Mövcud səbəbdən də Paşinyan iqtidarının adları müəyyənləşdirmək təşəbbüsü ictimaiyyəti heç vaxt bitə bilməyəcək proseslə məşğul etməkdir: “Bunun fonunda türklər deyəcəklər ki, ermənilər prosesi başa çatdıranda danışarıq. Belə təəssürat yaranır ki, Ermənistan hakimiyyəti “erməni soyqırımı”ndan imtinanı təmin etməyə çalışır. Proseslər sanki bir mərkəzdən idarə olunur.”

Ümumiyyətlə, Ermənistan hakimiyyətinin son aylarda və illərdəki siyasəti üçün “Overton pəncərəsi” açmaq cəhdi xarakterikdir. Yəni, ölkənin hakim siyasətçiləri və fəalları çıxışlarında yol verdikləri fikir diapazonu çərçivəsinin cari ictimai diskursa əsaslanaraq, mövcud olduğunu vurğulayırlar. Qondarma “soyqırımı” ilə bağlı məsələyə də mövcud prizmadan yanaşmaq mümkündür. Nəzərə alaq ki, Paşinyan iqtidarı üçün Cənubi Qafqaz reallıqlarında Qərbə gedən yol məhz Türkiyədən keçir. Bu səbəbdən baş nazirə yaxın dairələr Ermənistanın Türkiyə ilə yaxınlaşması yolundakı əsas maneəni aradan qaldırmağın zəruriliyinə söykənirlər. Revanşist-şovinist dairələri də hiddətləndirən elə budur. İkincilərin fikrincə, Nikol və tərəfdarları ictimai şüurda Türkiyənin günahkar olmadığı fikrini fəal şəkildə təbliğ edir, Rusiyanı Ermənistanın düşməni qismində göstərirlər. Onlar eyni zamanda, iddia edirlər ki, Ermənistan iqtidarı hətta Rusiyanın “erməni soyqırımı”nın əsas günahkarlarından və təşkilatçılarından biri olduğuna dair təbliğat da aparır.

Bütün bunların fonunda baş nazir N.Paşinyanın aprelin 24-dəki çıxışının hansı mesajlarla yadda qalacağı maraq doğurmaqdadır. Şovinist-revanşist kəsimin təmsilçiləri indidən Nikolun söyləyəcəklərini qorxu ilə qarşılamağa kökləniblər. Onlar vurğulayırlar ki, əgər indiyədək Türkiyə və Azərbaycan hakimiyyətinin “erməni soyqırımı”nı inkar etmək üçün atdığı addımlarla mübarizə aparırdılarsa, artıq dünya erməniləri ölkənin hakim komandasının məsələ ilə əlaqədar bəyanatlarından ehtiyatlanmalıdırlar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Koçaryan ansamblı” köhnə repertuara qayıdıb

## Xocalı cəlladı yenə iki xalqın “etnik” uyğunsuzluğundan dəm vurur

**Azərbaycan və Ermənistan arasında yaradılmış delimitasiya və demarkasiya üzrə komissiyanın aprelin 19-da keçirilən iclasında Qazax rayonunun işğal altındakı 4 kəndinin ölkəmizə qaytarılması ilə bağlı qəbul edilən qərar haylar arasında yeni etiraz dalğasının baş qaldırmasına səbəb olub. Hazırda Ermənistan cəmiyyətində bununla bağlı qızğın diskussiyalar gedir.**



Normal düşüncə sahibləri kəndlərin heç zaman Tavuş vilayətinin inzibati-ərazi bölgüsünə daxil olmadığını bildirərək, onların qaytarılmasının tamamilə doğruluğunu bildirirlər. Radikal-revanşist kəsimin nümayəndələri isə bu addımı “xəyanət, satqınlıq” kimi qələmə verməyə çalışırlar. Xüsusilə, keçmiş prezident Robert Koçaryanın parlamentdəki “Hayastan” fraksiyasının deputatları bu məsələdən sui-istifadə edərək xalqı baş nazir Nikol Paşinyana qarşı qaldırmağa çalışırlar. Bugünlərdə onlar hayların “Voskepar” adlandırdıqları Yuxarı Əskipara kəndində olublar. Kəndin klubunda keçirilən görüşdə “Hayastan”ın deputatı, eks-prezidentin oğlu Levon Koçaryan da iştirak edib.

Maraqlıdır ki, onlar bu görüş zamanı, azərbaycanlılarla ermənilərin birlikdə yaşamasının mümkünsüzlüyü barədə, necə deyərlər, köhnə bayatıları səsləndiriblər. Yeri gəlmişkən, xatırladaq ki, bu bayatını ilk dəfə R.Koçaryan 2003-cü il yanvarın 16-da Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında söyləmişdi. O, çıxışı zamanı azərbaycanlıların və ermənilərin “etnik və genetik baxımdan uyğunsuz olmaları” kimi faşistsayağı irqçi fikirlər söyləmiş və Qarabağdakı erməni əhalisinin Azərbaycan dövləti daxilində yaşamasının mümkün olmadığını açıqlamışdı. Həmin hadisədən sonra – yanvarın 30-da Strasburqda çıxış edən Avropa Şurasının baş katibi Valter Şvimmer R.Koçaryanın fikirlərinin müharibənin yenidən alovlandırılmasına bərabər olduğunu bildirmişdi. AŞPA-nın prezidenti Peter Şider isə Koçaryanın sözünün səhv tərcümə olunduğuna ümid etdiyini söyləyərək, Avropa Şurasının yarandığı gündən bu yana “etnik uyğunsuzluq” ifadəsini eşitmədiyini demişdi.

Belə düşüncəyə malik şəxslər Yuxarı Əskiparaya gələrək yenə də oxşar fikirlər söyləyiblər. Görüşdə çıxış edən “Hayastan”ın deputatı Aqvan Vardanyan iki xalqın göz-gözə yaşamasının qeyri-mümkün olduğunu bildirib. Deputat N.Paşinyanı nəzərdə tutaraq deyib: “Bir nəfər bütün erməni xalqını girovluqda saxlayır. Onun necə biri olduğunu hamı bilir. Nikolun perspektivi yoxdur. O, bu yaxınlarda parlamentə gələrək Erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri Baqrat Qalstanyanı nəzərdə tutaraq isterik şəkildə qışqırdı ki, hansısa keşiş Voskeparda şou düzənləyib. Demək istəyirəm ki, insanlar kənddəki məbəddə həmişə liturgiya (xristianlıqda ən əsas dini ibadət ayini – S.H.) keçiriblər. Nikol yalançı və qorxaqdır. Azərbaycanlılar bu gün Cermuka nəzarət edən yüksəklikdə yerləşiblər. Bir çoxları deyirlər ki, iki xalq yenidən sülh və əmin-amanlıq şəraitində yaşaya bilər. Belə adamlara heç vaxt inanmaq lazım deyil. Əgər Azərbaycan sabah azərbaycanlıları Ermənistana qaytara bilsə (1988-89-cu illərdə öz yurd-yuvalarından qovulmuş soydaşlarımızı nəzərdə tutur – S.H.) bizim dövlətimiz mövcudluğunu dayandıracaq. Buna imkan verməmək üçün siz İrəvanın meydanlarına toplaşmalı və Nikolun istefasını tələb etməlisiniz”.

Ancaq nəinki İrəvanda və ölkənin digər və şəhər və rayonlarında, heç 4 kənddə yaşayan hayların da hamısı bu cür düşünmür. Ermənistan media mənsublarının keçirdiyi sorğu ortaya fərqli mənzərənin çıxmasına səbəb olub. Yuxarı Əskipara sakinlərindən biri olan ahıl yaşlı Babken Ayrapetyan deyib: “Biz Nikol Paşinyanın işindən razıyıq. Hər şeyin təqsirkarı müxalifətdir. Keçmiş hakimiyyət nəyə görə 30 il ərzində bizim həyatımızla maraqlanmayıb? Voskepar bu gün onların yadına düşüb. Sərhədlərin delimitasiyası aparılsa, insanlar bu ərazidə sakit yaşayacaqlar. Burada bizim öz torpağımız heç vaxt olmayıb. Azərbaycanın Bağanıs Ayrım, Yuxarı və Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri 30 ildən çox bizim əlimizdə olub. Biz onların torpağını istifadə etmişik”.

B.Ayrapetyan bu kəndlərin Ermənistana məxsusluğundan danışmağın mümkün olmadığını vurğulayıb: “Mənim 77 yaşım var. Mən yaxşı bilirəm ki, bu kəndlər Azərbaycana məxsusdur. Atam da həmişə danışırdı ki, bu kəndlər Azərbaycanındır. Son vaxtlar “Hayastan” fraksiyasınbdan olan deputatlar və daşnaklar Voskepara gəlirlər. Onlar deyirlər ki, Paşinyan Tavuşun 4 kəndini Azərbaycana verəcək. Onlar hansı kəndlərdən danışırlar? Bu insanlar situasiyanı niyə gərginləşdirirlər? Onlar nə üçün Ermənistanın Azərbaycan kəndlərini qaytardığını demirlər? Mən yüz faiz əminəm ki, sabah müharibə başlasa, onlar hamısı Ermənistandan qaçacaqlar”.

Qeyd edək ki, Ermənistanla Azərbaycan arasında delimitasiya prosesindən əvvəl Tavuş vilayətində minatəmizləmə işlərinə başlanılıb. Əraziyə 25 nəfərədək minaaxtaran cəlb olunub. Aşağı Əskipara kəndinin sakinləri ərazilərin minalardan təmizlənməsinin qarşısını almağa çalışıblar. Nəticədə əraziyə polis əməkdaşları cəlb olunub. Aprelin 21-də gecə saatlarında isə onlar Tavuş vilayətində Gürcüstanla dövlətlərarası avtomobil yolunun bağlayıblar. Bu zaman xuliqanlıq etməkdə şübhəli bilinən 7 nəfər saxlanılıb.

**Mövzu üzrə söhbətləşdiyimiz ehtiyatda olan polkovnik, Azərbaycan Ordusunun sabiq korpus komandiri Şair Ramaldanov bildirdi ki,** Prezident İlham Əliyev işğal altındakı torpaqlar-



la bağlı fikirlərini dəfələrlə açıqlayıb və bütün yurd yerlərimizin geri qaytarılacağını deyib. Onun sözlərinə görə, biz bunun dəfələrlə şahidi olmuşuq və hazırda da şahidiyik: “Cənab İlham Əliyev çıxışlarının birində “Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi edириksə, dəqiqliklə edirik” – sözlərini deyib. Dörd kəndlə bağlı gedən proseslərə də bu kontekstdə baxmaq lazımdır. Azərbaycan kənləri ölkəmizə qaytarılacaq. İki yol var: Danışıqlar və güc yolu. Azərbaycan dövləti 4 kəndlə bağlı iradəsini ortaya qoyaraq delimitasiya və demarkasiya prosesinə şərti sərhədin məhz bu istiqamətdən başlanmasını təkid edib. Aprelin 19-da əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır. Prosesin məhz bu ərazidən başlanması məhz Azərbaycan dövlətinin hər bir qarış torpağımızla bağlı iradəsinin göstəricisidir”.

Ş.Ramaldanov qeyd etdi ki, kəndlərin qaytarılması Ermənistan iqtidarının daxildə yeni etirazlarla üzləşməsi deməkdir: “Biz müxalifətin bununla bağlı qeyri-sağlam mövqe tutduğunu görürük. Ancaq bütün hallarda rəsmi İrəvan məsələnin həllində israrlıdır. Biz hazırda bunu müşahidə edirik və bu, müsbət haldır”.

Müsahibimiz kəndlərin qaytarılmasının həm siyasi, həm də strateji baxımdan əhəmiyyətini bu sözlərlə ifadə etdi: “Siyasi baxımdan ona görə əhəmiyyətlidir ki, Ermənistan hakimiyyəti indiyədək qəbul etdiyi qərarların icrasından boyun qaçırırdı. İndi isə Ermənistan hakimiyyəti nəyəsə nail ola biləcək durumda olduğunu göstərir. Zənnimcə, bu da çox vacibdir. Əvvəla, ona görə ki, Bakı və İrəvanın ikilikdə, yəni vasitəçilərin iştirakı olmadan qərara gələ bildiyi bir daha öz təsdiqini tapır. Digər tərəfdən, Ermənistan hakimiyyətinin qəbul etdiyi qərarları həyata keçirməyə nail olması gələcək üçün müsbət siqnallar verir. Bunu sülh müqaviləsinin bağlanması istiqamətində də pozitiv addım kimi qiymətləndirmək olar”.

Ş.Ramaldanov Ermənistanın 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla Zəngəzur dəhlizinin açılmasına dair üzərinə öhdəlik götürdüyünü, ancaq bunu hələ də yerinə yetirmədiyini vurğulayıb: “Ola bilsin ki, bundan sonra Zəngəzur dəhlizi ilə bağlı da oxşar addım atılacaq. Ermənistan iqtidarından bizim hər zaman istəyimiz qəbul edilmiş qərarları icra etmək bacarığına malik olmasıdır. Kəndlərlə bağlı atılan addım bu baxımdan da vacibdir”.

Hərbi ekspert həmin ərazilərin minalandığını bildirdi: “Əlbəttə, o ərazilər minalanıb. Ora şərti sərhəddir. Şərti sərhəddə isə minalı sahələrin olması gözləniləndir. Ancaq BMT-nin müvafiq beynəlxalq konvensiyasının tələblərinə görə, silahlı münaqişə başa çatdıqdan sonra hər iki tərəf minalı sahələri təmizləyib bir-birinə təhvil verməlidir. Görünən odur ki, indi Ermənistan da bu tələbə əməl etməyə və ərazini Azərbaycana təmiz şəkildə verməyə çalışır. Bunu da müsbət addım kimi qiymətləndirmək olar”.

Müsahibimiz 4 kəndlə bağlı məsələnin müsbət həllini tapmasının delimitasiya prosesinin sürətlənməsinə gətirib çıxaracağını düşünür: “Anklav vəziyyətdə olan 4 kəndlə – Qazax rayonunun Yuxarı Əskipara, Sofulu, Barxudarlı və Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun Kərki kəndləri ilə bağlı məsələ delimitasiya prosesi zamanı müzakirə olunacaq. Ümumiyyətlə, bizim bu sahədə müsbət təcrübəmiz var. Biz Rusiya və Gürcüstanla uzun illərdir ki, bu prosesdə iştirak edirik. Yəni, komissiyalar bir neçə ildir ki, fəaliyyət göstərir. Əminəm ki, qalan 4 kəndlə bağlı məsələlər də Azərbaycanın maraqları çərçivəsində ədalətli şəkildə həll olunacaq və biz yaxın vaxtlarda onlarla bağlı müsbət xəbərlər eşidəcəyik”.

Onu da qeyd edək ki, etirazçıları Erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri Baqrat Qalstanyan qızışdırır. O, keçirilən mitinqdə çıxışı zamanı deyib ki, Voskepar ermənilər üçün “qələbənin simvolu” olmalıdır. Göründüyü kimi, yenə də kilsə, necə deyərlər, qabağa düşüb. Amma daha onların dövranı keçib. Dörd Azərbaycan kəndinin qaytarılması ilə bağlı proseslər artıq geridönməz xarakter alıb. Bu prosesə qarşı çıxmaq ancaq onların özlərinə zərər verə bilər.

***Səxavət HƏMİD***
***XQ***

Replika

# Parisdə Olimpiya antisanitariyası

## Öz paytaxtını təmiz saxlaya bilməyənlər Qafqaza süpürgə çəkmək istəyirlər

**Sizcə, öz evində səliqə-sahman yarada bilməyənin başqalarına, həm də uzaqdakılara öyüd-nəsihətə girişməsinə nə ad vermək olar? Yekəxanalıq, yoxsa “farmazonluq”? Bəlkə ikisini də birdən? Amma indi toxunacağımız mövzu üçün sonuncu təyin lap yerinə düşür. Avropadan Şərqə həmin fransızların dilindən ötürülmüş bu söz keçmişdə sənədlərin, zinət əşyalarının saxtalaşdırılması ilə məşğul olan fırıldaqçılara aid edilirmiş. Müasirlərimiz isə təkcə fırıldaqçılara deyil, həm də yaramazlara “farmazon” deyirlər.**



* * *

Fransa paytaxtı Paris XXXIII Yay Olimpiya Oyunlarına hazırlaşır. 2024-cü il iyulun sonları başlayıb avqustun əvvəlləri bitəcək planetin ən stajlı yarışlarının bu dəfə bir çox “ilk”lərlə yadda qalacağı şübhəsizdir. İdman dünyanın ən ali oyunlarına hazırlığın vəziyyəti və səviyyəsi bizə onu deməyə əsas verir ki, budəfəki tədbir Olimpiya tarixində qalmaqallı hadisələr və Emmanuel Makron Fransasının üzqaralığı ilə qalacaq. Bu proqnozu şərtləndirən kifayət qədər “obyektiv və subyektiv səbəblər” mövcuddur. “Obyektiv səbəblərin” sırasına Ukrayna hadisələri ilə bağlı Avropanı bürümüş sosial-iqtisadi və enerji böhranını, eləcə də həm də bu amillərə görə Fransa ilə diplomatik münasibətlərin pozulduğu bəzi ölkələrin ən nüfuzlu beynəlxalq idman yarışında iştirakının qeyri-mümkünlüyünü göstərmək olar. İdmanın da siyasi təzyiq alətinə çevrildiyi çağdaş zəmanəmizdə Fransa prezidenti Emmanuel Makron və Paris meri Ann İdalqo kimi “strateqlər” indi əl-ayağa düşüb Olimpiya qabağı üzləşdikləri çeşidli problemləri həll etməyin yollarını arayırlar.

Bu gün beynəlxalq miqyaslı yarışa Parisin hazır olub-olmaması mövzusu yerli medianın gündəmini zəbt edib. Yazılı və elektron KİV-dən həyəcan təbillərinin səsləri eşidilməkdədir. Onu deməliyik ki, bu həyəcan heç də əsassız deyil.

Bir müddət bundan öncə Fransanın “YouGov” araşdırma şirkətinin “Le HuffPost” saytının sifarişi ilə 1001 fransız arasında keçirdiyi sorğunun nəticələri heyrət doğurur. Məlum olub ki, fransızların yarıdan çoxu ölkələrinin ev sahibliyi edəcəyi Yay Olimpiya Oyunlarına hazır olmadığını düşünür. İştirakçılara “Sizcə, Fransa iyun–avqust aylarında keçiriləcək Olimpiya oyunlarına evsahibliyi etməyə hazırdırmı?” – sualı verilib. Respondentlərin cəmi 9 faizi Olimpiadaya hazırlığın normal getdiyini, 23 faizi olduqca yaxşı hazırlaşdığını, 55 faizi isə paytaxt Parisin bu yarışa hazır olmadığını bildirib.

* * *

Olimpiya oyunlarına 90 gün qalmış çeşidli problemlərlə üzləşən Parisin meri Ann İdalqo ictimai nəqliyyat və küçədəki evsizlərin problemini hələ də çözə bilmədiklərini “France 2” telekanalının efirində etiraf edib. Problemlər bununla qurtarmır. Olimpiadaya hazırlıq üzrə təşkilat komitəsi paytaxtın sanitariya vəziyyətinin qeyri-qənaətbəxş olduğunu və bunun üçün təxirəsalınmaz tədbirlərin görülməsinin vacibliyini hökumətin və meriyanın nəzərinə çatdırıb. Ümumiyyətlə, Yay Olimpiya Oyunlarının Təşkilat Komitəsi üzləşdiyi çətinliklərin çeşidini “sərgiləməklə” məşğuldur. Komitə üzvləri Parisin havasını korlamamaq üçün oyunların keçirildiyi müddətdə kondisionerdən imtina etməyi düşünürlər. Təsəvvür edirsiniz? Havanın hərarətinin temperatur rekordlarını aşan Avropanın göbəyində – Fransada yayın qızmarında otellərdə kondisionerlər işləmir. Digər bir problem isə Sena çayının suyunun üzgüçülük yarışları üçün yararsız olmasıdır. İndi yuxudan ayılıb xatırlayıblar ki, Sena çayında üzmək hələ keçən əsrin ortalarından qadağan edilib! Yerli media keçən il büdcədən bu çayın təmizlənməsinə ayrılan 3 milyard avronun hara “axıb getdiyi” ilə bağlı araşdırmalara başlayıb. Olimpiadanın təşkilat komitəsi isə Sena çayındakı suyun sağlamlıq üçün təhlükəli olduğunu nəzərə alaraq yarışların bir hissəsini ləğv etmək barədə qərar verib. Yəni, bütün növ su idmanı yarışları real təhlükə ilə üzləşib. Problemdən hali olan Fransa prezidenti Emmanuel Makron hətta bu məsələdə də “ənənəvi” avantürasından əl çəkmək istəməyib və suyun keyfiyyəti ilə bağlı rəsmilərin, ekspertlərin açıqlamalarını yanlış adlandırıb. Deyib ki, Paris Yay Olimpiya Oyunlarında üzgüçülük üzrə yarışların keçiriləcəyi Sena çayında “şəxsən özü üzməyə hazırdır”. Bu da sizə “subyektiv” səbəblərdən biri...

* * *

“Böyük güclərin” dünyanın yeni xəritəsini özlərinin maraqlarına uyğun cızmaq uğrunda yarışdığı hazırkı mürəkkəb beynəlxalq durumda idmanın Olimpiya hərəkatının minillik ənənələrinin arxa plana keçməsi heç də xoşagələn hal deyil. Yəqin bu amili anlamağa Fransa prezidenti və Paris merinin ağlı çatır. Amma keçən ilin yayında Qarabağa “humanitar yardım karvanı”nın “istedadlı” təşkilatçıları sayılan prezident və merin hazırda “ac hayların xilası” yox, paytaxtda kriminogen durumu nizamlamaq kimi daha ciddi qayğıları var. Əslində, Parisin kriminal vəziyyətlə bağlı həmişə problemi olub. Oyunların təşkilat komitəsi vəziyyəti yumşaltmağın yolunu evsizləri, miqrantları, fahişələri, eləcə də cinayətkar elementləri paytaxtdan əyalətlərə qovmaqda tapıb.

İndi də gələk sözümüzün “mustafası”nın üzərinə. Əgər rəsmi Paris gecə-gündüz insan haqlarından dəm vurmaq, “ermənilərin Qarabağdan zorla çıxarılması” kimi yaramaz işlərlə məşğul olmaq əvəzinə, öz evində qayda-qanun yaratmış olsaydı, indiki durumla üzləşməzdi. İnsan hüquqlarının “keşikçisi” miqrantları yaşadığı evlərdən, məhəllələrdən hansı beynəlxalq qaydalara söykənərək didərgin salacaq? Biz hələ onu demirik ki, keçən ilin dekabrında Eyfel qülləsinin düz böyründə Almaniyadan olan sıravi turistin qətlinə mane ola bilməyən Fransanın hüquq-mühafizə sistemi Olimpiya yarışlarını seyr etmək üçün paytaxta axışacaq on minlərlə əcnəbinin təhlükəsizliyini necə qoruyacaq?

2024-cü il Yay Olimpiya Oyunlarının təşkilatçılarını və hamıdan çox Fransa prezidentini qarşıda çox böyük imtahan gözləyir. Əgər onlar ilkin “ictimai test”dən keçə bilməsələr, ümumiyyətlə, Olimpiadanı keçirmək hüququndan məhrum edilə bilərlər. Bu halda ayrı-ayrı ölkələri, hətta bütöv xalqları arzuolunan və arzuolunmazlara bölən Emmanuel Makron Fransasının nəinki meri və prezidenti, bütövlükdə, siyasi isteblişmenti hakimiyyəti və eyni zamanda, siyasi səhnəni tərk etmək məcburiyyətində qalacaq. Bax onda siz farmazonlar üçün əsl “Yuryev günü” gələcək, müsyölər!

COP29-un Azərbaycanda keçirilməsinə qarşı çıxan, bu məqsədlə məsuliyyətsiz və təxribatçı bəyanatlar verən Emmanuel Makrona, eləcə də Parisin haypərəst meri Ann İdalqoya məsləhət görərdik ki, başqalarının gözündə tük axtarışına çıxmazdan öncə paytaxtın küçələrini zibil qalaqları və terrorçu-quldurlardan, Sena çayını isə zəhərli tullantılardan təmizləsinlər.

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycan Orta Dəhlizin ortasında birləşdirici ölkədir

**Maliyyə naziri Samir Şərifov ABŞ-nin paytaxtı Vaşinqton şəhərində keçirilən Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı (DB) Qrupunun yaz toplantısı çərçivəsində təşkil olunan “Orta Dəhlizin ticarət və logistika potensialının reallaşdırılması” mövzusunda tədbirdə iştirak edib.**

Maliyyə Nazirliyinin məlumatına görə, DB-nin Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Antonella Bassaninin sədrliyi ilə keçən toplantıda adıçəkilən beynəlxalq maliyyə qurumu tərəfindən aparılan təhlilə görə, Orta Dəhlizin reallaşdırılmasının mümkün olduğu və onun əsasən Çin və Mərkəzi Asiya ölkələri üçün xüsusi əhəmiyyət kəsb etdiyi bildirilib. Daha sonra dəhlizin nəqliyyat-tranzit potensialının artırılması üçün qarşıda duran çağırışlar və onların həlli ilə bağlı DB-nin təklifləri ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə maliyyə naziri Samir Şərifov Azərbaycanın Orta Dəhlizin mühüm tərəfdaşlarından biri olduğunu vurğulayaraq son illərdə Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafı, ticarət və logistika potensialının genişləndirilməsi istiqamətində görülən işlərdən danışıb. Nazir qeyd edib ki, Azərbaycan Orta Dəhlizin reallaşdırılması üçün öz üzərinə düşən işləri tam yerinə yetirib. O, Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin istifadəyə verilməsi və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma gücünün artırılması, eləcə də respublikada nəqliyyat və logistika infrastrukturunun yaxşılaşdırılması ilə bağlı görülən digər işləri də diqqətə çatdırıb. S.Şərifov, həmçinin Zəngəzur Dəhlizinin də Orta Dəhliz boyunca yeni nəqliyyat arteriyasının açılması baxımından xüsusi önəm daşıdığını və region ölkələrinin tranzit potensialının tam şəkildə reallaşdırılmasına xidmət göstərəcəyini deyib.

Göründüyü kimi, dünyada müşahidə olunan gərginliklər fonunda təchizat zəncirlərinin qırılması təhlükəsi bu nəqliyyat marşrutu– Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi də tanınan Orta Dəhlizin fəaliyyəti ABŞ-də də diqqətlə izlənilir. Yeri gəlmişkən, Çini Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, daha sonra isə Türkiyə və ya Qara dəniz vasitəsilə Avropaya birləşdirən bu multimodal şəbəkə Rusiya və Ukrayna ərazisindən keçən ənənəvi marşrutların bağlanması üzündən alternativ, eyni zamanda, dəniz nəqliyyatı ilə müqayisədə daha qısa və təhlükəsiz marşrut olaraq yüksək dəyərləndirilir.

Vaşinqtonda keçirilən “Orta Dəhlizin ticarət və logistika potensialının reallaşdırılması” mövzusunda toplantıda da vurğuladığımız bu məqam xüsusilə diqqətdə saxlanılıb. Tədbirdə Avropa Yenidənqurma və İnkişaf Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, həmçinin DB kimi nüfuzlu qurumlar tərəfindən aparılan son araşdırmalara əsasən, Orta Dəhlizin bir sıra üstünlüklərlə diqqət çəkdiyi xatırladılıb.

Hazırda Orta Dəhlizin təhlükəsiz marşrut olması onun nisbətən sabit ölkələrdən keçməsi ilə əlaqələndirilir, digər tərəfdən isə bu infrastrukturla yüklərin Çindən Avropaya daşınma müddətinin dəniz daşımaları ilə müqayisədə daha az olması baxımından mühüm önəm daşıdığı bildirilir. Ekspertlər tərəfindən quru yollarının dəniz yolları ilə müqayisədə daha bahalı olmasına, yanacaq qiymətlərinin də davamlı artmasına və təchizat zəncirinin pozulmasına baxmayaraq Orta Dəhlizin indiki şəraitdə səmərəliliyi daha çox vurğulanır.

Orta Dəhlizin inkişaf potensialından danışarkən iki mühüm məqama da toxunmaq istərdik. Əvvəla Beynəlxalq Valyuta Fondu sözügedən marşrutun səmərəliliyini yüksətmək üçün bir sıra layihələrin reallaşdırılmasına zəruri ehtiyac görür. Məsələn, adıçəkilən beynəlxalq maliyyə qurumu infrastrukturda gecikmələri azaltmaq məqsədilə sərhəd-keçid prosedurlarının optimallaşdırılması, nəqliyyat sənədlərinin rəqəmsallaşdırılması və bu dəhlizin əhatə etdiyi ölkələr üzrə tənzimləmə, icazə və tariflərin uyğunlaşdırılması üçün avtomatlaşdırmanı qarşıya təxirəsalınmaz vəzifə kimi qoyur. Eyni zamanda, Azərbaycanın bu istiqamətdə gerçəkləşdirdiyi layihələri də yüksək qiymətləndirir.




Ölkəmizin Orta Dəhlizin inkişafı istiqamətində reallaşdırdığı tədbirlərdən danışarkən isə, ilk növbədə, 2022-ci ildə Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkiyənin sözügedən marşrutun potensialının tam hərəkətə gətirilməsi məqsədilə imzalanan və 2022-2027-ci illəri əhatə edən Yol Xəritəsinin önəmi qeyd edilməlidir.

Azərbaycan Orta Dəhlizin inkişafı istiqamətində hazırda dəniz, dəmir, avtomobil yolları, hava nəqliyyatı ilə bağlı genişmiqyaslı layihələr həyata keçirir. Bu isə həmin Yol Xəritəsinə, eləcə də özünün müəyyənləşdirdiyi uzunmüddətli strategiyaya sadiqliyinin ifadəsi olaraq respublikamızın nəqliyyat və logistika dəhlizinə çevrilməsi yolunda atdığı inamlı addımların təsdiqidir.

Qeyd edək ki, Azərbaycanda son 20 ildə 20 min kilometrdən çox avtomobil, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. 2017-ci ildə istifadəyə verilən və Orta Dəhliz vasitəsilə daşımalarda mühüm önəm daşıyan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılması üçün əlavə infrastruktur tədbirlərinin hazırlanmasına başlanılıb. Bundan əlavə, ölkəmizdə əsas dəmir və avtomobil yolları şəbəkələrinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini artıracaq növbəti mərhələnin tikintisi planlaşdırılıb.

Azərbaycanın beynəlxalq ticarət bazarında rolunun gücləndirilməsi məqsədilə, həmçinin Ələt Azad İqtisadi Zonası (ƏAİZ) yaradılıb. Bu iqtisadi zonanın yaradılmasında əsas məqsəd yüksək gəlirli istehsal, ixrac fəaliyyəti və innovativ texnologiyalarla investorların cəlb edilməsi, iqtisadiyyatın dayanıqlı inkişafı və yeni iş yerlərinin yaradılmasına töhfə vermək olub.

Orta Dəhlizin səmərəli fəaliyyəti həm də güclü nəqliyyat infrastrukturu ilə bağlıdır. Ölkəmizdə bu istiqamətdə də mühüm layihələr həyata keçirilir. Hazırda Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin layihə hissəsində müvafiq işlər aparılır. Tikinti işləri başa çatdıqdan sonra dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artacağı gözlənilir.

Orta Dəhlizin tərkib hissəsi olacaq və Azərbaycanı qardaş Türkiyə ilə birləşdirəcək Qars-Naxçıvan dəmir yolu xəttinin tikintisi üzrə işlər də uğurla aparılır. Qeyd edək ki, nəzərdə tutulan dəmir yolu xəttinin uzunluğunun 224 kilometr təşkil edəcəyi planlaşdırılır. Türkiyə tərəfindən isə bu dəmir yolu xəttinin 5 il ərzində istifadəyə verilməsi nəzərdə tutulur.

Qarabağ bölgəsində işğalçıdan təmizlənən ərazilərdə Horadiz–Ağbənd dəmir və avtomobil yollarında tikinti işləri də davam etdirilir, sözügedən layihənin yaxın vaxtlarda başa çatdırılması gözlənilir. Horadiz–Ağbənd dəmir yolu xəttinin Qars–Naxçıvan (Osmanlı–Horadiz–Ağbənd–Naxçıvan–Qars) dəmir yolu ilə birləşdirilərək Azərbaycanın tranzit qovşağının formalaşmasında mühüm rol oynayacağı bildirilir.

Beləliklə, Orta Dəhliz Şərqlə Qərbi birləşdirən mühüm nəqliyyat arteriyasına çevrilmək potensialına malikdir. Həmçinin geosiyasi qeyri-sabitlik və təchizat zəncirlərinin pozulduğu bir şəraitdə ənənəvi marşrutlara uyğun əhəmiyyətli alternativ rola malikdir. Bütün bunlar isə infrastrukturun regionda inkişaf və sabitliyə töhfə verə biləcək gücə malik olduğunu deməyə əsas verir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Azərbaycan–Çin: Şərqdən Qərbə açılan əməkdaşlıq dəhlizi

**Dünən Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə “Azərbaycan-Çin münasibətlərinin yenidən qiymətləndirilməsi: İrəliyə doğru yol” mövzusunda konfrans keçirilib.**



“Kəmər və Yol” təşəbbüsü ilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu arasında potensial sinerji” panelinə moderatorluq edən Azərbaycan Dəmir Yolları QSC-nin Kommunikasiya departamentinin rəhbəri Aybəniz İsmayılova deyib ki, Azərbaycan ərazilərini işğaldan azad etdikdən sonra Çinlə əməkdaşlıq üçün platforma yaranıb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəqliyyat siyasəti şöbəsinin müdiri Fariz Əliyev, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının baş əməliyyat inzibatçısı Yucin Si, Çin Beynəlxalq Araşdırmalar İnstitutunun Avropa-Mərkəzi Asiya Tədqiqatları Departamentinin elmi işçisi Kanq Cie, Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev beynəlxalq nəqliyyat dəhlişlərində ölkələrimizin əməkdaşlığının önəmindən danışıblar.

“Azərbaycan və Çin arasında qarşılıqlı fayda naminə əməkdaşlıq: iqtisadi, mədəni və insanlar arasında mübadilələr” panelində Xarici İşlər Nazirliyinin Asiya idarəsinin rəisi Ramil Rzayev Azərbaycanla Çin arasında 1992-ci ildən qurulan münasibətlərin yeni fazaya daxil olduğunu və əlaqələrin xalqlarımızın maraqları naminə inkişaf etdiyini diqqətə çatdırıb. Azərbaycan Dillər Universitetinin Konfutsi İnstitutunun direktoru Rafik Abbasov, Bakı Dövlət Universitetinin Konfutsi İnstitutunun direktoru Vanq Xaoçianq və digər çinli qonaqlar Çin-Azərbaycan münasibətlərinin strateji mərhələdən planlı şəkildə gələcəyə doğru addımladığını bildiriblər.

“Qlobal və regional dinamika: Azərbaycan və Çindən baxış” panelinə moderatorluq edən ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun Siyasi araşdırmalar, təhlil və nəşrlər üzrə direktoru Damyaan Krnyeviç Miskoviç qeyd edib ki, hər iki dövlətin əlaqələrində suverenlik və dövlətçilik prinsipləri əsas götürülür.

Milli Məclisin deputatı, Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvü Soltan Məmmədov, Çin Sosial Elmlər Akademiyası Rusiya Şərqi Avropa və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru Sun Cuanqcı, Milli Məclisin deputatı, Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Elşad Mirbəşiroğlu, Çin Beynəlxalq Araşdırmalar İnstitutunun Avropa-Mərkəzi Asiya Tədqiqatları Departamentinin direktoru Li Çiquo, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Cavid Vəliyev, Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun Rusiya və Mərkəzi Asiya Araşdırmaları Mərkəzinin direktoru Çianq Siaoyun Azərbaycan–Çin əməkdaşlığınındurumu və perspektivləri ilə bağlı aktual mövzularda çıxış ediblər.

**XQ**

# Lənkəranda çay sahələri 600 hektara çatacaq

**Son illər Azərbaycanın ən böyük çayçılıq rayonu olan Lənkəranda bu ənənəvi əkinçilik sahəsinə maraq yenidən artır. Dövlət dəstəyindən ruhlanan fermerlər yaxın illərdə çay plantasiyalarını genişləndirilməsini qarşılarına məqsəd qoyublar. Bu sahənin inkişafı, yüksək və keyfiyyətli məhsul əldə olunması üçün vacib amillərdən biri də sertifikatlı toxumdur. Məhz buna görə də təsərrüfat sahibləri bu amilə xüsusi diqqət yetirirlər.**

Rayonun Osakücə kəndində 50 hektar sahədə salınan plantasiyada yüksək məhsuldarlığı ilə seçilən çay sortları əkilib. Hər il tonlarla məhsul tədarük edən təsərrüfat artıq özü-özünü toxumla da təmin edir. Çayçılıq təsərrüfatının nümayəndəsi Mirağa Həsənov bildirib ki, bu sahələrin 38 hektarı artıq məhsula düşüb. Digər 12 hektar sahə isə qarşıdakı illərdə məhsul verəcək. Bundan əlavə, gələcəkdə daha 25 hektar sahədə çay əkini planlaşdırılır. Artıq bunun üçün indidən hazırlıq görülür, toxumlar əkilir.



Qeyd edək ki, hazırda rayonda ümumi çay sahələri 552 hektar təşkil edir. Yaxın illərdə isə daha 48 hektardan artıq sahədə çay plantasiyaları salınacaq.

# BP-nin ölkəmizdə su layihələri

**Dünən Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (ADSEA) ilə BP arasında icmalarda su təchizatı ilə əlaqədar vəziyyəti yaxşılaşdırmağa kömək edəcək potensial su layihələrinin müəyyən edilməsi, seçilməsi və həyata keçirilməsi istiqamətində birgə işləmək üçün əməkdaşlıq müqaviləsi imzalanıb. Bu barədə “XQ”-yə “BP-Azərbaycan” şirkətindən məlumat verilib.**



Bildirilib ki, icmalarda su təchizatı ilə əlaqədar vəziyyəti yaxşılaşdırmağı nəzərdə tutan əməkdaşlıq çərçivəsində ilkin olaraq üç potensial layihənin reallaşdırılması nəzərdə tutulur. Göyçay rayonunda yeni su təchizatı sisteminin yaradılması ilə bağlı birinci layihədə məqsəd sel sularının toplanması, çökdürülməsi və təmizlənməsindən ibarətdir. Layihə çərçivəsində təmizlənmiş sudan torpaqların suvarılması üçün istifadə ediləcək. Yeni su təchizatı sisteminin ildə 500 min kubmetrdən çox su təmizləmə gücündə olacağı nəzərdə tutulur. Bu isə rayon ərazisində 100 hektara qədər ərazini suvarmağa imkan verəcək.

İkinci layihə Tovuz rayonunda iki yeraltı su təchizatı mənbəyinin – kəhrizin bərpa edilməsi məqsədini daşıyır. Bərpa edildikdən sonra bu iki kəhrizdən il ərzində 2,5 milyon kubmetrə qədər şirin su əldə ediləcək. Bu da öz növbəsində 15 min nəfərə yaxın icma üzvünün məişət istehlakı və torpaqların suvarılması ilə əlaqədar ehtiyaclarını təmin etməyə imkan yaradacaq.

Digər bir layihə isə Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy və Samux rayonlarını əhatə edəcək. Layihə çərçivəsində adı çəkilən rayonlarda içməli su, suvarma və sanitariya təyinatlı 25 su sistemi yaradılacaq. Bundan da 20-yə yaxın kəndin 25 min nəfər sakini faydalanacaq.

İmzalanma mərasimində ADSEA sədrinin müşaviri Əsəd Şirinov deyib ki, ölkəmizdə həyata keçirilən “yaşıl” siyasətin əsas hədəflərindən biri də dayanıqlı su ehtiyatlarının formalaşdırılması və sudan səmərəli istifadənin təmin edilməsidir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq hazırda bu sahədə genişmiqyaslı layihələrin həyata keçirildiyini diqqətə çatdıran qurum rəsmisi bildirib ki, Azərbaycan beynəlxalq aləmdə iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizədə etibarlı və məsuliyyətli tərəfdaş kimi qəbul edilir. Onun sözlərinə görə, ekosistemin bərpası, ətraf mühitin sağlamlaşdırılması, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər Azərbaycanın “yaşıl” gələcəyə doğru addımlar atmasının göstəricisidir.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: “Şirin su çatışmazlığı problemi ilə üzləşən kənd icmalarına kömək etmək istiqamətində Dövlət Su Ehtiyatları Agentliyi ilə səylərimizi bir araya gətirməkdən məmnunuq. Diqqətimizi xüsusilə kifayət qədər şirin suyun olmadığı və ya təhlükəsiz su təchizatı mənbələrinin əlçatan olmadığı ərazilərə yönəldəcəyik. Ümid edirik ki, əməkdaşlığımız və birgə layihələrimiz minlərlə insanın məişət, sağlamlıq və sanitariya, eləcə də kənd təsərrüfatı istehlakı üçün suya olan tələbatını təmin etməyə kömək edəcək”.

Xatırladaq ki, iki il müddətinə nəzərdə tutulmuş layihələrin ümumi dəyəri 2,6 milyon ABŞ dollarından artıqdır.

Yeri gəlmişkən, BP şirkəti Azərbaycanda fəaliyyət göstərdiyi ötən 32 il ərzində neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısı kimi çıxış edib. Şirkət bu layihələrin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirib. Ötən mülddətdə BP öz tərəfdaşları ilə birlikdə ölkədə icraçısı olduğu layihələrə, təxminən, 84 milyard dollar sərmayə yönəldib. Şirkət Azərbaycanda ən çox töhfə verə biləcəyinə inandığı sahələrə sərmayə yönəlməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyini götürüb.

Britaniya nəhənginin ölkəmizdə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirməklə onların həyatını əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa mühüm töhfələr verib. Belə ki, şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib. Fəaliyyətə başladığı vaxtdan indiyədək BP şirkəti və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə, ümumilikdə, 110 milyon ABŞ dollarından çox vəsait xərcləyib.

Qeyd edək ki, “BP-Azərbaycan” şirkətində təxminən 2353 yerli vətəndaş çalışır ki, bu da qurumun ixtisaslı işçi heyətinin 90 faizindən çoxunu təşkil edir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# İlk rübdə 30 yeni dövlət standartı

**Cari ilin yanvar–mart aylarnda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən 30 yeni dövlət standartı qəbul edilib.**

Adıçəkilən dövlət xidmətinin məlumatına görə, həmin dövlət standartlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 dəfəyədək artıb.

Yeni standartların qəbulu bizneslərin inkişafına müsbət töhfə verir. Standartların tətbiqi istehsal olunan malların keyfiyyətinin və məhsuldarlığın artmasına müsbət təsir göstərir, biznes fəaliyyətini stimullaşdırır, innovasiyaları təşviq edir, daxili və xarici ticarətin inkişafını dəstəkləyir.

***XQ***



# Azərbaycan qlobal hədəflər çevrəsində

**Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Naxçıvan Muxtar Respublikası əlverişli günəş radiasiyasına və yüksək bərpaolunan enerji potensialına malikdir. Qədim diyarda ümumi gücü 39 MVt olan günəş elektrik stansiyaları fəaliyyət göstərir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2023–2024-cü illər üzrə Tədbirlər Planına əsasən, burada "Yaşıl enerji zonası"nın yaradılması nəzərdə tutulur, eyni zamanda külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin xarici investisiya hesabına işə salınması və onun ən azı 1000 MVt-nın Türkiyə və Avropa istiqamətində ixrac olunması qarşıda əsas vəzifə kimi qoyulur.**



Mütəxəssislər bildirirlər ki, hazırda Fransanın "TotalEnergies" şirkəti ilə 250 MVt gücündə və "Nobel Energy" şirkəti ilə 400 MVt gücündə günəş elektrik stansiyalarının inşası və istehsal ediləcək elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlıq edilir. Eyni zamanda Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi ilə "A-Z Czech Engineering" MMC arasında imzalanan bərpaolunan enerji mənbələri üzrə layihələrin icrası, həmçinin Naxçıvan Muxtar Respublikasında gücü 500 MVt-a qədər olan günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin Türkiyəyə ixracı üçün ötürücü şəbəkənin qurulması imkanlarının araşdırılması üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu çərçivəsində müəyyən layihələr həyata keçirilir.

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Bərpa olunan enerji mənbələri ərazilərinin inkişafı şöbəsinin müdiri Fəqan Abdurəhmanovun sözlərinə görə, hazırda "yaşıl enerji" mənbələri üzrə yüksək potensiala malik olan Azərbaycanda bu ehtiyatdan istifadə istiqamətində mühüm tədbirlər reallaşdırılır. 2020-ci ildən Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanını "ACWA Power", Böyük Britaniyanın BP, Avstraliyanın "Fortescue Future Industries", Çinin "China Gezhouba Group Overseas Investment", "Total Energies", ABŞ-ın "Nobel Energy", Çex Pespublikasının "A-Z Czech Engineering" və Türkiyənin "Baltech" şirkətləri ilə bərpaolunan enerji layihələri ilə bağlı əməkdaşlıq uğurla davam etdirilir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin 5-ci bəndində ("Təmiz ətraf mühit" və "Yaşıl artım ölkəsi") iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində layihələrin gerçəkləşdirilməsi, eləcə də ölkəmizdə "yaşıl enerji" məkanı prinsiplərinə əsaslanan bərpaolunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapıb. Ölkə başçısının müvafiq sərəncamı ilə iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Energetika Nazirliyi tərəfindən 2030-cu ilə qədər respublikanın ümumi enerji balansında bərpaolunan enerji üzrə qoyuluş gücü payının 30 faizə çatdırılması isə əsas hədəf kimi müəyyənləşdirilib.

F. Abdurəhmanov qeyd edib ki, 2023-cü ildə bərpaolunan enerji sahəsində ən əlamətdar hadisə oktyabrın 26-da "Masdar" şirkəti tərəfindən inşa olunmuş 230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyasının (GES) istismara verilməsi olub. Bu GES Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Bundan əlavə "Masdar" şirkəti tərəfindən Neftçalanın Bankə qəsəbəsində 315 MVt-lıq, Biləsuvarda 445 MVt-lıq günəş elektrik stansiyaları və Abşeron–Qaradağ rayonları ərazisində 240 MVt-lıq külək elektrik stansiyası layihələrinin icrası ilə bağlı işlər davam etdirilir ki, bu da 1 QVt gücündə bərpaolunan enerji mənbəyinin istismara verilməsi deməkdir.

Mütəxəssislər tərəfindən Azərbaycanın dənizdə külək enerjisi üzrə də yüksək potensiala malik olması qeyd edilir. Xəzər dənizinin respublikamıza məxsus hissəsində külək enerjisinin ümumi texniki potensialı 157 QVt (dayazsulu hövzələrdə 35 QVt və dərinsulu hövzələrdə 122 QVt) səviyyəsində qiymətləndirilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 2019-cu il 29 may tarixli Sərəncamı ilə verilmiş tapşırıqların icrasının reallaşdırılması məqsədilə ölkəmizdə bərpaolunan enerji sahəsində yeni istehsal güclərinin yaradılması və sahəyə özəl, o cümlədən xarici investisiyaların cəlbi istiqamətində Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası ilə hazırlanan "Azərbaycanda dənizdə külək enerjisinin inkişafı üzrə Yol Xəritəsi" də sözügedən sahənin inkişafı baxımından əhəmiyyətli sənəd kimi dəyərləndirilir.

Xatırladaq ki, dənizdə külək enerjisi potensialından istifadə çərçivəsində "Masdar" şirkəti ilə quruda və dənizdə ilkin mərhələdə 4 QVt gücündə, daha sonra isə 6 QVt gücündə günəş və külək enerjisi layihələrinin həyata keçirilməsi ilə bağlı razılaşma əldə olunub. Əlavə olaraq "Fortescue Future Industries" şirkəti ilə imzalanmış Azərbaycanda bərpaolunan enerji layihələri və "yaşıl hidrogen"in potensialının öyrənilməsi və inkişafı üzrə birgə əməkdaşlığa dair Çərçivə Müqaviləsində ümumi gücü 12 QVt-dək layihələrin araşdırılması və reallaşdırılmasını nəzərdə tutulub.

**V.BAYRAMOV**
**XQ**

**Bu il Azərbaycanda ümumi gücü 1300 meqavat olan 5 günəş-külək stansiyasının inşasına başlanacaq. Bunu energetika naziri Pərviz Şahbazov Nyu-Yorkda BMT Baş Assambleyasının "Dayanıqlılıq Həftəsi" çərçivəsində "Enerji əlçatanlığında boşluğun aradan qaldırılması və karbonsuz enerji sistemlərinə keçid" mövzusunda keçirilən sessiyadakı çıxışı zamanı bildirib.**

# Yeni günəş-külək stansiyaları



Nazir Avropa İttifaqı tərəfindən etibarlı pan-Avropa təchizatçısı hesab edilən Azərbaycanın hazırda "yaşıl enerji"yə keçidi sürətləndirən təşəbbüslərə liderlik etdiyini, "Qlobal Metan Vədi"nə qoşulmaqla və "Enerji Effektivliyi Fondu"nu yaratmaqla iqlim dəyişikliyinə qarşı mübarizəyə dəstək verdiyini qeyd edib. Bu sahədə qabaqcıl ölkə olmağı hədəfləyən Azərbaycanın beynəlxalq enerji şirkətləri ilə 28 qiqavat gücündə "yaşıl enerji", hidrogen və "yaşıl ammonyak" layihələrinin 2037-ci ilədək mərhələli icrası üzrə əməkdaşlıq etdiyi, hazırda elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payını 33 faizə yüksəldəcək 2 qiqavatlıq "yaşıl enerji" güclərinin enerji sisteminə inteqrasiyasını həyata keçirdiyi bildirilib.

İlkin mərhələdə 5 qiqavat "yaşıl elektrik", "yaşıl qaz"ların ixracı üçün "Xəzər–Qara dəniz–Avropa", "Azərbaycan–Türkiyə–Avropa", həmçinin Qazaxıstan və Özbəkistandan "yaşıl enerji"ni nəql edəcək "Azərbaycan–Mərkəzi Asiya–Avropa" "yaşıl enerji" dəhlizlərinin yaradılması üzrə əhəmiyyətli addımlar atıldığını diqqətə çatdıran Pərviz Şahbazov deyib ki, Azərbaycanın bərpaolunan enerjinin inkişafına BMT-nin "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi" ilə bərabər, postmünaqişə quruculuğu kontekstində yanaşması azad edilmiş ərazilərimizdə "yaşıl enerji zona"larının yaradılmasına da təkan verib.

**XQ**



# Qarabağ bərpaolunan enerjidən güc alır

**Dünyanın prioritet elan etdiyi "yaşıl keçid" platformasının fəal iştirakçılarından birinə çevrilmiş Azərbaycan bərpaolunan enerji mənbələri ilə zəngindir. Bu baxımdan işğaldan azad olunmuş ərazilərimizin günəş və külək enerjisi potensialı olduqca yüksək qiymətləndirilir. Mütəxəssislərin son hesablamalarına görə, sözügedən ərazidə 10 qiqavat həcmində günəş və külək enerjisi potensialı mövcuddur. Elə xarici investorların Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl" sərvətinə marağın getdikcə artması da bundan qaynaqlanır. Ötən müddətdə bu sahədə xarici investisiyalı müəssisələrin yaradılması ilə bağlı müəyyən addımlar da atılıb.**

Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisini "yaşıl enerji" zonası elan edib. Artıq sürətli quruculuq meydanına çevrilmiş bu ərazilərin bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi istiqamətində də konkret tədbirlər həyata keçirilir, xarici tərəfdaşlarla sazişlər imzalanır, yeni layihələr işlənib hazırlanır. Dövlət başçısının "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli sərəncamına uyğun olaraq Nazirlər Kabineti "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"nı təsdiq edib. Sözügedən sənədə uyğun olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl" texnologiyaların və enerji səmərəliliyin tətbiqi ilə yanaşı, bir çox ümumi enerji infrastrukturuna və sahənin inkişafına müsbət təsir edəcək tədbirlər nəzərdə tutulub. Bütövlükdə isə, hökumətin bununla bağlı hazırladığı konsepsiyaya əsasən, həmin ərazilərdə istehlak olunan elektrik enerjisi yalnız bərpaolunan enerji mənbələrindən alınacaq.

Eyni zamanda tədbirlər planındakı öhdəliklər, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması məsələsi ilə bağlı qarşıya qoyulmuş vəzifələrin müzakirəsi məqsədilə Nazirlər Kabinetinin 2022-ci il 3 avqust tarixli sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl" texnologiyaların və enerji səmərəliliyi tələblərinin tətbiqi ilə bağlı əlaqələndirmə və monitorinq üzrə işçi qrup yaradılıb. İşçi Qrupun iclasında qəbul edilmiş qərara uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə aidiyyəti qurum üzvlərinin iştirakı ilə monitorinqlər həyata keçirilir. Monitorinqlərin nəticələri, eləcə də görülmüş və icrası nəzərdə tutulan işlər qurumun iclaslarında mütəmadi müzakirə olunur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpaolunan enerji mənbələri ilə zəngin olduğunu vurğulayan şöbə müdirinin sözlərinə görə, bu ərazilərin yerləşdiyi əlverişli coğrafi mövqe həmin potensialdan kifayət qədər istifadə etməyə şərait yaradır. "İlkin qiymətləndirmələrə əsasən, işğaldan azad edilmiş ərazilərdə 7200 meqavatdan çox günəş və 2 min meqavatadək külək enerjisi istifadə potensial mövcuddur", – deyə o əlavə edib. C. Əliyev deyib ki, günəş enerjisi potensialı Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində cəmləşsə də, dağlıq rayonlar olan Laçın və Kəlbəcər rayonları isə daha çox külək enerjisi ilə zəngindir.

Qurum rəsmisi işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən sənaye miqyaslı layihələrlə bağlı da məlumat verib. O deyib ki, Böyük Britaniyanın BP şirkəti ilə imzalanmış İcra Müqaviləsinə əsasən Cəbrayıl rayonu ərazisində 240 meqavat gücündə "Şəfəq" Günəş Elektrik Stansiyası layihəsinin tikintisi üzrə işlər davam etdirilir. Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə günəş elektrik stansiyalarının tikintisinə dair "China Gezhouba Group Overseas Investment" və "Nobel Energy" şirkətləri ilə də müqavilələr imzalanıb.

"Hazırda "yaşıl enerji zonası"nın yaradılması çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, enerji səmərəliliyi tədbirləri, elektrik nəqliyyat vasitələrindən istifadə, tikililərin damlarında "yaşıl enerji" qurğularının (xüsusən də günəş panellərinin) quraşdırılması, həmçinin küçələrin və yolların işıqlandırılmasında günəş enerjisi əsaslı LED lampalardan istifadə, istilik, soyutma və isti su təchizatında bərpaolunan enerji texnologiyalarından istifadə, ağıllı enerji idarəetmə texnologiyalarının tətbiqi, tullantıların enerji məqsədli idarə edilməsi kimi "yaşıl" texnologiyaların tətbiqinin həyata keçirilməsi istiqamətində işlər davam etdirilir", – deyə şöbə müdiri əlavə edib.

**M. YAQUBZADƏ**
**XQ**

# "Yaşıl dünya" qara buludları dünyamızdan qovacaq

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına Azərbaycanın evsahibliyi etməsi cəmiyyətdə "yaşıl düşüncə"nin formalaşmasına, vətəndaşlarımızı "yaşıl həyat" tərzi keçirməyə sövq edəcək, prioritet hədəf olan "yaşıl inkişaf" üçün yeni səhifə açacaq.**



Qlobal istiləşmə və iqlim dəyişikliyi dünyamızın üzləşdiyi təhlükələrdən biridir və inkişaf səviyyəsindən asılı olmayaraq heç bir ölkə iqlim dəyişikliyinin təsirindən sığortalanmayıb. İstixana qazı emissiyalarının artması, qalıq yanacaqların yandırılması və meşələrin qırılması bu problemləri yaradan başlıca amillər sırasındadır. Temperaturun artması, buzlaqların əriməsi və dəniz səviyyəsinin yüksəlməsi kimi hadisələr hər kəsin diqqətini çəkir. Bunun nəticəsi kimi qasırğalar, quraqlıqlar və daşqınlar kimi ekstremal hava hadisələri də tez-tez baş verir.

İqlim dəyişikliyi insan sağlamlığına təsir edərək insanlarda qan-damar, tənəffüs problemlərinin yaranmasına, onkoloji xəstəliklərin, anadangəlmə patologiyaların çoxalmasına səbəb olur. Bundan əlavə temperaturun yüksəlməsi bir çox bitki və heyvan növlərini təhdid altında saxlayır. Bu, biomüxtəlifliyin itirilməsini və ekosistemlərin tarazlığının pozulmasını şərtləndirir.

İqlim dəyişikliyi ilə mübarizə üçün ən effektiv yollardan biri qalıq yanacaqlardan günəş, külək və su enerjisi kimi bərpaolunan enerji mənbələrinə keçiddir. Bu, istixana qazı emissiyalarını azaltmağa və daha dayanıqlı enerji sistemi yaratmağa kömək edir. Meşələrin, bataqlıq ərazilərin və digər ekosistemlərin mühafizəsi və bərpası atmosferdən karbon qazının udulmasına və biomüxtəlifliyin qorunmasına müsbət təsir göstərir. Davamlı monitorinq aparılması və proqnozlarının verilməsi, uyğun strategiyalarının işlənib hazırlanması, ekstremal hava hadisələri üçün erkən xəbərdarlıq sistemlərinin təkmilləşdirilməsi iqlim dəyişikliyinin təsirlərini uğurla idarə etmək imkanı yaradır.

Biomüxtəlifliyin azalması planetimizin üzləşdiyi ən kritik problemlərdən biridir. Meşələrin qırılması, təbii ərazilərin məhv edilməsi və insan fəaliyyətinin nəticələri kimi digər təsirlər də bitki və heyvan növlərinin sayının həyəcanverici sürətdə azalmasına səbəb olur. Beynəlxalq Təbiəti Mühafizə İttifaqının 2023-cü ilin statistik məlumatlarına əsaslanaraq 150 mindən çox növ qlobal "Qırmızı Kitab"a daxil edilib. Qlobal səviyyədə 993 növ, ümumiyyətlə, yoxa çıxıb, 9 mindən çox növ isə təəssüf ki, məhvolma təhlükəsi ilə üz-üzə qalıb. Yeri gəlmişkən, "Qırmızı Kitab"ın hər üç nəşrində verilən təhlilə görə, ümumilikdə, Azərbaycanda nadir növlərin sayı 1989-cu ildə 248, 2013-cü ildə 523, 2023-cü ildə 701 növdür, 58 növ isə "çəhrayı siyahı"ya daxil edilib.

Azərbaycan dövləti təbiət ərazilərinin mühafizəsində müstəsna ekoloji siyasət yürüdür və regional təbii tarazlığın mühafizəsində qlobal əhəmiyyət daşıyır. 2003-cü ilə qədər Milli Parkı belə olmayan respublikanın bu gün 10 milli parkı var. Bundan əlavə, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı xüsusi ekosistemlərin və növlərin qorunmasında əhəmiyyətli rol oynayır.

Yaxın illərdə xüsusi mühafizə olunan təbiət ərazilərinin və kiçik rezervatların sayının artırılması qaçılmaz olacaq. Ona görə də nadir və nəsli kəsilmək təhlükəsi olan flora və faunanın bəzi növlərinin reintroduksiyasının həyata keçirilməsi layihələrinin hazırlanıb həyata keçirilməsi problemin həllində yumşaldıcı effekt kimi çıxış edə bilər.

Planetimizdə növlərin ən çox nadir növ kateqoriyasına düşdüyü əsas təbiət əraziləri meşələrdir. Təbii fəlakətlər, xüsusilə insan fəaliyyətinin nəticəsində baş verən meşə yanğınları bütün ekosistemin pozulmasına səbəb olur. Həmin meşələrin yenidən bərpası uzun illər tələb edir. Yanğından sonra meşənin biokütlə olaraq azalması davamlı ekosistem zəncirinə təsiri ilə bərabər, karbon çirklənməsini, eləcə də istiləşməni artırır.

Azərbaycanda uzunmüddətli şiddətli yanğınlar baş verməsə də, son illər statistikada artım müşahidə edilir. Fövqəladə Hallar Nazirliyinin statistik məlumatlarına əsasən, 2012–2022-ci illərdə, ümumilikdə, yanğın çağırışlarından 102 min 622-si bitki resurslarını (meşə, kol, otlaq, kənd təsərrüfatı və s.) əhatə edir ki, bu hadisələr nəticəsində son 10 ildə 262 min 696 hektar ərazidə bitki resursları yanıb. Bitki əsaslı yanğın hadisələrinə statistik nəzər salsaq, yanğınların 261-i meşələrdə (2924 hektar), 91 min 980-i kol-kosda (172 min hektar), 554-ü taxıl sahələrində (4915 hektar), 9827-si isə biçilmiş taxıl sahələrində (83 min 848 hektar) baş verib. Maraqlıdır ki, hər il ümumi yanğın çağırışlarının təqribən 60 faizi bitki resurslarına aiddir. "Azərkosmos"un monitorinq məlumatına görə, təkcə 2022-ci ilin avqust ayında ölkə üzrə 19 yanğın hadisəsi baş verib və 5311 hektar yanan ərazinin 32 faizini meşə sahələri təşkil edib.

Azərbaycan qanunvericiliyinə əsasən, meşənin yandırılmasına və ağacların kəsilməsinə görə səbəbkar məsuliyyət daşıyır və məhv edilmiş ağacların oduncaq həcmi və onun öncədən təyin olunmuş qiymətı qədər cərimə ödəyir. Kəsilmiş ağacın nəticəsində ekosistemə dəyən ekoloji zərər də dəyərləndirilməlidir. Bu zaman bitkinin karbon saxlama, digər canlıların varlığına təsiri, torpağın eroziyası və s. kimi dəyərlər dövlət tərəfindən qiymətləndirilməlidir. Bir çox ölkələrdə təbii ehtiyatların topladığı və saxladığı karbon dəyərinin ödəniş mexanizmi tətbiq edilir.

Sənayenin inkişafı nəticəsində havada karbon qazı (CO2) şəklində artan karbon emissiyaları iqlim dəyişikliyi, o cümlədən qlobal istiləşmə ilə nəticələnir. İqlim Dəyişikliyi üzrə Dövlətlərarası Panelin təqdim etdiyi məlumata görə, 2019-cu ildə qlobal karbon dioksid (CO2) emissiyaları rekord həddə (36,4 milyard ton/kvadratmetr) çatıb. CO2 emissiyalarında mövcud tendensiyalar əsrin sonuna qədər qlobal temperaturun 4,4°C-ə qədər yüksəlməsinə səbəb ola bilər.

Torpağın deqradasiyası, o cümlədən eroziyası, torpağın münbitliyinin azalması, əkin sahələrinin itirilməsi, qida məhsullarının çiklənməsi, qida maddələrinin tükənməsi qlobal ərzaq təhlükəsizliyini, ümumilikdə, ekosistemin sabitliyini təhdid edən narahatlıqdır. Azərbaycanın 2024-cü ildə dərc olunan Milli Ekosistem Qiymətləndirilməsi sənədinə görə, ölkə torpaqlarının təxmini 42 faizi eroziya, 7 faizi isə şoranlaşmanın mənfi təsirinə məruz qalıb və kənd təsərrüfatı üçün yararsızdır, bundan 14 min hektar ərazi isə neftlə çirklənib.

Hazırda yaranmış qlobal ekoloji problemlərin intensiv həllinə və daha davamlı həyat tərzinə keçidə təcili ehtiyac olduğunu daha çox dərk edirik. Bu keçidin mərkəzində təbii ehtiyatların davamlı şəkildə idarə olunması və sosial rifahın yüksəldilməsini təmin etməklə yanaşı, iqtisadi artımı şərtləndirən "yaşıl iqtisadiyyat" konsepsiyası dayanır. Yalnız "yaşıl iqtisadiyyat"a keçidlə dünyada yeni iş imkanları yaradıla, əhalinin sağlamlığı yaxşılaşdırıla və ekoloji çağırışlara qarşı davamlılıq arta bilər.

***Afət MƏMMƏDOVA,***
***Bakı Dövlət Universiteti biologiya fakültəsinin dekanı, professor***

# Sabir Rüstəmxanlı: “Var olmanın tək yolu sonsuz savaşımdadır”

**Xalq şairi, MM-in deputatı, VHP sədri Sabir Rüstəmxanlı “Xalq TV”-nin qonağı olub. Onunla söhbətin oxucular üçün də maraqlı olacağını nəzərə alaraq “XQ”-də təqdim edirik.**

Uşaq yaşlarından şeirə, sənətə könül verən, Yardımlı rayonunda orta məktəbi bitirdikdən sonra BDU-nun filologiya fakültəsinə daxil olan Sabir Rüstəmxanlı hələ tələbə ikən “Ədəbiyyat və İncəsənət” qəzetinə işə qəbul edilib, universiteti fərqlənmə diplomu ilə bitirib və “sərhədsiz ruhumuzun” daşıyıcısı, “haqq pərvanəsi” kimi yoluna davam edib. 30 yaşında “Cəlil Məmmədquluzadə və folklor” mövzusunda dissertasiya işi yazıb və uğurla müdafiə edərək, filologiya elmləri namizədi elmi dərəcəsi alıb. “Tanımaq istəsən”, “Xəbər gözləyirəm”, “Gəncə qapısı”, “Sağ ol, ana dilim!”, “Qan yaddaşı”, “Zaman məndən keçir”, “İki kəlmə” və sair şer kitabları var. “Xətai yurdu”, “Göy Tanrı”, “Ölüm Zirvəsi (Cavad xan)”, “Difai Fədailəri”, “Şair və şər”, “Sunami” kimi maraqlı romanların müəllifidir.

Ona ilk sualımız dissertasiya işi ilə bağlı oldu:

**– Sabir müəllim, bugünün prizmasından Mirzə Cəlili necə dəyərləndirirsiniz? Özünüzü Mirzə Cəlilin mənəvi varislərindən sayırsınızmı?**

– Mirzə Cəlil Azərbaycan ədəbiyyatında ən böyük ədəbi məktəblərdən birinin təməlini qoyub, M.Ə.Sabirlə birlikdə Mirzə Cəlilin Azərbaycan milli təfəkkürünün biçimlənməsində, milli-demokratik ənənələrin yaranmasında misilsiz xidməti olub. Bu baxımdan mən, şübhəsiz, onların mənəvi varisiyəm. Mən Mirzə Cəlil mövzusunu təsadüfən seçməmişəm. Universitetdə onun “Anamın kitabı” pyesindən kurs işi yazmışdım. Müəllimimiz, bizə Mirzə Cəlildən dərs deyən görkəmli yazıçımız, professor Mir Cəlal oxuyub dedi, yaxşı yazmısan, ver, qoy universitetin “Elmi əsərlər”ində çap edilsin. Bir tələbənin kurs işinin “Elmi əsərlər”də çapı nadir hadisə idi. Mən yazımı “Elmi əsərlər”ə verdim, amma 2-3 ay keçsə də, çap olunmadı. Bir gün Mir Cəlal müəllim soruşdu ki, nə oldu, tənbəllik eləyib məqaləni çapa vermədin? Dedim, yox, siz deyən kimi vermişəm, amma çap olunmayıb. O, bir az əsəbləşdi, lazımi adamlara mənim kurs işimin təcili dərc edilməsini tapşırdı. Mənə isə dedi ki, əgər sən elmi işlə məşğul olsan, çalış, böyük adamlardan yazasan. Sonra da zarafatla əlavə elədi: “Özün unudulsan da, araşdırdığın mövzunun obyekti, yəni haqqında yazdığın adamın xatirəsi səni yaşadacaq”. Əlbəttə, mən Mirzə Cəlildən yadda qalmağım üçün yazmırdım, sadəcə olaraq o, hamımız üçün bir məktəb idi.

Sonra “Ədəbiyyat və İncəsənət” qəzetində işləyəndə mənim məqalələrimi görəndən sonra EA Nizami adına Ədəbiyyat İnstitutunun direktoru rəhmətlik Mirzəağa Quluzadə məni instituta dəvət etdi. Daha doğrusu, bir gün qəzetin tənqid şöbəsinin müdiri Ayaz Vəfalı mənə dedi ki, səni Mirzəağa müəllim instituta çağırır. Getdim. Mirzəağa müəllim məni aspiranturaya qəbul etmək istədiklərini bildirdi və hansı dövrü istəsəm, seçə biləcəyimi dedi. Cavab verdim ki, fərq etməz, klassik dövr də, müasir dövr də ola bilər, yalnız XX əsrin əvvəli mənə bir az çətin gəlir, çünki o dövr mürəkkəbdir, qəzet və jurnalların da çoxu əldə yoxdur. Amma, nədənsə, mövzum “Cəlil Məmmədquluzadə: “Molla Nəsrəddin” jurnalı və folklor” oldu. Düzdür, ərəb qrafikasını bilirdim, universitetdə keçmişdik, ancaq “Molla Nəsrəddin”in o hürufatla çap olunmuş 25 illik bir dövrünü tapıb, oxuyub, folklorla bağlı cəhətlərini araşdırmaq elə də asan deyildi. Məcbur oldum ki, Axundzadə kitabxanasının qədim əsərlər bölməsində və alyazmalar institunda oturub həmin jurnalın neçə illik nömrələrini oxuyum. Bir neçə aya gözüm alışdı, gərəkən materialları yığdım. Düzdür, iş, dolanmaq qayğıları, evsizlik, kirayələrdə yaşamaq səbəbindən dissertasiyamı bir qədər gec müdafiə elədim. Arada əsgərliyə də çağrıldım, Bakıya düşdüm və hərbi xidmət dövründə 20 gün tibbi-sanitar hissədə qalaraq, evdən gətizdirdiyim qeydlərimi ipə-sapa düzdüm, qısa müddətdə dissertasiyanı tamamladım və tez də müdafiə elədim. Sonra sırf ədəbiyyatşünaslıqla məşğul olmadım, ancaq publisistik yaradıcılığımda elmi yanaşmalara da lazımınca yer ayırdım.

O ki qaldı Mirzə Cəlilə, dediyim kimi, hamımız üçün böyük məktəbdir, özümü o dahinin sırf varisi saya bilmərəm, amma, mən qarışıq, hamımız daim ondan, digər böyük qələm sahiblərimizdən öyrənmişik və öyrənirik də.

**– Hər dəfə Yardımlıya gedəndə Təkdam şəlaləsinin yanında nəfəs dəririk və yadımıza düşür ki, Xəlil Rza Ulutürk bir şeirində onu “Rüstəmxanlı şəlaləsi” adlandırıb, Mikayıl Mirzə də gözəl ifa edib. Hamarkənddə Anarın, Xalidə Hasilovanın... iştirakı ilə sizin 50 illik yubileyinizdə jurnalist kimi iştirakımı da xatırlayıram. Fərəhlənmişik ki, buradan siz adda böyük bir gözəl ziyalı, türk ruhu duyulan hər yeri özünə doğma bilən, yurd hesab edən görkəmli şair, ictimai xadim pərvazlanıb və ürəyimiz dağa dönüb. Lap Savalan kimi bir dağa. Bəs, şair özü Yardımlıda olanda necə duyğulanır, Sabir Rüstəmxanlının yaradıcılıq “şəlalə”sinin daim gur çağlamasında Yardımlı amilinin rolu nə dərəcədə olub?**




– Xatirələrimi ha yazıram, hələ də kənddən çıxa, Bakıya gələ bilmirəm. Stalin rejimindən sonrakı çətin dövrdə ucqar, kasıb rayon olan Yardımlıda orta məktəbdə oxumuşam. Yol, maşın, işıq, radio-televiziya olmayan vaxtlar idi. İndi fikirləşirəm ki, o “yox”ların içində bir xoşbəxtlik də vardı. Ümidlə, arzuyla yaşayırdıq. Dağları aşıb böyük dünyaya qoşulacağımızı düşünürdük. O vaxtlar təsəvvürümüzdə kənd yerlərinin bir cənnət ab-havası vardı. Camaatın birgəliyi həyat tərzi idi, əkin-biçin, ot çalını və sair böyük ruhla, holavar, mərasim nəğmələri ilə müşayiət olunurdu. Torpaqdan təyinatı üzrə tam istifadə edilirdi.

Yardımlı, doğrudan, başqa bir aləm idi. Oradan neçə el yolu gəlib-keçib. Arana, Muğana, Savalana. Şah İsmayılın ova çıxdığı Şahnişin yaylağı, Xoca döngəsi, Cavad qəzasından Ərdəbilə gedən, 6 arabanın sığışdığı yol vardı, Deman indi sərhədin o üzündə qalıb. Əslində, ucqar olmayıb Yardımlı, Azərbaycanın normal coğrafiyasında mərkəzi yerlərdən sayılıb. Məhdudiyyətlər, məhrumiyyətlər olsa da, gözəl təbiəti, dağları, babalarımızın aran-yaylaq xatirələri... bütün bunlar tamam ayrı bir hava yaradırdı. Mən ora qayıdanda yenə həmin duyğulara sarılıram, şəlaləyə salam verib keçirəm. Adam təzədən uşaqlaşır. Dağ kultu türkün qan yaddaşındadır. Şeirlərimin, lap elə romanlarımın əsas özəyidir bu. Hamısı o yaddaşı diriltməyə xidmət edir. Sovet rejimi türk dünyasına yollarımızı kəsib, bizə saxta tarix sırıyırdı, kiçildərək balaca bir millətə çevirmək istəyirdi. Şeirlərimin də əsas xətti o keçmiş ruhu, unudulanları qaytarmaqdır. Romanlarım da – “Göy tanrı”dan ta “Sunami”yə, “Akademikin son əsəri”nə qədər həmin amaca, məramа xidmət edir.

**– Rəhmətlik Məmməd Aslanın da qan yaddaşı Kəlbəcərin işğalı dövründə elə hey onu Yardımlıya çəkib aparırdı. Sizinlə dəfələrlə gedib oralara. Həmişə deyirdi ki, Yardımlıya gedəndə sanki Kəlbəcərə gedir, özünü orada suda balıq kimi hiss edir...**

– Hə, deyirdi ki, sanki Kəlbəcər dağları aşağılarda – Şirvan, Muğan düzlərində batıb və Yardımlıda üzə çıxıb. Bir videokamerası vardı, onunla Yardımlının bütün gülünü, çiçəyini çəkirdi, sonra başqa rayonlardan hazırladığı “Dərədən-təpədən” verilişlərində də istifadə edirdi. Heyf ki, Məmməd Aslan Qarabağın, Kəlbəcərin işğaldan azad olunmasını görmədi...

Yeri gəlmişkən, böyük şəxsiyyətlər olan dostlarımın hamısı – Xudu Məmmədov, Anar, Məmməd İsmayıl (“Ana payı” adlı şeir də yazıb), Musa Yaqub, Nüsrət Kəsəmənli, Çingiz Əlioğlu, Səyavuş Sərxanlı, Seyran Səxavət Yardımlıda qonağım olublar. İlk olaraq Xudu müəllim təkidlə getmək istədi. “Sənin də atanın adı Xududur, – dedi, – mən onunla tanış olmaq istəyirəm, sənin haqqında deyəcəyim sözlərim var”. Nə isə, getdik. Ayağının altında anamın, bacılarımın toxuduğu xalçalara baxıb mənə dedi ki, bəs deyirsən, kasıbıq, amma bu xalçalar çox qiymətlidir, izah eləsəm, görərsən ki, hansı sərvətin üstündə oturmusan. Sonra o ikiotaqlı balaca evdən neçə-neçə ev ayrıldı, qardaşlarımın, bacılarımın evləri...

**– Sabir müəllim, sizdən danışanda, istər-istəməz, 1988-ci il, Meydan hərəkatı yada düşür. O hərəkatın öncülü, milli oyanışımızın, azadlıq mücadiləmizin carçısı olmusunuz. “Ömür kitabı”nız əl-əl gəzib. Vurulmağınız, sonrakı mitinqlərdə başı sarıqlı vəziyyətdə çıxış etməyiniz də yaddadır. Hamısı gözümüzün qabağında olub. İndi illərin deputatı, qitələri gəzib haqq səsimizi yayan ictimai xadim, dünyada tanınan ziyalı, Dünya Azərbaycanlıları Konqresinin həmsədri kimi bütün bu fəsilləri ömür kitabınıza sığışdıra bilirsinizmi?**

– Demək çətindir... “Ömür kitabı”nın o zaman geniş yayılması bir fakt idi. Ailədə 4 qızı olan valideynlər 4 kitab alıb cehizlərə qatırdılar. İndi adamlar nədənsə kitabdan soyuyublar, yazılanlar çox oxunmur. Mənim 10 romanım çıxıb, qədim oğuzların tarixindən üzü bu yana, bacardığım qədər yazmışam. Tarixi düşüncənin, tarixi ənənələrin qırılmazlığını göstərən yazı silsiləsidir. Əslində, bunlar hamısı bütövlükdə mənim Ömür kitabımdır. Sevinirəm ki, hələ düşüncəmiz yerindədir, qələmimiz işləkdir. Bu, elə o dağların verdiyi bir xoşbəxtlikdir.

Mən sovet dövründə gənc şair kimi çox yerlərə ədəbi tədbirlərə gedirdim. Sonra Konqresin həmsədri kimi də ta Avstraliyaya qədər bütün dünyanı gəzdim. Hər yerə də Azərbaycanın sözü ilə, Azərbaycanın dərdi ilə – haqq işimizi anlatmağa getdim. Əvvəl tribunam “Azadlıq” meydanı idi, tədricən o meydan böyüdü, Amerikada, Kanadada oldum. Yadıma gəlir, 1992-cü ildə Nyu-Yorkda məlum 11 sentyabr terror aktı zamanı vurulan Ümumdünya Ticarət Mərkəzinin əkiz qüllələrinin yaxınlığında, “Vitsa” otelində konqresmenlərin də iştirak etdiyi məclisdə dedim: “Təsəvvür edin ki, Amerikanın 40 milyon qaçqını var, onları necə saxlayar, necə dolandırarsınız?” İzah etdim ki, bizim 7 milyonluq əhalimizin (o vaxtkı statistika ilə) 1 milyonu, yəni ölkə əhalisinin 7-də 1-i qaçqındır. Bu hesabla, sayın ki, Çinin 200 milyon qaçqını var. Necə edər, necə dolandırar? Niyə dünya bizim faciəmizi görmür? Təəssüf ki, dünya elə indi də buna göz yumur. Hər yerdə belə kəskinliklə, millətin haqq səsini çatdırmaq ehtirası ilə, həm də çəkinmədən sözümüzü demişik.

Biz qeyri-hökumət təşkilatı kimi, Dünya Azərbaycanlıları Konqresi adından hətta bəzi rəsmilərin, səfirlərin aça bilmədikləri qapıları aça bilmişik və sözümüzü demişik. Görüşlərimizin çoxu haqqında yazmışam. Xocalı soyqırımı indi dünyanın çox yerində tanınıb, amma bu mövzuda Türkiyədə ilk toplantını keçirən, həmkarları da bu işlərə qoşan, yürüşlər, mitinqlər keçirən bizlər olmuşuq. Allahın verdiyi gücü, bacarığı boş yerə sərf etmədiyimə sevinirəm. Bəzən qohum-əqraba, dost-yoldaş inciyib, toydan imtina eləmişəm, yaslara çatdıra bilməmişəm, istirahətdən imtina etmişəm, amma yazmaqdan heç vaxt imtina etməmişəm.

**– Sizin əqidəniz, məsləkiniz, ona görə möhkəm olub, fəaliyyətiniz ona görə sanballı olub ki, əsasında, bayaq dediyimiz kimi, Mirzə Cəlildən başlanan bir platforma olub. Məhəmməd Hadiyə həsr etdiyiniz “Şair və şər” romanı olub və sair...**

– İlk şeirlərimdən birində Hadinin adı var. “Vətən” şeirimdə Cavad xanın adı var. Hər ikisi sonra romanlarımın qəhrəmanı olublar. Elə insanlar, sənətkarlar, milli qəhrəmanlar, rəmzlər var ki, onlarsız tariximizi, milli kimliyimizi, xarakterimizi təsəvvür edə bilmərik.

**– Əhməd bəy Ağaoğlunun baş qəhrəman olduğu “Difai fədailəri” romanınız da var. Mərhum dostum Rövşən Almuradlı da sizin ssenarinizlə “Cavad xan” filmini çəkib. Yeri gəlmişkən, bu günlərdə onun 70 yaşı tamam olur.**

– Hə, Allah Rövşənə rəhmət eləsin. Milli ruhlu, ayıq, qeyrətli vətəndaş və əsl peşəkar rejissor idi, müəyyən birgə planlarımız da vardı, təəssüf ki, bizləri tez tərk elədi...

**– Sizinlə görüşə hazırlaşanda dilimizin vəziyyəti məsələsi barədə sual verməyi də nəzərdə tutmuşdum. “Sağ ol, ana dilim” şeirinizi bir daha oxumuşdum:**

*Yollarım sınandı yad ölkələrdə,*
*Neçə yad dodaqda səsləndi adım.*
*Sağ ol, ana dilim, məni heç yerdə*
*Köməksiz qoymadın, yalqız qoymadın.*

*Barmağım altında düymə fırlanır,*
*Londonla, Parislə yanaşı Bakı…*
*Doğma sözlər üçün darıxan hanı?*
*Deyin qoy dinləsin: “Danışır Bakı!”*

**Dil məsələsi bu gün ciddi problemə çevrilib. Siz Xalq şairimizsiniz, Azərbaycan Dil Qurumunun başqanısınız, bu yaxınlarda Dil Qurumunda qanun və kargüzarlığın dili məsələsi müzakirə olunub, öncələr də monitorinqlər, dəyirmi masalar keçirmisiniz, bəyanatlar vermisiniz. Sizin ifadənizlə desək, kürəsəlləşmə dövründə milli atributların arxa plana keçməsi ana dilinə nə dərəcədə ziyan vurur? Bununla necə barışa bilirik?**

– İndi dəb düşüb: bir çox ailə uşaqlarını ingiliscə oxudur, guya, bu, insanın ağlını artırır-filan... İnformasiyasını artıra bilər, amma insanı insan edən iradədir, ağıldır, əxlaqdır. Əgər öyrəndiyin hansısa dil səni öz əxlaqından uzaqlaşdırırsa və başqa mədəniyyətdən, başqa düşüncə tərzindən asılı olursansa, onda yaxşı insan olmaq üçün üçayağın gərəkən iki dayağı gedir, qalırsan tək ayaq üstündə və bu da heç kəsə kömək etməz. Mən 1992-ci ildə Suriyada və Misirdə İslam ölkələri mədəniyyət və informasiya nazirlərinin görüşündə, sonra Suriyada, Namibiyada, Dünya Parlamentlərası Şurada, Afrika ölkələrində parlament ittifaqlarının toplantılarında çıxış etmişəm. Hər yerdə azərbaycanca danışmışam. Tərcüməçi var, qoy, tərcümə eləsin. Bir də ki, niyə ingilis dili, fransız dili kimi, türk dili də rəsmi dil olmasın? Mən uca tribunalardan bunu söyləyəndə, Türkiyədən olan qardaşlar gəlib dedilər ki, nə yaxşı, sən bu məsələni qaldırırsan!

İndi Azərbaycan müstəqildir, Prezidentimiz çox yerdə Azərbaycan türkcəsində danışır. Bu, bizi qürrələndirir. Lazım olanda dövlət başçımız rusca da, ingiliscə də mükəmməl danışır və hamıya cavab verir. O dilləri də bilməliyik, amma öndə öz dilimiz olmalıdır. Xarici dil adamı daha ağıllı göstərmək üçün reklam vasitəsi deyil, axı. Baxın, dilimiz əcnəbi sözlərlə, terminlərlə dolur. Siyahısını çıxarmışdım, 100-lərlə yabançı, dilə yatmayan sözdən istifadə olunur. Bəzi qanunlarımızda da yabançı sözlər mətni anlaşılmaz edir. Deyrlər ki, bunlar beynəlxalq sözlərdir. Dünyada “beynəlxalq söz” deyilən bir anlayış yoxdur, hər sözün ana dilində bir qarşılığı var, sadəcə tapıb işlətmək lazımdır. Qarşısını almasaq, 10-15 ilə dilimiz nə günə düşəcək? O gün bir görüşdə idim, cavan oğlan “Mən moderator olaraq...” deyə sözə başladı. Məgər “aparıcı” pis sözdür? Niyə belə demirsən? Hər iki kəlmədən bir xarici sözlərlə qulağımızı yağır edirlər, sanki bu, bir ziyalılıq göstəricisidir. Bir vaxt rus dilindən bu cür gen-bol istifadə olunurdu. Ona görə də 2006-cı ildə Azərbaycan Dil Qurumunu yaratmışıq. Müzakirələr keçiririk, məsələlər qaldırırıq. Bakının mərkəzində, görürsünüz, reklamların 90 faizi kənar sözlərdir.

**– Brendləri başa düşmək olar, amma, düz deyirsiniz, reklamlarda gərəksiz olaraq yazılan, anlaşılmaz əcnəbi sözlər də çoxdur.**

Son illərdə qanunlarımız vasitəsi ilə dilimizə çoxlu əcnəbi söz keçir. Əslində, bu sözlərin bir qisminin ana dilində hamının başa düşəcəyi, dilə yatımlı qarşılığını tapmaq olar. Deyək ki, Təhsil Qanunundakı distant təhsil əvəzinə – uzaqdan və ya məsafədən təhsil, informal təhsil yerinə – özeyitim və ya özünütəhsil, kampus əvəzinə – tələbə şəhərciyi, hind quşlarının qurultusuna bənzəyən kurikulum yerinə – təhsil proqramı, eksternet təhsil yerinə – qabaqlayıcı təhsil desək, dünya dağılmaz. “Təhsi investisiyası” anlayış olaraq qəbul edilir, açıqlamasını “təhsil sərmayəsi” kimi verirlər. Olmazdımı sərmayə anlayış olsun, investisiya açıqlayıcı söz? Yaxud “perkvizit fənlər” ifadəsini valideyn necə başa düşsün? Əslində, burada söhbət dərsin ardıcıllığından gedir və dilimizdə keçid fənlər şəklində ifadə oluna bilər...

Həm qanunlarımızın, həm də idarələrimizin adları Sovet dövründən qalma vərdiş üzrə rus dlindən mexaniki şəkildə çevrilib. Məsələn, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu, “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanunu, “İcbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu, “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu və s. Bu adlarda təkrarlanan “haqqında” kəlməsi rus dilindəki “o” sözönünün mexaniki tərcüməsidir. Qanunlarımızın əksəriyyəti bu üsulla adlandırılır. Halbuki, dilimizin quruluşu və tarixi gələnəklərimiz bu adların aşağıdakı şəkildə yazılmasını tələb edir:

“Azərbaycan Respublikasının Təhsil Qanunu”, “Azərbaycan Respublikasının Elm Qanunu”, “Azərbaycan Respublikasının Sosial Sığorta Qanunu” və s.

Təəssüf ki, bəzi dövlət idarələrinin adında da bənzər yanlışlığa yol verilir. Məsələn, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Diasporla iş üzrə Dövət Komitəsi... Dövlət sözü irəli çəkilməklə üzrə sözü atılmalıdır. Məsələn, Azərbaycan Resspulikasının Dövlət Diaspor komitəsi.

Axı, bizim dilimizin imkanları yetərincədir, nədən qondarma sözlər dilimizə gətirilsin? Belə məsələlərdə Türk dünyasının imkan və təcrübəsi də nəzərə alına bilər.

**– Sabir müəllim, medianın, televiziya və radionun da dili bərbaddır...**

– Televiziya ciddi məsələdir və təəssüf ki, televiziyalarda çox vaxt dil mədəniyyəti qorunmur. Cümlə quruluşundan, ifadə tərzindən başlamış ayrı-ayrı sözlərə qədər xeyli misal çəkmək olar ki, efirdə səslənməməlidir. Bircə misal deyim. Son günlər tez-tez eşidirəm ki, cavan aparıcılar insan filan qidanı yeməlidir əvəzinə “idxal etməlidir” deyir. Guya savadlı danışır. Bu aparıcıya demirlər ki, televiziya dili sadə, aydın olmalı, ədəbi dil normaları qorunmalıdır. Toplum ünsiyyətin ən gözəl formasını televiziyalardan öyrənməlidir. Televiziyalar Azərbaycanın simasıdır. Buna görə hər kəs aparıcı ola bilməz. Aparıcının nitqi, səsinin tembri, siması, geyimi, əxlaqı milli xarakterə uyğun gəlməlidir. Axı, ona dünya baxır, milyonlar baxır. Yoldan ötənin biri televiziyaya gəlib veriliş açır və ad qoyur: “Filankəsin verilişi”, “Filankəslə bir saat” ?! Və elə bilir ki, verliş onun şəxsi mülkiyyətidir, özünü necə istəsə o cür apara bilər.

**– Bu gün onlayn yayımlar, qəzetlər, saytlar da dil sarıdan bərbad gündədir. Aparıcı, jurnalist, həmsöhbət dilin incəliklərinə qədər duymalı, bilməlidir, amma...**

– Bilirsiz, söz özü də canlıdır, onun da enerjisi olmalıdır. Olmasa, söz ölüdür. Sözün ruhu, atmosferi, sirri-sehri var. Mən bir vaxt “Məmməd Araz sözünün sehri” adlı bir məqalə yazmışdım. Qəzetlər, jurnallar, televiziyalar ölü sözlər qəbiristanlığına çevrilməməlidir. Nə qədər yan-yana düzsən də, ölü sözlər heç bir təsir etməyəcək.

**– Bu gün oxucu qəzetdən, seyrçi ekrandan soyuyub. Bir səbəb də dilin korlanmasıdır, təbii dildə danışılmamasıdır, yəqin... Sabir müəllim, sizin 15 cildlik “Seçilmiş əsərlər”iniz nəşr olunur, artıq 11-i çıxıb. Bu cildlərdə şeir və poenmalarla, romanlarla bərabər, günün aktual məsələləri barədə publisistik yazılarınız, aktual qeydləriniz də yer alıb. Sirr deyilsə, indi nə yazırsız?**

– Bir nəsr əsərim var – 2017-ci ildə şair dostum Rüstəm Behrudinin yubleyini keçirməyə gedəndə, Ordubadda yaranmışdı onun ideyası. Yazmağa da o vaxt başlamışdım. Ancaq araya başqa işlər düşdü, onun üstündən 3 yeni kitab çap etdirmişəm, o yazı isə hələ bitməyib. Bir az vaxt sıxır – bu var, həm də orada insan alveri, qadınların üzləşdikləri faciələr və başqa sosial məsələlər var. Üzdən keçib getmək olmur, yazmaq çətindir. İnsan ömrünün və milli taleyin acılarını bütün faciəvi xırdalıqları ilə göstərən müəlliflər var. Çingiz Aytmatovun “Dağlar yıxılır” romanındakı kimi. Son 30 illik tariximizin elə müdhiş süjetləri var ki, bəzən onun reallığını özünə belə etiraf etmək istəmirsən və qələm dayanır. Amma, şübhəsiz, bu faciələr mütləq yazılmalıdır.

**– Sabir müəllim, suallar da çoxdur və sizin də fikirləriniz bizim üçün çox dəyərlidir. Amma hələlik bu qədər deyək. Çox sağ olun ki, vaxt ayırıb redaksiyamıza söhbətə gəldiniz.**

– Məmnuniyyətlə gəldim, çünki son dövrlərdə sizin qəzetin siması xeyli dəyişilib, mən də həvəslə oxuyur və bəyənirəm. “Xalq qəzeti”, doğrudan da, xalqın qəzeti olub. Bizim də yazı-pozumuzun bir məqsədi var ki, dünyada gedən ağır proseslərdən xalqımız uğurla çıxsın, daha gözəl gələcəyimizi qura bilək. İstərdim ki, oxucu sıraları seyrəlməsin, adamlar yenə də mütaliədən zövq alsınlar, kitabı unutmasınlar.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Özbək jurnalistlər “Xalq qəzeti”ndə

**Həmin gün ölkəmizin media qurumlarının fəaliyyəti ilə tanış olan özbək jurnalistlər Mətbuat Şurasının sədri Rəşad Məcidin müşayiəti ilə “Xalq qəzeti”ndə də oldular.**



Daşkənddən gəlmiş media qrupunu salamlayan baş redaktor Əflatun Amaşov Azərbaycanın ən qocaman gündəlik anadilli ictimai-siyasi qəzeti barədə qonaqlara ətraflı məlumat verdi. O, türkdilli xalqların həyatında tarixi uğur olan Türk Dövlətləri Təşkilatının möhkəmlənib dünya güc mərkəzinə çevrilməsində qardaş xalqların mediasının önəmli informasiya dəstəkçisi olduğunu vurğuladı. Baş redaktor bildirdi ki, Türk dünyası, eləcə də Özbəkistanla bağlı müxtəlif mövzulu materiallar qəzetin səhifələrində davamlı və geniş yer tutur. Daşkəndə XQ-nin Mərkəzi Asiya müxbir məntəqəsi də fəaliyyət göstərir.

Özbəkistan Jurnalistlər İttifaqının sədri Xolmurod Səlimov Bakıda keçirdikləri görüşlərdən, Mətbuat Şurası ilə imzalanan əməkdaşlıq memorandumunun ölkələrimiz arasında media əlaqələrinin yüksək səviyyədə qurulmasına xidmət edəcəyindən söz açdı. “Trest” qəzetinin baş redaktoru Husan Ermatov, “Tonq yüztəri” qəzetinin baş redaktoru Feroza Odilova, Dövlət İnformasiya Agentliyinin redaktoru Əzizə Həlimova də digər qonaqlar çalışdıqları media qurumları barədə məlumat verdilər, iki ölkə jurnalistlərinin əməkdaşlığını yeni müstəviyə qaldırmaqla bağlı mülahizələrini söylədilər.

Mətbuat Şurasının sədri Rəşad Məcid qardaş ölkələrin jurnalistlərinin əməkdaşlığını inkişaf etdirməkdə qarşılıqlı səfərlərin, təcrübə mübadiləsinin önəmini qeyd etdi, bu məsələnin memorandumda da yer aldığını söylədi.

**XQ**




# Azərbaycan–Özbəkistan media əməkdaşlığı genişlənəcək

**Azərbaycan Mətbuat Şurası ilə Özbəkistan Jurnalistlər İttifaqı arasında əməkdaşlıq memorandumu imzalanıb.**

Mərasimi giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid Azərbaycanla Özbəkistan arasında bütün sahələrdəki yüksək səviyyəli münasibətlərin son illər media müstəvisində də əlaqələrin genişləndirilməsinə meydan açdığını vurğulayıb. O, memorandumda nəzərdə tutulan ayrı-ayrı müddəaların birgə fəaliyyətin sistemli və faydalı olması baxımından önəmini də qeyd edib.

Özbəkistan Jurnalistlər İttifaqının sədri X.Səlimov rəhbərlik etdiyi qurumun Azərbaycan Mətbuat Şurası ilə əməkdaşlıq memorandumunu qarşılıqlı təcrübə mübadiləsinə və iki xalq arasında dostluğun möhkəmləndirilməsinə geniş imkanlar yaradan platforma kimi səciyyələndirib.

MŞ İdarə Heyətinin üzvlərindən Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, “Azxeber.com” saytının baş redaktoru Hacıbəy Heydərli, “Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu, Ahıl Jurnalistlər Məclisinin sədr müavini Əminə Yusifqızı, MŞ-nin icraçı katibi Əvəz Rüstəmov, publisist Aida Eyvazova hər iki ölkə jurnalistlərinin əməkdaşlığının genişləndirilməsi ilə bağlı rəy və təkliflərini söyləyiblər.

Özbəkistan Həmkarlar İttifaqının “Trest” və “Doverie” qəzetlərinin baş redaktoru Husan Ermatov, Gənc Jurnalistlər Şurasının sədri Şöhrət Oripov, “Tonq yüztəri” qəzetinin baş redaktoru Feroza Odilova, Dövlət İnformasiya Agentliyinin redaktoru Əzizə Həlimova memorandumun ölkələrimizin media qurumlarının birgə fəaliyyətini stimullaşdırdığını bildiriblər.

**T.RÜSTƏMLİ**
**XQ**

# Sizi unutmadıq, şəhidlər





**Aprelin 19-da Lerik Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində Əməkdar jurnalist İlqar Rüstəmovun şəhidlərimizin xatirəsinə həsr etdiyi "Sizi kim unudar..." kitabının təqdimat mərasimi keçirilib.**

Təqdimat mərasimi şəhidlərimizin əziz xatirəsinin anılması ilə başlandı. Sonra tədbirin aparıcısı AJB-nin üzvü Hüsaməddin Abbasov kitabın müəllifi haqqında məlumat verərək bildirdi ki, İlqar Rüstəmov milli mətbuatın inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə “Tərəqqi” medalı və “Əməkdar jurnalist” fəxri adı ilə təltif edilib. Dövlət başçısının bu il fevralın 2-də imzaladığı sərəncamla isə o, “Heydər Əliyevin 100 illiyi (1923–2023)” yubiley medalına layiq görülüb. Bu il işıq üzü görən, şəhidlər və qazilər haqqında oçerklərin və “Şəhid anası” poemasının yer aldığı yeni toplu İlqar Rüstəmovun sayca 3-cü kitabıdır. Uzun illərdən bəri “Xalq qəzeti”nin məsul katibi vəzifəsində çalışan müəllifin Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dönəmlərdə Azərbaycanda milliləşmə, erməni separatizmi ilə mübarizə, kadr siyasəti və respublikanın sosial-iqtisadi inkişafı naminə həyata keçirdiyi müstəsna xidmətlərinin bir çox məqamlarından bəhs edən sanballı “Heydər Əliyev xatirələr işığında” kitabı da 2023-cü ildə nəşr olunub.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov Prezident, müzəffər Ali Baş Komandan, İlham Əliyevin rəhbərliyi altında Zəfər tariximizin 44 günlük salnaməsini qanları ilə yazan igid əsgər və zabitlərimizin döyüş yoluna həsr olunmuş bu kitabın gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində önəmli rol oynayacağını bildirdi. Natiq dedi: “Bu kitabın özünəməxsusluğu ondadır ki, burada adı çəkilən hər bir şəhidin və qazinin ömür yolu, qalib əsgər kimi formalaşdığı uşaqlıq illəri və həyatlarının ibrətamiz məqamları öz əksini tapıb”.

Mərasimdə ziyalı Məzahir Ağayev, politoloq Arzuman Muradlı, iş adamı Ehtiram Miriyev, Rövşən Rəhmanov, Nizam Babayev, həmçinin Balaşirin Nəsirov, Gültəkin Şıxəliyeva, tanınmış şairlər Ağacəfər Həsənli, Xanlar Həmid və başqaları müəllifin 12 şəhid, 2 qazi və 30-dən çox əsgəri əlil olmaqdan xilas edən hərbi həkim haqqında ürək yanğısı və məhəbbətlə yazdığı oçerklərin hər birinin bir filmin, bir televiziya tamaşasının mövzusu ola biləcəyini qeyd etdilər. Əminlik ifadə olundu ki, İlqar Rüstəmov bu mövzuda oxucularını yeni əsərləri ilə sevindirəcək.

Şəhid valideynləri Rəbbil Heydərov, Hüseynverdi Rəhmətov, Mükafat Yaqubov, ehtiyatda olan polkovnik Əbülfət Həmidov, Aslan Hüseynov və qazi polkovnik-leytenant Ramin Əliyev çıxışlarında müəllifə minnətdarlıqlarını bildirib qeyd etdilər ki, belə əsərlərin əsas məramı şəhidlərimizin adlarının əbədiləşdirilməsi, onları şərəfli döyüş yolunun və vətənpərvərlik nümunəsinin gələcək nəsillərə çatdırılmasıdır. Müəllif bunun öhdəsindən uğurla gəlib.

Təqdimat mərasimində orta məktəb şagirdləri kitabda yer alan “Sizi kim unudar...” elegiyasından və “Şəhid anası” poemasından parçalar söylədilər.

Sonda kitabın müəllifi, Əməkdar jurnalist İlqar Rüstəmov tədbirin təşkilatçılarına minnətdarlığını ifadə edərək bidirdi ki, bütün yazarların, qələm sahiblərinin şəhid və qazilərimiz qarşısında böyük mənəvi borcu var – onların qəhrəmanlıqlarını əbədiləşdirmək və gələcək nəsillərə çatdırmaq borcu. “Bu kitab da mənim haqqında yazdığım 12 qəhrəmanlara borcumun bir qismidir. “Şəhid anası” poemam isə igid oğulları Azərbaycana bəxş edən analara olan borcumdur. Mən bunu onlara həsr etdiyim elegiyada da yazmışam: “...Neçə vaxtdı yanınızda xəciləm. Şəkillərinizə baxıb, içim qançır ola-ola qalıram. Sizin ucaldığınız zirvəyə yüksələ biləcək söz tapmıram yazmağa. Elə içimə çəkilib özümün söz acizliyimə acımağa gücüm çatır. Heç olmasa, bu işdə azacıq da olsa, sizə oxşamaq istəyirəm. Sözü sizin qalxdığınız zirvəyə ucaltmaq istəyirəm. Sizin yolunuzda sözün şəhidi olmaq istəyirəm. Bu dürr dəryasından adınıza, şücaətinizə dəyər verə biləcək inci tapmaq, sizin Vətəni candan uca tutan eşqinizi mədh etmək istəyirəm...” Bacarmışam, ya yox – bunu oxucular deyəcək.

İlqar Rüstəmovun “Sizi kim unudar...” kitabının Lerik rayonunun Çayrud və Vizəzəmin kəndlərində təqdimatı da maraqla qarşılanıb. Müəllif Çayrud kənd ziyalıları ilə birlikdə əvvəlcə Vətən müharibəsində şəhid olan Cavanşır Həmodovun məzarını ziyarət edib. Sonra şəhidin oxuduğu doğma Çayrud kənd orta məktəbində təqdimat mərasimi keçirilib. Şəhidin valideyni Namiq Həmidov müəllifə minnətdarlıq edərək bildirib ki, bu, onun ailəsi üçün çox dəyərli kitabdır və şəhidin ev muzeyinin ən qiymətli eksponatları arasında yer alacaq.

Vizəzəmin kəndində isə təqdimat “Zəfər parkı”nda açıq havada keçirilib. Tədbirdə bu kənddə böyüyüb boya-başa çatmış şəhidlər – XTQ-nin giziri Tərzan Həşimov və tankçı baş gizir Cəlal Ağayevin qəhrəmanlıqları haqqında söhbət açılıb, onların xalqımızın yaddaşında əbədi yaşayacaqları qeyd edilib.

Hər üç açılışda müəllif İlqar Rüstəmov şəhid ailələrinə, onların yaxınlarına, tədbirdə iştirak edən ziyalılara və gənclərə 100-ə yaxın kitab hədiyyə edib.

***Qabil ƏLİYEV***
***XQ***

## Təqdimat

**Ölkəmizin ictimai həyatında mühüm yer tutan, müxtəlif mövzularda yüzlərlə kitab hazırlayaraq dərc etdirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) özünün sanballı “Göycay Ensiklopediyası”nın davamı olaraq, görkəmli şair, dramaturq, Əməkdar incəsənət xadimi İsgəndər Coşqunun əsərlərinin külliyyatından ibarət yeni “Nəğmə dolu ürək” kitabını rayon ictimaiyyətinə təqdim edib.**

# “Nəğmə dolu ürək” Göyçayda

## *İsgəndər Coşqunun əsərləri yeni əlifbada çap olunub*



Heydər Əliyev Mərkəzində maraqlı təqdimat mərasimi keçirilib. AVCİYA-nın prezidenti Elxan Süleymanov tədbirdən öncə müxbirimizlə söhbətində bildirib ki, Assosiasiyanın xəttilə “Göyçay Ensiklopediyası” hazırlanarkən bu bölgədən olan İsgəndər Coşqunun əsərlərinin cüzi hissəsinin (özü də kiril əlifbası ilə) işıq üzü gördüyü məlum oldu: “Rayon mərkəzi kitabxanasında belə, dillər əzbəri olan şeir və nəğmələrin, aktual poema və pyeslərin müəllifi olan İsgəndər Coşqunun, demək olar ki, heç bir kitabı yox idi. Odur ki, biz onun əsərlərinin külliyyatını hazırlayıb nəfis şəkildə çap etdirməyi qərara aldıq. AVCİYA-nın əməkdaşları müxtəlif mənbələrdən gərgin axtarışlar sayəsində ədibin yaradıcılıq nümunələrini toplayaraq, 576 səhifəlik fundamental toplu hazırladılar. Sənətkarın ruhunu şad etməyimizdən son dərəcə məmnunuq”.

Elxan Süleymanovun “Şair dostum İsgəndər Coşqun haqqında” adlı “Ön söz”ü ilə başlayan kitab şairin müxtəlif mövzu və janrlı əsərlərini əhatə edir. Külliyyat “Nə xoş saatda gəldin sən bu cahana, oğlum!”, “Mən sənsiz qanadları qırılmış bir qartalam”, “Hər vətən deyəndə mən”, “Yaxın, uzaq ellər”, “Ana laylası, ata qayğısı”, “Ömür yolu” kimi yarımbaşlıqlarda əhatə olunmuş 103 şeirdən ibarət “Şeirlər” bölümündə; 39 mətndən ibarət “Nəğmələr” bölümündə, “Əmək qəhrəmanlarına”, “Ağ zənci”, “Gəmidə söhbət” adlı əsərlərdən ibarət “Poemalar” bölümündə, “Söhrab və Rüstəm”, “Ana laylası”, “Çal, oyna”, ”Açıl, bənövşəm, açıl” adlı mətnlərdən ibarət “Pyeslər” bölümlərində təqdim edilib.



Kitabda filologiya elmləri doktoru, professor Asif Hacılının “Nəğmə dolu ürək aşiqiyəm mən: İsgəndər Coşqunun sənət dünyası”, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının ədəbi hissə müdiri, Əməkdar mədəniyyət işçisi Rafiq Rəhimlinin “Sabaha səpilən nur”, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar artisti Gülüstan Əliyevanın “Gəlin qayası” operasında qadın obrazlarının musiqi xasiyyətnaməsindən” adlı məqalələri dərc olunub.

Kitabın maraqlı bir bölməsi də İsgəndər Coşqunun həmkarlarının, ailə üzvlərinin onun haqqında xatirələrindən ibarət bölümüdür. Burada Xalq artistləri Tariyel Qasımovun, Yasin Qarayevin, Əməkdar artist Mübariz Həmidovun, “Göyçay” qəzetinin baş redaktoru, Əməkdar müəllim Adil Məmmədin, şairin qızı – İsveçin Malmö şəhərindəki “Vahid Azərbaycan dərnəyi”nin rəhbəri Aygün Coşqunun, nəvəsi Zərifə Hümbətzadənin xatirələri dərc edilib.

Fundamental toplunun tərtibçisi və redaktoru Asif Hacılı, məsul redaktoru Əməkdar jurnalist Fuad Babayev, bədii redaktoru İrina Muxtarovadır.

Görkəmli şair-dramaturqun əsərlərini oxucuya qaytaran, onun həyat və fəaliyyəti haqqında zəngin təsəvvür yaradan toplunun Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin, tanınmış mədəniyyət xadimlərinin, rayon ictimaiyyətinin iştirakı ilə keçən təqdimat mərasimini RİH başçısının müavini Zivər Zeynalova açıb. Sonra kitabın ideya müəllifi, təşəbbüskarı və naşiri Elxan Süleymanov şair dostu haqqında xatirələrini, şairin həyat və yaradıcılığı ilə bağlı müşahidələrini tədbir iştirakçıları ilə bölüşüb.

Digər natiqlər – Asif Hacılı, Tariyel Qasımov, Rafiq Rəhimli, Ədalət Məmmədov, Ətraf Sərraf, Adil Məmmədli, Elşad Məmmədli, şairin ailə üzvləri kitabın məziyyətlərindən danışıb, onun çapını təqdir ediblər. Gənc ifaçılar İsgəndər Coşqunun sözlərinə bəstələnən nəğmələri, qiraətçi məktəblilər şairin şeirlərini səsləndiriblər.

Sonda tədbir iştirakçılarına “Nəğmə dolu ürək” kitabı hədiyyə olunub.

***İlqar HƏSƏNOV***
***XQ***

# Turizm təhsilində təcrübə dərsləri

**Dövlət Turizm Agentliyi və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) birgə təşəbbüsü ilə təşkilata üzv olan 11 dövlətin turizm üzrə ixtisaslaşmış təhsil müəssisələrinin birinci görüşü keçirilib.**



BMT-nin Ümumdünya Turizm Təşkilatının nümayəndələrinin də iştirak etdiyi tədbirdə çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bu görüşün üzv dövlətlərin turizm təhsili verən ali təhsil müəssisələrinin bilik və təcrübə mübadiləsinin asanlaşdırılması baxımından faydalı olacağını vurğulayıb. O, turizm sektorunda iş yerlərinin ildən-ilə çoxalmasına diqqət çəkib və Azərbaycan gənclərini karyera imkanlarını nəzərə alaraq ixtisas seçərkən turizmyönümlü sahələrə üstünlük verməyə çağırıb.

QDİƏT-in Baş katibi Lazar Komanesku çıxış edərək deyib ki, iki gün davam edəcək tədbirdə turizmin inkişafı istiqamətində əməkdaşlıq perspektivləri və turizm təhsilinin inkişafına töhfə verəcək məsələlər ətraflı müzakirə ediləcək. “Azərbaycana çox sayda səfərlərim olub. İlk səfərim 2008-ci ildə həyata keçirilib. Mən bura gələn turistlərin Azərbaycandan nə qədər məmnun ayrıldıqlarına şahid olmuşam. Tam səmimi şəkildə deyə bilərəm ki, Azərbaycanda turizm sektoru günü-gündən inkişaf edir və nəticələri də göz qabağındadır”, – deyə Lazar Komanesku vurğulayıb.

Sonra görüş çərçivəsində “Hökumət, akademiya və sənayenin əlaqələndirilməsi: Turizm təhsilində ən yaxşı təcrübələr” mövzusunda panel keçirilib. Azərbaycan Hotel Assosiasiyası İB İdarə Heyətinin sədri Eldar Əlimuradov, Ankara Hacı Bayram Vəli Universiteti turizm fakültəsinin professoru Yalçın Aslantürk, Buxarest İqtisadi Araşdırmalar Universiteti biznes və turizm fakültəsinin dekanı Qabriela Tiqu, Rusiya Turizm Sferasında Beynəlxalq Əməkdaşlıq Departamentinin işçisi Mixail Serov, Varna İqtisadiyyat Universitetinin nümayəndəsi Genka Rafailova mövzu ilə bağlı maraqlı fikirlər söyləyiblər.

Panel zamanı əsas əməkdaşlıq sahələrinin və tərəfdaşlıq imkanlarının müəyyən edilməsi, əməkdaşlığın təşviqində problemlər və potensial həll yollarının müzakirəsi, məzunların turizm sektorunun tələblərinə hazır olmalarını təmin etmək yolları, sənayedəki trendlərin təhlili və onların təlim proqramlarına daxil edilməsi kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Aprelin 23-də davam edəcək görüş çərçivəsində “Kurikulum dizaynı: Sabahın ehtiyacları üçün turizm təhsilinin təkmilləşdirilməsi” mövzusunda panel diskussiya, həmçinin “Turizm təhsilində keyfiyyət təminatı və akkreditasiya” mövzusunda dəyirmi masa keçiriləcək.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Rusiya–Ukrayna müharibəsi: Kəsmir heç kim tökülən qan izini



**ABŞ Konqresinin aşağı palatasının Ukraynaya yardım haqqında qanun layihəsini təsdiqləməsi Kiyev və onun müttəfiqlərinin razılığına səbəb olub. Onlar Ağ evə və konqresmenlərə minnətdarlıq mesajları göndəriblər. Rəsmi Moskva isə hesab edir ki, yardımın Ukraynaya xeyrindən çox zərəri dəyəcək. Ona görə ki, müharibə daha da uzanacaq və Ukraynanın itkiləri artacaq.**

Dünən NATO-nun Baş katibi Yens Stoltenberq bildirib ki, amerikalıların artan maliyyə dəstəyi Ukraynanın avropalı müttəfiqlərin on milyardlarla yardımını tamamlayacaq. Stoltenberq demək istəyib ki, “Köhnə qitə” dövlətləri Kiyevi Rusiyanın artıq 27 aydır davam edən hücumu qarşısında tək qoymayıblar.

Y.Stoltenberq, həmçinin xatırladıb ki, aprelin 19-da NATO–Ukrayna Şurasının iclasında alyansa üzv dövlətlərin müdafiə nazirləri Ukraynaya həm də hava hücumundan müdafiə sahəsində əlavə hərbi dəstək verməyə razılaşıblar. Həqiqətən, son aylar avropalı müttəfiqləri Ukraynaya qarşı daha səxavətli olublar.

Bu arada Almaniya Kansleri Olaf Şolts bəyan edib ki, onun ölkəsi Ukraynaya 6 ədəd ABŞ istehsalı olan “Patriot” qırıcı təyyarəsi verməyi qərara alıb. Artıq ilk belə təyyarə ünvana çatdırılıb. Yeri gəlmişkən, Almaniya ABŞ-dən sonra Ukraynaya ən çox maliyyə yardımı göstərən dövlətdir. Maraqlıdır ki, bu ilin I rübündə Almaniya hakimiyyəti 5,2 milyard avro dəyərində silah ixrac edib. Bu ölkənin silah ixracatının 74 faizi məhz Ukraynaya gedib.

Almaniyadan fərqli olaraq, Fransa prezidenti Emmanuel Makron bu günlərdə Kiyevi pərt edib. Bildirib ki, Rusiya nüvə silahına malik olduğu üçün onun ölkəsi Ukraynaya uzaqvuran raketlər verə bilməz. Bu məsələ Ukrayna mediasında geniş müzakirə olunur və Fransanın dövlət başçısının sözdə bir, əməldə tamam başqa, yəni riyakar siyasət həyata keçirdiyi xüsusi vurğulanır.

Yuxarıda qeyd etdiyimiz kimi, iki gün əvvəl ABŞ Konqresinin Nümayəndələr Palatası Ukraynaya yardım üçün 61 milyard dolların ayrılmasını təsdiqləyib. Daha sonra qanun layihəsi müzakirələr üçün senatorların böyük əksəriyyətin Ukraynaya yardımı dəstəklədiyi Senata ötürüləcək. Bundan sonra isə sənədi dövlət başçısı imzalamalıdır. Bu prosedurların kifayət qədər sürətlə baş verəcəyi ehtimal olunur.

Bu arada məlum olub ki, Pentaqon yaxın günlər ərzində ATACMS taktiki raketləri də daxil olmaqla, müxtəlif növ modern silahların Ukraynaya təhvil verilməsinə başlaya bilər. Senatın Kəşfiyyat Komitəsinin rəhbəri Mark Uorner deyib ki, Prezident Cozef Bayden qanun layihəsini imzaladıqdan sonra bu silahlar həftənin sonuna qədər göndəriləcək. Senator onu da vurğulayıb ki, yardım paketinə uzaqmənzilli silahlar daxil olacaq.

Kremlin ABŞ-nin Nümayəndələr Palatasının Kiyevə hərbi yardım haqqında qanun layihəsini təsdiqləməsinə reaksiyası özünü çox gözlətməyib. Belə ki, Rusiya Prezidentinin sözçüsü Dmitri Peskov bildirib ki, “Ukraynaya yardım göstərmək qərarı gözlənilən idi və bu, Amerika Birləşmiş Ştatlarını daha da zənginləşdirəcək və Ukraynanı daha da viran qoyacaq, Kiyev rejiminin günahı üzündən daha çox ukraynalının ölümünə səbəb olacaq”.

Rusiya–Ukrayna müharibəsi isə davam edir. Dünən Rusiya–Ukrayna müharibəsi cəbhəsinin bütün təmas xətti boyu mövqe döyüşləri baş verib. Cəbhədən mediaya verilən məlumatlarda Rusiya hərbçilərinin Donetsk vilayətinin Yeni Avdeyevka yaşayış məntəqəsi istiqamətində hücumları davam etdirdiyi qeyd olunur.

Tərəflər dünən yenidən bir-birinin ərazilərini raket və PUA zərbələrinə məruz qoyublar. Hər iki tərəfdən dağıntı və itkilərin olduğu qeyd olunur. Ölən və yaralananlar arasında uşaq, qoca və qadınların da olduğu bildirilir. Savaşın nə vaxt bitəcəyi isə heç kəsə məlum deyil.

***MH ACIXANLI***
***XQ***

## Ekspert rəyi



**Aydın İBRAHİMOV,**
**BDU-nun Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor**

– 2024-cü il fevralın 24-də başlanan Rusiya-Ukrayna müharibəsi ağır zorakılıqlarla müşayiət olunur. İki qonşu slavyan xalqının cəlb olunduğu bu mənasız kəskin silahlı qarşıdurma hər iki ölkəyə böyük məhrumiyyətlər gətirir. Təəssüf ki, bu qırğının qarşısını almaq hələlik heç cür mümkün olmur.

Son aylar cəbhənin təmas xəttində Rusiya Silahlı Qüvvələrinin fəallaşdığı aşkar hiss olunur. Ruslar ciddi irəliləyişlərə nail ola bilməsələr də, yavaş-yavaş irəli gedirlər. Ukraynalıların isə müqavimət dərəcələri və imkanları azalır. Kiyevin belə bir məqamda daşı ətəyindən töküb atəşkəsə nail olmaq üçün sülh danışıqlarına başlaması zəruridir. Əslində, bu, hər iki tərəfin xeyrinədir.

Bir faktı nəzərə almaq lazımdır ki, Rusiya–Ukrayna müharibəsində tərəflərin resursları bərabər deyil. Rusiyanın ərazisi və təbii sərvətləri Ukraynadan qat-qat çoxdur. Rusiyanın əhalisi də, az qala beş dəfə çoxdur. Ukrayna iqtidarı bu amilləri əvvəlcədən nəzərə almalı və qarşıdurmadan yayınmağa cəhd etməli idi. Acı reallıq budur ki, Qərb Ukraynanı qızışdırdı və vədlərinə əməl etmədi. Ukrayna bunun gec-tez fərqinə varacaq.

İndi artıq ox yaydan çıxıb. Müharibənin benefisiarları, əsasən, qlobal silah ixracatçılarıdır. Hazırda bir çox ölkələr, xüsusilə Rusiyanın zəngin təbii sərvətlərini su qiymətinə satın aldıqları üçün çox məmnundurlar. Belə ölkələrə, ilk növbədə, Çin və Hindistanı aid etmək olar.

Gözlərimiz önündə Ukraynanın şəhər və kəndləri absurd siyasi iddiaların qurbanına çevrilir. Bir daha vurğulamaq istəyirəm: Müharibəni nəyin bahasına olursa-olsun mütləq dayandırmaq lazımdır. Hər iki tərəfdən həyatları məhv olan insanların heç bir günahı yoxdur.

Böyük Azərbaycan mütəfəkkiri Hüseyn Cavid haqlı olaraq yazmışdır:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur Yer üzünü.

Bəli, dünya birliyi və mütərəqqi ictimaiyyət bu mənasız savaşa qətiyyətlə “yox” deməlidir!

# Yeni Klinikanın uğuru Türkiyə qəzetində

**Türkiyənin ən nüfuzlu mətbuat orqanlarından olan “Sabah” qəzeti Azərbaycanın səhiyyə sektoru ilə əlaqədar məqalə hazırlayıb.**




Məqalədə TƏBİB-in nəzdində fəaliyyət göstərən “Yeni Klinika”nın Azərbaycanda və hətta regionda tibb müəssisələri arasında ilk dəfə olaraq xəstəxana məlumat idarəetmə sisteminə görə, ABŞ Səhiyyə İnformasiya və İdarəetmə Sistemləri Cəmiyyətinin (HIMSS) nüfuzlu beynəlxalq akkreditasiya sertifikatını almasından bəhs edilib.

Xatırladaq ki, sertifikat informasiya texnologiyaları və idarəetmə sistemlərindən yüksək səviyyədə istifadə etməklə səhiyyə xidmətlərinin keyfiyyətini, təhlükəsizliyini və səmərəliliyini davamlı olaraq artırmaq məqsədi ilə verilir.

***XQ***

## “Sabunçuavtomatikaquraşdırma” ASC-nin 2023-cü il dekabrın 31-nə mühasibat balansı

(manatla)

| Bölmələrin, maddələrin adları | Hesabat dövrü üzrə 2023-cü il | Əvvəlki dövr üzrə 2022-ci il |
|---|---|---|
| **Aktivlər** | | |
| Torpaq tikili və avadanlıqlar | 135229.7 | 136571.3 |
| **Cəmi uzunmüddətli aktivlər** | | |
| Ehtiyatlar | 12108.34 | 3322.93 |
| Qısamüddətli debitor borcları | 110874.31 | 92454.07 |
| Sair qısamüddətli aktivlər | 436.60 | 4255.4 |
| **Cəmi aktivlər** | 258648.95 | 236604.3 |
| **Kapital** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 152354 | 152354 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 52168.3 | 33503 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | |
| Qısamüddətli kreditor borcları | 54126.65 | 50747.3 |
| **Cəmi kapital və öhdəliklər** | 258648.95 | 236604.3 |

## “Azərenerji” ASC-nin “Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu” MMC

### 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir

“Azərenerji” ASC-nin Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”na uyğun olaraq aşağıdakı ixtisaslar üzrə qəbul aparacaqdır:

3340.01 – Elektrotexniki sistemlər və komplekslər.

3341.01 – Elektrik stansiyaları (elektrik hissəsi) və elektroenergetik sistemlər.

3342.02 – İstilik elektrik stansiyaları (istilik hissəsi).

3344.01 – İstilik elektrik stansiyaları (istilik hissəsi).

5312.01 – Sahə iqtisadiyyatı.

“Fəlsəfə doktoru” proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

• ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
• kadrların şəxsi-qeydiyyat vərəqi;
• tərcümeyi-hal;
• iş yerindən xasiyyətnamə;
• 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
• iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
• çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
• ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respunlikası vətəndaşları üçün təhsil sənədlərinin tanınması barədə şəhadətnamə);
• xarici dil bilikləri üzrə beynəlxalq sertifikatı olanlara (IELTS, TOEFL, Cambridge English Qualifications, TestDaF, DELF, DALF, STANAG əgər varsa) və ya xarici dildən keçid balını toplayanlara Dövlət İmtahan Mərkəzi tərəfindən verilən təsdiqedici sənəd;
• şəxsiyyəti təsdiq edən sənədin surəti.

“Elmlər doktoru” proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və “Fəlsəfə doktoru” (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

“Elmlər doktoru” proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

• ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
• kadrların şəxsi qeydiyyat vərəqi;
• tərcümeyi-hal;
• 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
• iş yerindən xasiyyətnamə;
• əmək kitabçasından çıxarış;
• çap olunmuş elmi işlərin siyahısı;
• “Fəlsəfə doktoru” və ya “Elmlər namizədi” elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;
• ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respunlikası vətəndaşları üçün təhsil sənədlərinin tanınması barədə şəhadətnamə);
• şəxsiyyəti təsdiq edən sənədin surəti.

Qeyd- xarici dil (ingilis, alman və fransız dillərindən biri) fənnindən imtahan Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Doktoranturaya və ya dissertanturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin https://portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək təlimatlara uyğun şəkildə qeydiyyatdan keçməlidirlər. Doktorantura və dissertanturaya sənəd qəbulu 2024-cü il aprelin 23-dən mayın 15-dək həyata keçiriləcəkdir.

Əlaqə telefonu- 050-228-84-27 -Ülviyyə Nəsibova.

Ünvan- AZ1122, Bakı şəhəri , Zərdabi prospekti 94.

## Azərbaycan İlahiyyat İnstitutu

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli 163 s nömrəli sərəncamı ilə təsdiq olunmuş plan əsasında 2024-cü il üçün fəlsəfə doktoru proqramları üzrə dissertanturaya və doktoranturaya qəbul elan edir

Fəlsəfə doktoru proqramları üzrə doktoranturaya sənəd qəbulu 2024-cü il mayın 15 -dək həyata keçiriləcəkdir.

Qeydiyyatı təsdiqlənən şəxslərin “Xarici dil” imtahanı Dövlət İmtahan Mərkəzi tərəfindən 2024-cü il iyunun 9-da keçiriləcəkdir.

Xarici dil imtahanını müvəffəqiyyətlə verən şəxslərin Fəlsəfə fənni üzrə imtahanı 2024-cü il sentyabrın 2,3 və 4 -də , ixtisas imtahanı isə sentyabrın 9,10 və 11 -də keçiriləcəkdir.

Doktoranturaya isə sənəd qəbulunun “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilməsi planlaşdırılır.

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu və qeydiyyatı” xidmətini seçərək təlimatlara uyğun şəkildə qeydiyyatdan keçməlidirlər.

Əlaqə nömrəsi: +994 12 436 77 66 (daxili: 118; 117).

İDMAN

# Məhdud imkanlarla yüksək nəticələr...

**Özlərinə qalib gələrək məhdud sağlamlığı üzərində nəzarətə nail olan insanlar standart yarışların medalçılarından heç də az qürur duymur, az sevinmirlər. Bu uşaqlar haqqında mətbuatda nə qədər çox yazılsa da, televiziyalarda göstərilib, dəstək tədbirləri təşkil olunsa da azdır. Çünki onlar hər sabahı mübarizə aparmaq, qalib olmaq arzusu ilə açırlar. Söhbət əqli imkanları məhdud şəxslərdən gedir. Xüsusi qayğıya ehtiyacı olan bu uşaqları xüsusi olimpiyaçılar da adlandırırlar.**



Öz sıralarında xüsusi qayğıya ehtiyacı olan minlərcə uşağı birləşdirən Azərbaycan Xüsusi Olimpiya Komitəsinin (XOK) ilboyu təşkil etdiyi yarışlarda qalib



adı uğrunda yorulmadan mübarizə aparan uşaqların əzmkarlığını həyəcansız izləmək mümkün deyil. Onlar bu yarışlara hazırlaşmaq üçün hər gün ciddi səy göstərirlər.

XOK-un prezidenti Rövşən Məmmədov “XQ”yə açıqlamasında il ərzində 2 mindən çox atletin badminton, basketbol, atletika, cüdo, florbol, futbol, həndbol, poerliftinq, stolüstü tennis, üzgüçülük, voleybol üzrə məşqlərə cəlb olunduğunu, onlardan yarıdan çoxunun yerli yarışlarda iştirak etdiklərini bildirdi:

–100-ə yaxın atlet isə yığma komandaların heyətində hazırlıq keçir ki, onların arasından da beynəlxalq yarışlarda mübarizə aparacaq idmançılar seçilir. Xüsusi Olimpiya proqramı əqli imkanları məhdud olan uşaqlara öz atletik bacarıqlarını bütün səviyyələrdə nümayiş etdirməyə imkan yaradır. Zəif, orta və yüksək nəticə göstərən idmançılar öz hazırlıq səviyyələrinə uyğun olaraq ayrı-ayrı qruplara bölünür və hər qrupda ayrı-ayrılıqda qızıl, gümüş və bürünc medallar uğrunda mübarizə aparırlar.

Onu da qeyd edək ki, atletlərin yarışlarda iştirakını təmin etmək üçün Bakı və Abşeron yarımadasından əlavə, 7 regional proqram fəaliyyət göstərir. Turnirlərə, həmçinin xüsusi, yardımçı məktəb və internat, ictimai birliklər, mərkəzlərdən atletlər qatılır. Yerlərdə keçirilən regional yarışlar vasitəsilə yığma komandalar formalaşdırılır və onların respublika yarışlarında iştirakı təmin olunur.

Belə uşaqlar ailə proqramı vasitəsilə də Xüsusi Olimpiya hərəkatına cəlb olunurlar. Ölkəmizdə indiyədək 440 ailədən uşaqlar idmana cəlb olunublar. Ailə proqramının tərkibində 3-7 yaşlı gənc atletlərin cəlb olunmasını həyata keçirən layihə xüsusilə vurğulanmalıdır. “Gənc atletlər” adlanan bu layihə məktəbəqədər yaşlı



əqli imkanları məhdud olan uşaqlar cəlb edilir. Onlar da xüsusi olimpiyadanın ehtiyat qüvvələri hesab olunurlar.

Hazırda qızlardan ibarət yığma Serbiyada, oğlanların komandası Litvada bu ilin iyununda keçiriləcək Avropa basketbol turnirlərinə hazırlaşırlar. Ötən həftə hazırlıq çərçivəsində keçirilmiş yarışda qızlar arasında 12 nömrəli xüsusi internat və 193 nömrəli tam orta məktəb inklüziv birgə komandası qalib adını qazanıb. Oğlanların mübarizəsində isə Xəzər rayonu sağlamlıq imkanları məhdud uşaqlar üçün 12 nömrəli xüsusi internat məktəbinin komandası birinci yeri tutub.

Gələn ay isə həm qızlar, həm də oğlanlar arasında “UNIFIED Sports” (inklüziv birləşmiş idman komandaları) proqramına uyğun Avropa Futbol Həftəsi keçiriləcək. Həftə çərçivəsində yarışlar Bakıda təşkil edilsə də, region idmançılarının da iştirakı planlaşdırılır.

Rövşən Məmmədovun sözlərinə görə, Xüsusi Olimpiya hərəkatında əsas məqsəd məhz böyük idman deyil, uşaqların kütləvi idmanla məşğul olmasını təmin etməkdir. Xüsusi Olimpiya hərəkatının “Mənə imkan verin, mübarizə aparıb qalib gəlim. Qalib gələ bilməsəm də hər yarışdan sonra cəsarətli olum”, – devizi də məhz bu mərama xidmət edir. O, komandamızın istər Ümumdünya xüsusi yay, istərsə də qış oyunlarında böyük əzmkarlıq göstərərək yüksək nəticələr əldə etdiyini də dedi.

Elə ötən il komandamızın Almaniyanın Berlin şəhərində keçirilən Ümumdünya Xüsusi Yay Olimpiya oyunlarından 6 qızıl, 5 gümüş və 13 bürünc medalla qayıtması bu uğurlara gözəl nümunədir. Azərbaycanın gimnastika tarixində ilk dəfə təmsil olunduğu həmin oyunlarda komandamızın üzvü Mehriban Tağıyevanın 1 qızıl, 3 bürünc medal qazanması xüsusilə qürurvericidir.

Xüsusi olimpiyaçıların onların cəmiyyətə inteqrasiyasında mühüm rol oynayan idmanla daha yaxından məşğul olmaları üçün yaradılan imkanlar genişləndikcə, qələbə əzmi də artır. Qalib olmaq üçün göstərilən fədakarlıq isə əsl qəhrəmanlıq nümunəsidir.

***Leyla QURBANOVA***
***XQ***

## “Xalq Həyat” Sığorta Şirkəti ASC səhmdarlarının nəzərinə!

7 iyun 2024-cü il saat 15.00-da “Xalq Həyat” Sığorta Şirkəti ASC səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir. Yığıncaq Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Heydər Əliyev prospekti 164 nömrəli ünvanda keçiriləcəkdir.

Səhmdarların ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələ daxil edilmişdir:

1. Cəmiyyətin 2023-cü il üzrə maliyyə hesabatlarının təsdiq edilməsi.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 81 (30485) 23 aprel 2024-cü il, çərşənbə axşamı

# Taxta tüfəngli, şalvarsız əsgərlər – evzonlar





**Onlara Afinada prezident sarayının yaxınlığındakı Sintaqma meydanında, milli bağın mərkəzində rast gələ bilərsiniz. Məzəli geyim formasında olan bu əsgərlər "evzonlar" adlanan prezident qvardiyasını təmsil edir.**

"Evzon" sözü Homerin "İliada" poemasında da işlənib. Tərcüməsi "möhkəm kəmərlənmiş" deməkdir. "İliada"da bu ifadə seçilən döyüşçülərə aid edilir.

### Seçilmiş döyüşçülər

Evzonlar, ənənəvi olaraq, taxta altlıqlı, dəmir dabanlı ayaqqabılar, flanelli köynəklər, yun taytlar və iri qotazlı məxmər beretlər geyinərək parad keçirirlər. Əllərində silah əvəzinə, oyuncağa bənzəyən laklı taxta tüfəng tuturlar. Evzonların geyimindəki kulminasiya nöqtəsi məşhur ağ rəngli qat-qat yubkalarıdır. Bəzən onları lağa qoymaq üçün deyirlər: Bir evzona tüfəng əvəzinə, dəbli bir çanta verilsə, onu məmnuniyyətlə istənilən moda podiumuna buraxarlar.

Əslində, evzonlar qədimdən qalma hərbi birlik olub. Birliyə hərbi xidməti başa vurduqdan sonra altı ay sərt hərbi təlim keçmiş, boyu 188 sm-dən aşağı olmayan fiziki cəhətdən güclü əsgərlər seçilib. Evzona namizədlərin üçdə ikisi, adətən, birliyə yararsız olur. Bunun səbəbi, evzonluğun fantastik dözümlülük tələb etməsidir.

Onlardan istiyə, soyuğa, ağrıya, aclığa mətanətlə duruş gətirərək saatlarla heykəl kimi hərəkətsiz dayanmaq tələb olunur. Əslində, evzonlar həqiqi hərbi təcrübəyə malik döyüşçülərdir. Onlar meydanda heç də simvolik mənada dayanmırlar. Evzonlar hazırda prezidentin iqamətgahını mühafizə edirlər.

### 400 il Osmanlı tabeliyində

Tarixdən məlumdur ki, Yunanıstan 400 il Osmanlı imperiyasının idarəçiliyi altında olub. XIX əsrdə Osmanlıya qarşı qiyam qaldıran yunanlar məhz bu ağ yubkalı evzon dəstələrini Osmanlı ordusunun üstünə göndərirdilər. Türklər bu qəribə geyimli yunan əsgərlərini ironiya ilə "əfsun" adlandırırdılar.

Evzon geyiminin aksessuarları kişi yubkası (fustanella), papaq (fareon), yunan naxışları ilə bəzədilmiş fermelli jilet, ağ köynək və dağ gəzintiləri zamanı ayaqları isti saxlamaq üçün nəzərdə tutulmuş periskelid corabdan ibarətdir. Vaxtilə evzonların yubkalarına 400 qat tikilirmiş. Bu da rəmzi olaraq Osmanlı hakimiyyəti altında keçən 400 ili təmsil edir. Evzonlar hər tayı 4 kiloqram olan ağır pomponlu dəmir çəkmələr geyinirdilər. "Çarıx" adlanan bu çəkmələr, əsasən, buzluq ərazilər üçün hazırlanırdı.

Müasir dövrdə prezident qvardiyasında təmsil olunan hər bir evzonun geyinməsi ən azı saat yarım çəkir. Bu çətin prosesdə əsgərə köməkçi yardım edir. Evzonların rütbələrini onların geyim forması ilə fərqləndirmək olur. Zabitlərin yubkası daha qısa, köynəklərindəki qotazlar isə, əksinə, uzun olur. Kapitan isə qırmızı jilet geyinir.

Çarıqların pomponları da təsadüfən seçilməyib. Osmanlı dövründə xristian yunanların silah gəzdirməsinə icazə verilmirdi. Hiyləgər yunan əsgərləri ayaqqabılarının ucundakı iri ponponları qoyun yunundan yumurlayıb tikmək qərarına gəlirlər. Bu yolla onlar yumurlanmış yunun arasında kiçik ölçülü bıçaq, digər kəsici alətlər gizlədiblər.

Evzonların gülüş doğuran addım marşı isə yunan xalq rəqslərindən törəyib. Bu cür addımlama forması qədim yunan döyüş atlarının sərt yerişini simvolizə edir.

### "Şalvarla döyüşə bilmirik…"

Yunan kralı I Otto XIX əsrdə öz əsgərlərinə Qərbi Avropanın ciddi hərbi formalarından geyindirməyə çalışıb. Lakin evzonlar həmin formalardan qəti şəkildə imtina ediblər. Onlar krala müraciət edərək dar şalvarla döyüşə bilmədiklərini, yubkalarını onlara geri qaytarmasını xahiş ediblər. Kral onların xahişinə əməl edib. Evzonlar XX əsrin əvvəllərində Balkan müharibələrində öz yubkaları ilə yaxşı çıxış ediblər. Birinci Dünya müharibəsində, sonralar 1940-cı ildə italyanlarla müharibədə də döyüşçü kimi pis performans göstərməyiblər.

Ədalət naminə qeyd etmək lazımdır ki, ciddi görkəm alan evzonlar heç də həmişə gülünc görünmürlər. Ancaq Yunanıstana ilk dəfə səfər edən turistlərin əksəriyyəti evzonların bu qeyri-adi görkəminə gülməyi özlərinə qəbahət saymırlar.

**Murad KÖHNƏQALA**

## İDMAN

### Gimnastlarımız 2 Dünya kuboku medalı qazanıblar



**Bakıda keçirilən bədii gimnastika üzrə Dünya kuboku yarışında qrup hərəkətləri komandamız 2 bürünc medal qazanıb.**

Yarışın sonuncu günündə Zeynəb Gümmətova, Güllü Ağalarzadə, Kamilla Əliyeva, Yelizaveta Luzan, Dariya Sorokina və Laman Əlimuradovadan ibarət komanda üç lent və iki topla finalda mübarizə aparıb. Onlar 30.200 xalla 6-cı yeri tutublar.

Daha əvvəl yığmamız çoxnövçülükdə və halqa ilə çıxışda iki bürünc medal əldə edib.

Bununla da, Dünya kubokunun yekunlarına görə, Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası "AGF Trophy" mükafatına layiq görülüb.

Qeyd edək ki, yarışda 41 ölkəni təmsil edən 129 idmançı iştirak edib.

### Cüdoçularımız Avropadan 6 medal gətiriblər



**Cüdoçularımız İtaliyanın Liqnano şəhərində keçirilmiş Avropa kuboku yarışında 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıblar.**

Yarışda Nizami İmranov (60 kq), Əjdər Bağırov (100 kq) qızıl medal əldə ediblər. Süleyman Şükürov (81 kq) gümüş, Nihad Şıxəlizadə (100 kq), Ramazan Əhmədov (+100 kq) və Məhəmməd Musayev (66 kq) bürünc medala sahib çıxıblar.

Milli komanda medal əyarına görə ümumi hesabda 4-cü, oğlanlar arasında isə 2-ci yeri tutub.

### Hindistanlı qalib şahmat iddiaçısı olub



**Kanadanın Toronto şəhərində təşkil olunan şahmat üzrə İddiaçılar Turniri başa çatıb.**

Azərbaycan təmsilçisi Nicat Abasov yarışın son günündə – XIV turda hindistanlı Rameşbabu Praqnanandha ilə qarşılaşıb.

Ağ fiqurlarla oynayan 28 yaşlı qrosmeyster rəqibinə uduzaraq, turniri qələbəsiz başa vurub. O, 3,5 xalla yekun sıralamada sonuncu – 8-ci yeri tutub.

İddiaçılar Turnirində kişilər arasında hindistanlı Dommaracu Qukeş qalib adını qazanıb. Qadınların yarışında isə çinli Tan Çjunyi (hər ikisi 9 xal) 1-ci yeri tutub.

***L.SABİRQIZI***
***XQ***

# "İnstagram"ın bahar bonusu



**"İnstagram" məzmun (foto və video çarxlar, şəkilli postlar və s.) yaradıcıları üçün əlavə ödəniş edəcək. Bu barədə "Business Insider" xəbər saytı məlumat verib.**

Xəbərdə, həmçinin bildirilir ki, əlavə ödənişlər "Spring bonus" adlanan proqram vasitəsilə icra ediləcək. Proqramdan hazırda yalnız dəvət göndərərək istifadə etmək mümkündür. 30 günlük müddət üçün 30 min dollar ödəniş nəzərdə tutulub.

Qeyd edək ki, şirkət foto və videolar, tək şəkilli postların və s. bəyənilmə və izlənilmə sayına görə "Bahar bonusu" təqdim edir. Burada izləyicilərin sayının baxış və bəyənmə saylarından daha az olması məqsədəuyğundur.

İzləyici sayı çox olduqda istifadəçi hesabları fərqlənir və onları tapmaq asanlaşır. Ümumiyyətlə, bir hesabın nə qədər fəal olduğunu öyrənmək istəyirsinizsə, paylaşımlara gələn bəyənilmə və izlənmə sayına baxmağınız kifayətdir.

***S. FİDAN***
***XQ***

## SAĞLAMLIQ

# Banan – yaşıl, yoxsa sarı?

**Bananın hər növünün fərqli dadı var. Yetişməmiş, yaşıl banan lif baxımından daha zəngindir. Xüsusilə şəkər xəstələri üçün yaşıl banan daha faydalı hesab olunur. Yaşıl bananla bağlı dietoloqlar onun bilinməyən faydalarını açıqlayıblar.**



Yaşıl bananın tərkibində qlükoza azdır. Banan yetişməyə başlayanda içindəki nişasta şəkərə çevrilir. Bu baxımdan yaşıl bananın tərkibində həzm sisteminə faydalı, yavaş-yavaş həzm olunan davamlı nişasta var. Bu xüsusiyyətlər qan şəkərində qəfil artımın qarşısını alaraq diabet xəstələri üçün xüsusilə faydalı ola bilər. Davamlı nişasta bağırsaq sağlamlığını dəstəkləyir və həzm sistemində yaxşı bakteriyaların inkişafına kömək edir.

Liflə zəngin olduğu üçün yaşıl banan toxluq hissini artırır. Ona görə də çəkiyə nəzarət etməyi asanlaşdırır. Tərkibindəki vitaminlər sarı, yetişmiş banana dəmək olar ki, eynidir.

Yaşıl bananın probiotik təsiri var. Bağırsaqlarda faydalı bakteriyaların qidalanmasına kömək edir və həzm sisteminin sağlam işləməsinə səbəb olur.

Bundan əlavə, bəzi tədqiqatlar göstərir ki, yaşıl bananın tərkibindəki davamlı nişasta xolesterol səviyyəsini aşağı sala bilər.

**Z.HÜSEYNLİ**
**XQ**

# Ay yerində qalsın...



**Məlum olduğu kimi, Ayda nə külək, nə də su var, ona görə də "Apollon" gəmisinin astronavtlarından qalan ayaq izləri itmir. Bu, o deməkdir ki, Ayda qalan cihazlar, eləcə də astronavtların ayaq izləri uzun müddət dəyişməz qalır.**

Bu izlər üçün yalnız mikrometeoritlər təhlükəlidir. Onlar Ay səthinə çökür, lakin təsiri zəifdir.

Bəs Ay yox olarsa nə baş verər? Alimlərin fikrincə, Yer kürəsində Günəş və Ay tutulmaları olmaz, tektonik plitələr yerlərini dəyişər, zəlzələlər və vulkan püskürmələri artar. Planetin iqlimi indikindən çox fərqlənər.

Qoy Yer yerliyində, Ay da aylığında qalsın!

**PÜNHAN**
**XQ**

# İngilislər Xaqani qəzəlini oxuyurlar

**Son illər Böyük Britaniyada klasssik Azərbaycan ədəbiyyatına maraq artır.**

İngiltərənin populyar "Write Out Loud" ədəbiyyat portalı Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində dahi Azərbaycan şairi Xaqani Şirvaninin ingilis dilinə tərcümə edilmiş "Canım nə qədər varsa, mənə canan sən olarsan" qəzəlinin yayımına başlayıb.

Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, şairin yaradıcılığı haqqında məlumatla təqdim olunan qəzəlin ingilis dilinə tərcümə müəllifi – tanınmış ingilis tərcüməçisi Tom Bottinqdir.

Qeyd edək ki, geniş oxucu auditoriyası tərəfindən izlənən portal mütəmadi olaraq səhifələrində Vilyam Şekspir, Aleksandr Puşkin, Fridrix Şiller, Emili Dikinson, Pablo Neruda kimi dünyaşöhrətli şairlərin yaradıcılığına yer ayırır.

***AYTƏN***
***XQ***

# Abşeronda yağmursuz, bölgələrdə yağıntılı, dumanlı və küləkli



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 23-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.**

Əsasən, yağmursuz keçəcək. Lakin axşam yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 14-18°, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 40-60 faiz olacaq.

Azərbaycanın rayonlarında gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 25-30°, dağlarda gecə 8-13°, gündüz 13-18° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Milli Məclisin sabiq deputatı

HADI RƏCƏBLİNİN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3881
SİFARİŞ 826
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00